Xalqın qəzeti!

# Xalq qəzeti

№ 99 (31068) 9 iyun 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## İsveçin Kralı Əlahəzrət XVI Karl Qustava

**Əlahəzrət!**

İsveç Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınıza daim firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 3 iyun 2026-cı il**

# Azərbaycan Ermənistanla sülh gündəliyinə sadiqdir

Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp isə şahid kimi imza atdı. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub.

Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



## Üç paytaxtın vahid strateji baxışı



Səhifə ⇨ 6

## Sülh yenidən raket zərbələri hədəfində



Səhifə ⇨ 11

# Azərbaycan kəndi yeni yüksəlişin astanasında



Səhifə ⇨ 8-9

## Qlobal maliyyə bazarlarında “qırmızı fırtına”



Səhifə ⇨ 7

## Moskva İrəvanda seçkinin nəticəsini tanıyacaqmı?



Səhifə ⇨ 4

## Azyaşlılar rəqəmsal mühitə çıxışa hazır deyillər



Səhifə ⇨ 4

## “Fitch ratings”in ölkəmizlə bağlı nikbin gözləntiləri




**Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər dünyanın əksər dövlətləri, eləcə də bir sıra beynəlxalq təşkilatlar tərəfindən bəyənilir, təqdir edilir. Hazırda dünyanın tanınmış reytinq agentlikləri də ölkəmizin gələcək iqtisadi inkişafı ilə bağlı nikbin, ümidverici fikirlər səsləndirir, əvvəlki proqnozlarını mütəmadi olaraq yeniləyirlər.**

*(ardı 7-ci səhifədə)*

## Ermənistanda parlament seçkiləri və Azərbaycan amili



Səhifə ⇨ 3

## Paşinyan “savaşçılar”ın yolunu bağladı



Səhifə ⇨ 3

## “3+1” formatında strateji axtarışlar



Səhifə ⇨ 5

## Qələbə var, konstitusiya çoxluğu isə yoxdur



Səhifə ⇨ 5

# Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi haqqında” 2015-ci il 23 iyul tarixli 571 nömrəli, “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” 2018-ci il 19 dekabr tarixli 413 nömrəli, “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” 2019-cu il 27 iyun tarixli 759 nömrəli və “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 23 dekabr tarixli 897 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 iyul tarixli 571 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 7, maddə 839 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2026, № 3, maddə 216) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi haqqında Əsasnamə”nin 3.0.2-ci yarımbəndinə “avadanlıq,” sözündən sonra “balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlıq,” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında” 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2570 (Cild I); 2024, № 8, maddə 942; 2025, № 11, maddə 1018; 2016, № 3, maddə 216) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissəyə “avadanlığın,” sözündən sonra “balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlığın,” sözləri əlavə edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası” üzrə:

2.2.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

“1.2. Agentliyin vəsaiti bu Qaydanın 2-ci hissəsində nəzərdə tutulan layihələrin, habelə kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlarına, balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlıqlara, suvarma sistemləri dəstlərinə və avadanlıqlarına, habelə damazlıq heyvanlara (bundan sonra – kənd təsərrüfatı istehsal vasitələri) verilən güzəştlərin maliyyələşdirilməsinə yönəldilir.”;

2.2.2. 6-cı hissə üzrə:

2.2.2.1. 6.1-ci bəndin birinci abzasına “avadanlığın,” sözündən sonra “balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlığın,” sözləri əlavə edilsin;

2.2.2.2. 6.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“6.1.2. idxal edilən texnikanın gömrük dəyərinə, yerli istehsal məhsulu olan texnikanın isə qiymətləndirmə nəticəsində müəyyən edilən dəyərinə münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası”nın 2.2-ci bəndinə uyğun olaraq yaradılan Aqrar Subsidiya Şurasının təsdiq etdiyi, 60 faizdən çox olmamaqla, güzəşt faizləri və (və ya) maksimum güzəşt məbləğləri tətbiq olunur və həmin məbləğlər Azərbaycan Respublikasının dövlət büdcəsindən bunun üçün Agentliyə ayrılmış vəsait hesabına müvəkkil təşkilatlar vasitəsilə ödənilir;”;

2.2.2.3. aşağıdakı məzmunda 6.5-ci bənd əlavə edilsin:

“6.5. Bu Qaydanın 6.1-ci bəndinə uyğun olaraq güzəştli şərtlərlə maliyyələşdirilən kənd təsərrüfatı texnikasının maliyyələşdirildiyi tarixdən 5 (beş) il müddətində ölkədən ixracına yol verilmir. Həmin texnika barədə məlumatlar real vaxt rejimində “Elektron kənd təsərrüfatı” informasiya sistemi vasitəsilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin informasiya sisteminə ötürülür.”.

**3** “Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1050 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 12 (II kitab), maddə 1356; 2025, № 2, maddə 137, № 7, maddə 642; 2026, № 3, maddə 216) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissədə “sahəsində” sözü “və heyvandarlıq sahələrində” sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş “Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası” üzrə:

3.2.1. 1.2-ci bənd üzrə:

3.2.1.1. 1.2.1-ci yarımbənddə “kənd təsərrüfatı məhsullarının istehsalçılarına” sözləri “fermerlərə kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə” sözləri ilə əvəz edilsin;

3.2.1.2. 1.2.2-ci yarımbənddə “kənd təsərrüfatı məhsullarının istehsalçılarına” sözləri “fermerlərə” sözü ilə əvəz edilsin;

3.2.1.3. 1.2.4-cü yarımbənddə “sahəsində” sözü “və heyvandarlıq sahələrində” sözləri ilə əvəz edilsin;

3.2.1.4. 1.2.5-ci yarımbənddə “mineral gübrə, biohumus” sözləri “gübrə, dirəklər” sözləri ilə əvəz edilsin;

3.2.1.5. 1.2.9-cu yarımbəndə “becərilməsi” sözündən sonra “(əkilməsi və aqrotexniki qulluğun göstərilməsi)” sözləri əlavə edilsin və həmin yarımbənddən “çoxillik əkmələrdə” və “və dirəklərin” sözləri çıxarılsın;

3.2.1.6. aşağıdakı məzmunda 1.2.9-2-ci yarımbənd əlavə edilsin:

“1.2.9-2. bağçılıq subsidiyası – fermerlərə çoxillik əkmələrin altında olan torpaqlarda həmin torpaqların məqsədli təyinatına uyğun olaraq kənd təsərrüfatı bitkilərinin becərilməsi (əkilməsi və aqrotexniki qulluğun göstərilməsi) üçün bağın salındığı birinci ildə istifadə etdikləri kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına, torpaqların aqrokimyəvi analizinin aparılmasına, aqrotexniki xidmətlərdən istifadə edilməsinə, müasir suvarma sistemlərinin qurulmasına və tinglərdə fitopatoloji analizlərin aparılmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilən subsidiya;”;

3.2.1.7. 1.2.10-cu və 1.2.12-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“1.2.10. bitkiçilik sahəsində məhsul subsidiyası – ölkədə istehsal edilib tədarükçülərə təhvil verilən bitkiçilik məhsulunun miqdarına görə verilən subsidiya;”;

“1.2.12. süni mayalanma və ya embrion köçürmə (bundan sonra – süni mayalanma) subsidiyası – yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması və yüksək məhsuldar genetik potensiala malik heyvanların baş sayının artırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər bir sağlam buzova və balağa (camış balasına) görə verilən subsidiya;”;

3.2.1.8. aşağıdakı məzmunda 1.2.12-1-ci yarımbənd əlavə edilsin:

“1.2.12-1. heyvan subsidiyası – fermerlərə kənd təsərrüfatı heyvanlarının saxlanılması, yemlənməsi və damazlıq işinin təşkili ilə bağlı çəkilən xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə hər bir heyvana (o cümlədən arı ailəsinə) görə verilən subsidiya;”;

3.2.1.9. 1.2.13-cü və 1.2.14-cü yarımbəndlər ləğv edilsin;

3.2.1.10. aşağıdakı məzmunda 1.2.14-1-ci və 1.2.14-2-ci yarımbəndlər əlavə edilsin:

“1.2.14-1. heyvandarlıq sahəsində məhsul subsidiyası – ölkədə istehsal edilib tədarükçülərə təhvil verilən heyvan mənşəli məhsul və ya xammalın miqdarına görə verilən subsidiya;

1.2.14-2. sertifikatlaşdırma subsidiyası – fermerlər tərəfindən bitkiçilik və heyvandarlıq sahələrində beynəlxalq sertifikatların alınması və bu məqsədlə təsərrüfatların müəyyən olunmuş tələblərə uyğunlaşdırılması ilə bağlı çəkilən xərclərin bir hissəsinin kompensasiya edilməsi məqsədilə verilən subsidiya;”;

3.2.1.11. 1.2.17-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 1.2.18-ci yarımbənd əlavə edilsin:

“1.2.18. avans – fermerlər tərəfindən bitkiçilik sahəsində aqrotexniki tədbirlərin vaxtında həyata keçirilməsini stimullaşdırmaq məqsədilə əkin və bağçılıq subsidiyalarının məbləğinin, 60 faizdən çox olmamaqla, Şura tərəfindən müəyyən edilən və əvvəlcədən ödənilən hissəsi.”;

3.2.2. 2-ci hissə üzrə:

3.2.2.1. 2.4.1-ci yarımbəndə “əmsallarının,” sözündən sonra “avans məbləğinin, subsidiyanın tətbiqi dövrünün,” sözləri əlavə edilsin;

3.2.2.2. aşağıdakı məzmunda 2.4.1-2-ci yarımbənd əlavə edilsin:

“2.4.1-2. bağçılıq subsidiyasının tətbiqi üçün regionlar üzrə bitkilərin siyahısının, onlara tətbiq edilən əkin əmsallarının, avans məbləğinin, bağın salınması və subsidiyanın tətbiqi dövrünün, sığortalanmalı olan bitkilərin siyahısının (bu Qaydanın 2.5-1-ci bəndi nəzərə alınmaqla) və onların əkin sahələrinin minimum ölçüsünə dair tələblərin təsdiqi;”;

3.2.2.3. 2.4.2-ci və 2.4.3-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“2.4.2. məhsul subsidiyasının tətbiqi üçün regionlar üzrə bitkiçilik məhsullarının, heyvan mənşəli məhsul və xammalın siyahısının, onlara tətbiq edilən əmsalların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;

2.4.3. toxum subsidiyasının tətbiqi üçün bitkiçilik məhsullarının siyahısının, onlara tətbiq edilən əmsalların, kvotaların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;”;

3.2.2.4. aşağıdakı məzmunda 2.4.3-2 – 2.4.3-4-cü yarımbəndlər əlavə edilsin:

“2.4.3-2. sertifikatlaşdırma subsidiyasının tətbiqi üçün bitkiçilik və heyvandarlıq sahələri üzrə beynəlxalq sertifikatların siyahısının, onlara tətbiq edilən əmsalların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;

2.4.3-3. süni mayalanma subsidiyasının tətbiqi üçün əmsalların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;

2.4.3-4. heyvan subsidiyasının tətbiqi üçün regionlar üzrə kənd təsərrüfatı heyvanlarının siyahısının (heyvanın növü, cinsi və yaşı göstərilməklə), onlara tətbiq edilən əmsalların təsdiqi və subsidiyanın tətbiqi dövrünün müəyyən edilməsi;”;

3.2.2.5. 2.4.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.4.6-cı yarımbənd əlavə edilsin:

“2.4.6. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə Qaydası”nın 6.1.2-ci yarımbəndinə əsasən, kənd təsərrüfatı texnikası və texnoloji avadanlıqlarına münasibətdə kənd təsərrüfatı texnikası parkının yenilənməsi, innovativ texnologiyalara olan ehtiyac, yerli istehsalın dəstəklənməsi, aqrar resursların səmərəli istifadəsi meyarları nəzərə alınmaqla tətbiq edilən güzəşt faizlərinin və maksimum güzəşt məbləğlərinin təsdiqi.”;

3.2.2.6. 2.5-1-ci bənddə “yarımbəndinə” sözü “və 2.4.1-2-ci yarımbəndlərinə” sözləri ilə, “subsidiyasının” sözü “və bağçılıq subsidiyalarının” sözləri ilə əvəz edilsin;

3.2.2.7. 2.7-1-ci bənddə “kənd təsərrüfatı məhsullarının istehsalçılarına” sözləri “fermerlərə” sözü ilə əvəz edilsin;

3.2.3. 3-cü hissə üzrə:

3.2.3.1. 3.1-ci bənd üzrə:

3.2.3.1.1. birinci abzasda “subsidiyasının” sözü “və bağçılıq subsidiyalarının” sözləri ilə əvəz edilsin;

3.2.3.1.2. ikinci abzasa “əkin” sözündən sonra “(bağçılıq)” sözü əlavə edilsin;

3.2.3.2. 3.1-1-ci bənddə “yarımbəndinə” sözü “və 2.4.1-2-ci yarımbəndlərinə” sözləri ilə, “subsidiyası” sözü “və bağçılıq subsidiyaları” sözləri ilə əvəz edilsin;

3.2.3.3. aşağıdakı məzmunda 3.1-2-ci bənd əlavə edilsin:

“3.1-2. Bağçılıq subsidiyası tətbiq edilmiş çoxillik əkmə sahələri üzrə bağın salındığı ilk il üçün əkin subsidiyası ödənilmir.”;

3.2.3.4. 3.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.5. Bitkiçilik sahəsində məhsul subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği × bitki mənşəli məhsul əmsalı = bitkiçilik sahəsində məhsul subsidiyası

• bitki mənşəli məhsul əmsalı – bitkilər üzrə məhsul istehsalının, tədarükünün və bazara çıxışının təşviqi üçün Şuranın müəyyən etdiyi göstərici.”;

3.2.3.5. aşağıdakı məzmunda 3.7-1-ci bənd əlavə edilsin:

“3.7-1. Bitkiçilik sahəsində sertifikatlaşdırma subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği × sertifikatlaşdırma əmsalı = sertifikatlaşdırma subsidiyası

• sertifikatlaşdırma əmsalı – beynəlxalq sertifikatların əldə edilməsinin təşviqi üçün Şuranın müəyyən etdiyi göstərici.”;

3.2.3.6. 3.8-ci bənd üzrə:

3.2.3.6.1. 3.8.3-cü yarımbənddə “subsidiyası” sözü “və bağçılıq subsidiyaları” sözləri ilə əvəz edilsin;

3.2.3.6.2. 3.8.4-cü yarımbəndə “məhsul” sözündən əvvəl “bitkiçilik sahəsində” sözləri əlavə edilsin;

3.2.3.6.3. aşağıdakı məzmunda 3.8.4-1-ci yarımbənd əlavə edilsin:

“3.8.4-1. bitkiçilik sahəsində sertifikatlaşdırma subsidiyası üçün Şura tərəfindən müəyyən edilmiş beynəlxalq sertifikatı;”;

3.2.3.7. 3.12-ci bənd üzrə:

3.2.3.7.1. birinci cümlədə “, o cümlədən mövcud və” sözləri “və mövcud çoxillik əkmələr, bağçılıq subsidiyası ilə bağlı” sözləri ilə əvəz edilsin;

3.2.3.7.2. ikinci cümlədə “, elektron poçt və ya bilavasitə SİS” sözləri “və ya elektron kabinet” sözləri ilə əvəz edilsin;

3.2.3.7.3. üçüncü cümlədə “subsidiyası” sözü “və bağçılıq subsidiyaları” sözləri ilə əvəz edilsin;

3.2.3.8. aşağıdakı məzmunda 3.12-1-ci bənd əlavə edilsin:

“3.12-1. 2027-ci ildən başlayaraq Şuranın müəyyən etdiyi bitki növləri, əkin sahələri və digər şərtlər üzrə Nazirliyin təsdiq etdiyi reqlamentlərlə müəyyən edilmiş müddətlərdə əkin və ya bağçılıq subsidiyası üçün müraciət etmiş və həmin müddət ərzində bu Qaydanın 3.8.2-ci və 3.8.2-1-ci yarımbəndlərində nəzərdə tutulan sənədləri SİS-də təsdiqlənmiş fermerlər avans əldə etmək üçün müraciət edə bilərlər. Avans subsidiya məbləğinin nağdlaşdırılmayan hissəsindən ödənilir.”;

3.2.3.9. 3.13-cü bənd aşağıdakı redaksiyada verilsin:

“3.13. Əkin və bağçılıq subsidiyaları məbləğinin 25 faizindən nağdlaşdırılaraq, 75 faizindən isə nağdlaşdırılmadan, bu Qaydanın 3.12-ci bəndi ilə müəyyən edilən formada, müvafiq olaraq bu Qaydanın 1.2.9-cu və 1.2.9-2-ci yarımbəndlərində nəzərdə tutulan məqsədlərlə istifadə olunur.”;

3.2.3.10. 3.14-cü bənd üzrə:

3.2.3.10.1. birinci cümlədə “Məhsul” sözü “Bitkiçilik sahəsində məhsul” sözləri ilə əvəz edilsin;

3.2.3.10.2. ikinci cümlə üçüncü cümlə hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“İstehsal edilən məhsul fermer tərəfindən xammal kimi istifadə edildiyi halda, istehsal ehtiyatlarının təsərrüfatdaxili yerdəyişməsinin qaimə-fakturası barədə məlumat SİS-ə daxil edilir.”;

3.2.3.10.3. üçüncü cümlədə “ilin 2-ci rübündə” sözləri “il” sözü ilə əvəz edilsin;

3.2.3.11. 3.15-ci bənd aşağıdakı redaksiyada verilsin:

“3.15. Fermerlər toxum subsidiyası ilə bağlı bu Qaydanın 3.8.1-ci yarımbəndində nəzərdə tutulan proqnozları cari il iyunun 1-dək, toxum və tingin satışı ilə bağlı məlumatları və sənədləri dekabrın 10-dək SİS-ə daxil edirlər. Subsidiya ödənişləri dekabrın 30-dək həyata keçirilir, dekabrın 10-dan sonra daxil edilən məlumatlar və sənədlər isə növbəti il üçün subsidiyanın hesablanması zamanı nəzərə alınır.”;

3.2.3.12. 3.17-ci bəndin ikinci cümləsində “elektron poçt” sözləri “ya elektron kabinet” sözləri ilə əvəz edilsin;

3.2.4. 4-cü hissə üzrə:

3.2.4.1. 4.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.1. Süni mayalanma subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği × süni mayalanma subsidiyası əmsalı = süni mayalanma subsidiyası;

• süni mayalanma əmsalı – heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılmasının təşviqi üçün Şuranın müəyyən etdiyi göstərici.”;

3.2.4.2. aşağıdakı məzmunda 4.1-1-ci və 4.1-2-ci bəndlər əlavə edilsin:

“4.1-1. Heyvan subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği × heyvan subsidiyası əmsalı = heyvan subsidiyası

• heyvan subsidiyası əmsalı – cins tərkibinin yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların (o cümlədən arı ailələrinin) sayının artırılması üçün Şuranın müəyyən etdiyi göstərici.

4.1-2. Heyvandarlıq sahəsində məhsul subsidiyası aşağıdakı qaydada hesablanır:

- baza məbləği × heyvan mənşəli məhsul və ya xammal əmsalı = heyvandarlıq sahəsində məhsul subsidiyası

• heyvan mənşəli məhsul və ya xammal əmsalı – heyvan mənşəli məhsulların və ya xammalların istehsalının təşviqi üçün özünütəminat ehtiyacı, fermerlərin gəlirliliyinin artırılması, aqrar emalın, habelə aqroturizmin inkişafı meyarları nəzərə alınmaqla Şuranın müəyyən etdiyi göstərici.”;

3.2.4.3. 4.2-ci və 4.3-cü bəndlər ləğv edilsin;

3.2.4.4. aşağıdakı məzmunda 4.3-1-ci bənd əlavə edilsin:

“4.3-1. Heyvandarlıq sahəsində sertifikatlaşdırma subsidiyasının məbləği bu Qaydanın 3.7-1-ci bəndində nəzərdə tutulmuş qaydada hesablanır.”;

3.2.4.5. 4.4.3-cü və 4.4.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

“4.4.3. heyvanların, o cümlədən süni mayalandırılan və süni mayalanma nəticəsində doğulan heyvanların, habelə arı ailələrinin identikləşdirilməsi və onlara dair məlumatların SİS-ə daxil edilməsi;

4.4.4. heyvandarlıq sahəsində məhsul subsidiyası ilə bağlı tədarükçülərin heyvan mənşəli məhsul və ya xammalın fermerlərdən və ailə təsərrüfatlarından təhvil alınmasına dair sənədlərinin Nazirliyin təsdiq etdiyi reqlamentlərlə müəyyən olunmuş müddətdə SİS-ə daxil edilməsi;”;

3.2.4.6. aşağıdakı məzmunda 4.4.5-ci yarımbənd əlavə edilsin:

“4.4.5. heyvandarlıq sahəsində sertifikatlaşdırma subsidiyası üçün Şura tərəfindən müəyyən olunmuş beynəlxalq sertifikatın əldə edildiyi gündən 3 (üç) ay müddətində SİS-ə daxil edilməsi.”;

3.2.4.7. 4.6-cı bənddə “15 (on beş) iş günündən gec olmayaraq” sözləri “45 (qırx beş) iş günündən gec olmamaqla həmin reqlamentlərdə göstərilən müddətdə” sözləri ilə əvəz edilsin;

3.2.5. 5-ci hissə üzrə:

3.2.5.1. 5.1.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

“5.1.3. yerində müşahidə – seçmə üsulu ilə əkinlərin aparıldığı yerlərdə, dincə qoyulmuş torpaq sahələrində, yaxud heyvandarlıq təsərrüfatlarında DAİM-in mütəxəssisləri, şikayət və ya audit hallarında isə aidiyyəti üzrə Agentliyin və ya Nazirliyin sahə mütəxəssisləri cəlb edilməklə, nəzarət və qiymətləndirmə tədbirlərinin həyata keçirilməsi;”;

3.2.5.2. 5.2-ci bəndin birinci abzasına ikinci halda “əkin” sözündən sonra “, bağçılıq” sözü əlavə edilsin;

3.2.5.3. 5.3-cü bənd üzrə:

3.2.5.3.1. birinci abzasda “Arı ailələrinin” sözləri “Heyvanların (o cümlədən arı ailələrinin)” sözləri ilə, “arı” sözü “heyvan” sözü ilə əvəz edilsin;

3.2.5.3.2. 5.3.1-ci yarımbənddə “arı ailələrinin” sözləri “heyvanların (o cümlədən arı ailələrinin)” sözləri ilə əvəz edilsin;

3.2.5.3.3. 5.3.2-ci və 5.3.3-cü yarımbəndlərdə “arıçıya” sözü “fermerə” sözü ilə əvəz edilsin;

3.2.5.4. 5.4-cü bənd üzrə:

3.2.5.4.1. birinci cümlədə “elektron poçt” sözləri “ya elektron kabinet” sözləri ilə əvəz edilsin;

3.2.5.4.2. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

“Bildirişə etiraz fermerin, ailə kəndli təsərrüfatının və monitorinq aktını tərtib etmiş əməkdaşların iştirakı ilə DAİM-in və Agentliyin mütəxəssisləri tərəfindən, habelə rəy bildirilməsi üçün Nazirliyin sahə üzrə mütəxəssisləri də cəlb edilməklə yerində müşahidə apararaq qiymətləndirilir, nəticə üzrə akt tərtib edilərək SİS-ə daxil edilir.”;

3.2.5.5. 5.5-ci bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Subsidiyaların verilməsi üçün bu Qaydada nəzərdə tutulmuş tələblər fermer tərəfindən pozularsa, habelə fermerin cari ildə istifadə etdiyi subsidiyanın məbləği monitorinq əsasında bu Qaydanın 5.2-ci və 5.3-cü bəndlərinə uyğun olaraq müəyyən edilmiş məbləğdən artıq olarsa, həmin vəsaiti (o cümlədən avans məbləğini) fermer Agentliyə geri qaytarır.”.

**4** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 23 dekabr tarixli 897 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1940 (Cild I); 2024, № 6 (I kitab), maddələr 654, 679, № 8, maddə 937, № 12 (II kitab), maddə 1359; 2026, № 3, maddə 216) ilə təsdiq edilmiş “Elektron kənd təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”nin 3.2.7-ci yarımbəndində “, texnoloji avadanlıq, suvarma sistemləri dəsti və avadanlığı, dirəklər, damazlıq heyvanlar, mineral gübrə, biohumus,” sözləri “və texnoloji avadanlıq, balıqçılığın, o cümlədən akvakulturanın həyata keçirilməsi üçün istifadə olunan texnika və texnoloji avadanlıq, suvarma sistemləri dəstləri və avadanlıqları, damazlıq heyvanlar, dirəklər, gübrə” sözləri ilə əvəz edilsin.

**5** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı məhsullarının tədarükünü və kənd təsərrüfatı istehsal vasitələrinin, habelə müasir suvarma sistemlərinin satışını həyata keçirən fiziki və hüquqi şəxslərin (tədarükçülərin və təchizatçıların) “Elektron kənd təsərrüfatı” informasiya sistemində qeydiyyatdan keçmələri üçün tələbləri üç ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyun 2026-cı il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə Panama xalqı və Hökuməti adından, həmçinin öz adımdan ən səmimi təbriklərimi, xalqınıza davamlı rifah və tərəqqi arzularımı çatdırmaqdan şərəf duyuram.

Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 31-ci ildönümünü qeyd edərkən, Panama ilə Azərbaycanı birləşdirən dostluq və əməkdaşlıq əlaqələrini, qarşılıqlı anlaşmanı daha da möhkəmləndirməklə bağlı səmimi arzumuzu bildirməklə yanaşı, sülhə və inkişafa sarsılmaz sadiqliyimizi bir daha təsdiqləyirik.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

***Xose Raul Mulino KİNTERO,***
***Panama Respublikasının Prezidenti***

# R.M.Fətəliyevin “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ramiz Məmməd oğlu Fətəliyev “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyun 2026-cı il**

# Ermənistanda parlament seçkiləri və Azərbaycan amili

## *Yaxud inkişaf qatarının sonuncu vaqonuna yetişmək...*



**Ermənistanda parlament seçkiləri keçirildi. Seçkiyədək prosesə bağlı müxtəlif təqdimatların şahidi olduq. Həmin təqdimatların regiondaxili və regionxarici mənbələrinin mövcudluğu diqqətimizdən yayınmadı. Qərb dairələri elə rəy yaratdılar ki, sanki Ermənistanda Cənubi Qafqazın taleyi həll olunur. Daxildəki bəzi qüvvələr isə özləri fərqinə varmadan bu deyimi gücləndirmək üçün əllərindən gələni etdilər. Yazımız bu barədə olacaq. Amma digər məqamlara da toxunacağıq. Ən əsas məqama gəlincə, söhbət Azərbaycandan gedir. O Azərbaycan ki, regionun taleyini dəyişib. Özü də çoxdan.**

Bəli, Ermənistandakı parlament seçkiləri Qərblə Rusiyanın mübarizə platformasına çevrildi. Bu, öz yerində. Mübarizədə birincinin qalib gəldiyi məlumdur. Ancaq qalibiyyət elə göstərilir ki, sanki Cənubi Qafqaz rus zülm və istibdadından qurtulur. Hesab edirik ki, yanlış təqdimat məhz budur. Çünki regionun qurtuluşunun Azərbaycan adlı böyük ünvanı var. Mövzuya sonda qayıdacağıq.

...Rusiyanın geri çəkiləcəyini düşünmək doğru olmaz. Həm də ona görə doğru olmaz ki, rus ictimai rəyi və onunla hesablaşan, daha doğrusu, onu istədiyi şəklə salan rus dövləti konflikt məntiqindən kənar müsbət nə isə ortaya qoymur. Rusiya dairələrinin yanaşmalarında Ermənistanla, o cümlədən qonşularla bərabərtərəfli münasibətlər trayektoriyasına üstünlük vermək, bu münasibətləri səmimi şəkildə əməli iş müstəvisinə gətirmək anlayışı, demək olar, yoxdur. Rusiya mütləq nəyisə diktə etməli, hegemon mövqeyini vurğulamalıdır. Yanaşma budur. Sual olunur: Belə bir baxış Cənubi Qafqazın hansı ölkəsinə münasibətdə keçərli deyil? Cavab birmənalıdır.

Məhz Azərbaycan özünün məqsədyönlü prinsipial siyasi xəttilə həm Rusiyanın, həm də Qərbin regionda hegemonluq iddiasını sarsıdıb. Ölkəmiz bunu 2020-ci ilin 44 günlük müharibəsindəki Zəfəri və 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindəki müstəsna uğuru ilə edib.

Bəli, Ermənistan üzərindəki tarixi Zəfərimiz, habelə Qarabağdakı separatçı rejimə son qoymaqla, ümumən, Qarabağ məsələsini tarixin arxivinə yollamaqla ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etməyimiz Cənubi Qafqazda tamamilə yeni mərhələ açdı. Ermənistanda Baş nazir Nikol Paşinyanın başçılıq etdiyi Qərbyönümlü komanda qalib gəlirsə, bu, xeyli dərəcədə Azərbaycanın yaratdığı reallığın dərk təntənəsidir.

Əlbəttə, ölkəmizlə hesablaşan, ilk növbədə, erməni cəmiyyətidir. O cəmiyyət ki, onun bəzi təbəqələrinin hələ də revanşist və şovinist əhvali-ruhiyyədə olduğunu parlament seçkiləri müstəvisində də gördük və görməkdəyik. Ən böyük görüntü isə budur: erməni cəmiyyətinin əhəmiyyətli hissəsi Azərbaycanın regionda yaratdığı yeni reallıqlardan başqa alternativ tanımır. Bunu söyləmək üçün əsaslarımız yetərincədir.

Ümumən, Ermənistanda 7 iyun seçkiləri qayəsi Azərbaycan ritorikası üzərində qurulmuş proses idi. Belə təsəvvür yarandı ki, ölkədə Azərbaycana qarşı olan qüvvələrlə, qarşı olmayan qüvvələrin siyasi marafonu qeydə alınıb. Hay cəmiyyətinin revanşist və şovinist kəsimi bizə hiddət yağdırırdısa, digər kəsim və onun tərəfdarları normal münasibətləri təbliğ edirdi. Hətta ikincilər sırasında keçmişin dostluq nostalgiyasına köklənənlər də tapılırdı.

7 iyun seçkiləri, böyük ölçüdə, rasional və proqmatik düşüncənin qələbəsidir. O düşüncənin ki, gələcəyi hədəf seçir. Axı Azərbaycanın yaratdığı yeni reallıq gələcək üçün sığortadır. Erməni cəmiyyəti məhz həmin gələcəyə səs verdi. O gələcək ki, onun sülh adlı böyük mənəvi dividendi var. Elə bir dividend ki, özündə əmin-amanlığı və ən əsası, rifahı birləşdirir. Bu yerdə Prezident İlham Əliyevin 2023-cü il sentyabrın 20-də - antiterror tədbirləri başa çatdıqdan sonra xalqa müraciətindəki fikirləri yada salaq: “Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın!”.

Onu da qeyd edək ki, Rusiya Cənubi Qafqazda özünün təsir dairəsini saxlamaq üçün ənənəvi nifaq və qarşıdurma yaratmaq siyasətinə üstünlük verirsə və bu siyasətin ayrı-ayrı elementləri bu gün də özünü göstərməkdədirsə, eyni dəst-xəttə Qərbin də söykəndiyini bildirməliyik. Ötən müddətdə fikrimizin sübutu kimi qiymətləndirilə biləcək bir çox hadisə və proseslər yaşandı. Qərb dünyasının başlıca aktorlarından sayılan Fransanın Ermənistanı Azərbaycana qarşı qoymaq niyyətlərini gördük. Məsələn, Fransanın İrəvandakı səfiri Ermənistanın ayrı-ayrı bölgələrinə, o cümlədən Sünikə səfər edib Parisi erməniləri azərbaycanlılardan qoruyan statusunda vurğuladı. Diplomat elə görüntü yaratdı ki, iki Cənubi Qafqaz ölkəsi arasında barış mühiti qərarlaşa bilməz. Bütövlükdə Qərb institutlarının bu təbliğata baş vurduqları nəzərimizdən yayınmadı. “Azərbaycanda saxlanılan erməni məhbuslar” məsələsindən tutmuş ölkəmizin Ermənistanı, guya, işğal etmək niyyətinə qədər cəfəngiyyatların sıralandığının şahidiyik.

Deməli, 7 iyun seçkilərində erməni cəmiyyəti cəfəng ideoloji xəttə “yox” dedi. Ermənistandakı parlament seçkilərinin Azərbaycan xəttinin üstünlük fazası Qərbin və Rusiyanın antisülh təbliğatını və bu təbliğatla regionda mövcudluq parametrini alt-üst etdi. Əlbəttə, hesab etmirik ki, Qərb dünyası daha Ermənistanı Azərbaycana qarşı təzyiq rıçağı kimi istifadəyə cəhd göstərməyəcək. Mövcud xüsusda ayrı-ayrı elementlərin olması mümkündür. Ancaq Qərb, “erməni kartı”ndan regional məsələlər baxımından yararlanmağın mümkünsüzlüyünü anlamış durumdadır. Onun dəstəklədiyi hay iqtidarı son bir ildə sülh ritorikasını məhz bu səbəbdən xeyli qüvvətləndirib. Hesab edirik ki, Rusiya da reallığı anlamağa məhkumdur. Ölkənin başqa çıxış yolu yoxdur.

...Paşinyan iqtidarı son bir ilə yaxın müddətdə sülh ritorikasını gücləndirməklə, ermənilik üçün identlik sayılan tezislərin ifşasına girişdi. Baxın, Ermənistan parlamentinin sədri Alen Simonyan deyir ki, “erməni planeti”ndən kənara çıxmalıyıq. Simonyan, mahiyyət etibarilə, “Böyük Ermənistan” ideyasının cəfəngiyyatdan başqa bir şey olmadığını vurğulayır: “Azərbaycanlılarla necə yaşayacağımızla bağlı sual gəldikdə, bəs nə edək? Ölkəni götürüb Avropaya köçürək? Bəlkə orada da albanlarla, çexlərlə yaşaya bilmədik? Haradan bilirsiniz ki, biz, hətta, orada çexlərlə normal yaşaya bilərik? Bu, bizim regionumuzdur və biz özümüzü regiondan kənarda qoya bilmərik və nəhayət, belə bir sual var ki, opponentlərim ona konkret cavab verə bilmir: Ermənistan nədir? De görüm, xahiş edirəm, bu Ermənistan haradadır? Harada başlayır və harada bitir?”.

7 iyun seçkilərində erməni elektoratı haradan başlayıb haradan bitdiyi məlum olan Vətənə səs verdi, vətənsizliyin daşını atdı. Tarixin heç bir dövründə belə bir hadisə olmayıb. Nəzərə alaq ki, yuxarıda diqqətə çatdırdığımız fikirləri söyləyən bir vaxtlar Ağdama “Akna” deyib bölgəmizi özü üçün Vətən sayan Simonyandır. Bu gün həmin Simonyan pozitiv düşüncələri ilə erməni cəmiyyətinin təmsil etdiyi komandanı qalib etməsində başlıca pay sahibidir. Hələ vaxtilə Baş nazir N.Paşinyanın “Qarabağ Ermənistandır, nöqtə” bəyanatının bu gün onun dilindən çıxan “Ermənistan üçün “Qarabağ hərəkatı” səhifəsi bağlanmışdır” fikrinə çevrilməsindən danışmırıq.

Sözümüz ondadır ki, vurğuladığımız anlamlarda da Ermənistandakı müsbət transformasiyaların müəllifi məhz Azərbaycandır. Əvvəldə haqqında söz açdığımız regionun taleyinin dəyişməsinə və qurtuluşuna gəlincə, deməliyik ki, ölkəmiz bu yola 1994-cü ildən Heydər Əliyevin müdrik siyasəti ilə qədəm qoymuşdu. Məhz Ulu öndərin müəllifi olduğu “Əsrin müqaviləsi” Cənubi Qafqazda tamamilə yeni ab-hava yaratdı. Heydər Əliyev bu böyük kontraktla dünyanı regiona gətirdi.

Əlbəttə, 1994-cü ildən sonrakı yolumuz heç də rəvan olmadı. Amma Azərbaycanın dirənişi sayəsində Cənubi Qafqaz ölkəmizin timsalında müstəqil dövlət anlayışı qazandı və illər ərzində bu anlayış xeyli möhkəmləndi. Əvvəldə haqqında söz açdığımız qurtuluş elə bunda idi. O qurtuluş ki, Ermənistan işğalçılıq siyasəti nəticəsində mövcud trayektoriyada təmsilçilik üçün xeyli gecikməklə bərabər, bütövlükdə regionun inkişafını ləngitdi. Amma gec olsun güc olsun. Bu mənada, hesab edirik ki, erməni xalqı 7 iyunda düzgün seçimi ilə, obrazlı desək, inkişaf qatarının sonuncu vaqonundan tutmağı bacardı. İndi qalır Azərbaycanın yaratdığı reallığın tam şəkildə gerçəkləməsi naminə iradə və səmimiyyətin göstərilməsi. Ümid edirik ki, Ermənistan dövləti bundan sonrakı siyasi xətti ilə Cənubi Qafqazın imperiyaların oyun meydanından kənar müstəqil inkişaf yoluna öz töhfəsini verəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Paşinyan “savaşçılar”ın yolunu bağladı

## *Ermənistanın Baş naziri sülh siyasətində israrlıdır*



**Nikol Paşinyanın həm sülh sazişinin institusional əsaslarla möhkəmləndiriləcəyini bəyan etməsi, həm də “müharibə partiyası”nın məğlub olduğunu vurğulaması Ermənistan siyasətində yeni mərhələnin başlandığını göstərir. Çıxışın ən mühüm məqamı isə Paşinyanın ilk dəfə sülh gündəliyini seçkidə qələbəsinin əsas siyasi nəticəsi kimi təqdim etməsi idi.**

### “Müharibə partiyası”nın məğlubiyyəti

Bəli, Paşinyanın seçkilərdən sonra səsləndirdiyi diqqətçəkən ifadələrdən biri “üçbaşlı müharibə partiyası məğlub oldu” fikri idi. Ermənistan baş naziri bununla nə demək istəyir və bu ifadənin arxasında hansı siyasi məna dayanır? Əslində, burada söhbət təkcə konkret siyasi qüvvələrin seçkidə uduzmasından getmir. Paşinyan seçki nəticələrini daha geniş siyasi və ideoloji müstəvidə təqdim etməyə çalışır. O, cəmiyyətə göstərmək istəyir ki, seçicilər, sadəcə, hakimiyyətlə müxalifət arasında seçim etməyiblər, həm də iki fərqli gələcək modeli arasında qərar veriblər. Bir tərəfdə uzun illər Ermənistan siyasətinin əsas istiqamətini müəyyən edən qarşıdurma, təhlükəsizlik narrativləri və keçmiş münaqişələrin təsiri altında formalaşmış siyasi düşüncə dayanırdı. Digər tərəfdə isə regionda yaranmış yeni reallıqları qəbul etməyə və inkişafı əməkdaşlıq üzərində qurmağa çalışan siyasi xətt. Paşinyanın mesajı ondan ibarətdir ki, Ermənistan cəmiyyəti artıq keçmişin siyasi gündəliyindən yorulub. Qarabağ məsələsinin əvvəlki formada gündəmdə olmaması, iqtisadi problemlərin dərinləşməsi və ölkənin regional layihələrdən kənarda qalması cəmiyyətin prioritetlərini dəyişməyə başlayıb. Məhz buna görə Paşinyan revanşist ritorikanı təmsil edən qüvvələrin məğlubiyyətini öz siyasi qələbəsindən daha böyük hadisə kimi təqdim edir. Amma burada sual yaranır: revanşist qüvvələrin seçkidə zəifləməsi doğrudanmı Ermənistan cəmiyyətində müharibə ideologiyasının tam məğlub olması deməkdir? Bu suala hələlik qəti cavab vermək çətindir. Çünki seçki nəticələri siyasi reallığı göstərsə də, ictimai şüurda formalaşmış uzunmüddətli yanaşmalar bir neçə il ərzində dəyişmir.

### Azərbaycanla sülhün davamlılığı

Paşinyanın çıxışında diqqətçəkən məqamlardan biri də Azərbaycanla sülh prosesinin “institusionalizasiyası” barədə oldu. Məsələ ondadır ki, müasir beynəlxalq münasibətlərdə əldə olunan razılaşmaların davamlılığı təkcə liderlərin siyasi iradəsindən asılı olmur. Tarix göstərir ki, liderlər dəyişə bilər, hökumətlər gedib-gələ bilər, lakin dövlət siyasətinə çevrilmiş qərarlar daha uzunömürlü olur. Paşinyan da məhz bu məqamı vurğulamağa çalışır. O, Azərbaycanla münasibətlərin normallaşmasını Ermənistan dövlətinin uzunmüddətli strategiyası kimi təqdim etmək istəyir. Bir neçə il əvvəl Ermənistan siyasi məkanında sülh haqqında danışmaq ciddi müqavimətlə qarşılanırdı. Bu gün isə ölkə rəhbəri sülh sazişinin artıq imzalanmalı olduğunu və bundan sonrakı mərhələnin onun dövlət institutları səviyyəsində möhkəmləndirilməsini önə çəkir. O, anlayır ki, Ermənistanın qarşısında duran əsas çağırış çətin sülhü davamlı siyasi sistemə çevirməkdir. Çünki kağız üzərində imzalanmış sənəd ilə dövlət siyasətinə çevrilmiş sülh arasında böyük fərq var. Birincisi siyasi iradənin məhsuludur, ikincisi isə artıq hüquqi, institusional və ictimai mexanizmlərlə qorunan uzunmüddətli modeldir. Lakin burada Ermənistanın qarşısında ciddi bir dilemma dayanır. Əgər İrəvan həqiqətən də sülhü institusional əsaslara keçirmək istəyirsə, onda bu proses təkcə siyasi bəyanatlarla məhdudlaşa bilməz. Sülhün institusionalizasiyası, ilk növbədə, hüquqi müstəvidə öz əksini tapmalıdır. Məhz bu nöqtədə Azərbaycanın uzun müddətdir diqqət çəkdiyi konstitusiya məsələsi yenidən gündəmə gəlir.

### TRIPP razılaşması qüvvədə qaldı

Seçkilərdən dərhal sonra etdiyi çıxışında baş nazir ABŞ ilə imzalanmış TRIPP layihəsinə xüsusi yer ayırdı. Uzun müddət Ermənistanın təhlükəsizlik modeli əsasən Rusiyaya söykənirdi. Həm hərbi müttəfiqlik, həm iqtisadi əlaqələr, həm də regional təhlükəsizlik arxitekturası Moskvanın təsiri çərçivəsində formalaşmışdı. Fəqət son illər baş verən hadisələr, xüsusilə də Ukrayna müharibəsindən sonra Rusiyanın regional təsir imkanlarının nisbi zəifləməsi İrəvanda yeni geosiyasi hesablamalara yol açıb. Paşinyan hakimiyyəti artıq Ermənistanın gələcəyini yalnız bir güc mərkəzinə bağlamağın risklərini açıq şəkildə görür. Məhz buna görə ABŞ və Avropa İttifaqı ilə münasibətlərin genişləndirilməsi Ermənistanın xarici siyasət gündəmində görünən yer tutmağa başlayıb. TRIPP layihəsinin vurğulanması da bu strategiyanın bir hissəsi kimi qiymətləndirilə bilər. Burada maraqlı olan yalnız ABŞ-la əməkdaşlığın hansı siyasi kontekstdə təqdim edilməsidir. Paşinyan bir tərəfdən Vaşinqtonla əlaqələrin dərinləşdirilməsindən danışır, digər tərəfdən isə Azərbaycanla sülh sazişinin və Türkiyə ilə normallaşma prosesinin vacibliyini vurğulayır. Bu yanaşma göstərir ki, Ermənistan rəhbərliyi Qərbə inteqrasiyanı regionda yeni qarşıdurma xətti yaratmaq vasitəsi kimi deyil, daha geniş təhlükəsizlik və inkişaf modelinin elementi kimi təqdim etməyə çalışır. Digər tərəfdən, TRIPP layihəsinin siyasi əhəmiyyəti Ermənistanın beynəlxalq imicinə də təsir göstərə bilər. Paşinyan hökuməti son illər ölkəni daha açıq, proqnozlaşdırıla bilən və beynəlxalq tərəfdaşlar üçün cəlbedici dövlət kimi təqdim etməyə çalışır.

### “Daxili təmizləmə” mesajı nə vəd edir?

Nikol Paşinyanın səsləndirdiyi ən sərt mesajlardan biri Ermənistanda “kriminal-oliqarxik sistemin kökündən çıxarılması” ilə bağlı oldu. O, uzun illərdir öz siyasi legitimliyini “köhnə sistemə qarşı mübarizə” üzərində qurur. Onun siyasi narrativində keçmiş hakimiyyət elitası yalnız siyasi rəqib deyil, həm də Ermənistanın inkişafına mane olan korrupsiyalaşmış və oliqarxik idarəetmə modelinin təcəssümüdür. Buna görə də hər yeni siyasi mandat Paşinyan tərəfindən təkcə hakimiyyətdə qalmaq hüququ kimi deyil, həm də köhnə sistemlə mübarizəni davam etdirmək üçün ictimai sifariş kimi təqdim olunur. Ermənistan hazırda mürəkkəb geosiyasi və daxili transformasiya mərhələsindən keçir. Azərbaycanla sülh danışıqları, Türkiyə ilə normallaşma prosesi, Qərblə münasibətlərin genişləndirilməsi kimi həssas məsələlər hökumətdən daha çevik qərarvermə mexanizmləri tələb edir. Bu səbəbdən Paşinyan komandasının dövlət idarəçiliyində daha mərkəzləşdirilmiş modelə üstünlük verməsi müəyyən siyasi məntiqə də söykənir. Ancaq uzunmüddətli perspektivdə əsas məsələ hakimiyyətin güclənməsi deyil, institutların güclənməsi olacaq. Çünki siyasi sistemlərin dayanıqlılığı daha çox müstəqil və işlək dövlət institutlarından asılıdır.

### Region barış yolunda

Əslində, Paşinyanın müxtəlif çıxışlarında səsləndirdiyi tezislər bir nöqtədə birləşir. Bu nöqtə Ermənistanın regionun siyasi və iqtisadi sisteminə yenidən inteqrasiyasıdır. Bunun üçün İrəvanın qarşısında bir-birindən ayrı görünən, lakin əslində, eyni strateji zəncirin həlqələri olan bir neçə məsələ dayanır. Azərbaycanla davamlı sülhün əldə olunması, Türkiyə ilə münasibətlərin normallaşdırılması və regional nəqliyyat-kommunikasiya layihələrinə qoşulmaq cəhdləri, əslində, eyni məqsədə xidmət edir.



Maraqlıdır ki, Paşinyanın siyasi ritorikasında artıq bu məsələlər ayrı-ayrı mövzular kimi deyil, vahid inkişaf modelinin komponentləri kimi təqdim olunur. Çünki Ermənistan rəhbərliyi anlayır ki, Azərbaycanla sülh olmadan Türkiyə ilə tam normallaşma mümkün deyil, Türkiyə ilə münasibətlər normallaşmadan isə regionun əsas nəqliyyat və iqtisadi layihələrinə geniş şəkildə inteqrasiya etmək çətindir.

Son olaraq qeyd edək ki, Paşinyanın seçkilərdən sonra verdiyi mesajlar bütövlükdə özündə Cənubi Qafqazın gələcək geosiyasi mənzərəsinə dair mühüm siqnallar ehtiva edir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Moskva İrəvanda seçkinin nəticəsini tanıyacaqmı?

## *Rusiya XİN-in rəsmi nümayəndəsi isə güclü və suveren Ermənistanın tərəfdarı olduqlarını dedi*





**Ermənistanda keçirilən parlament seçkiləri Moskvanın seçki kampaniyası boyunca nümayiş etdirdiyi açıq təzyiqlər və müxtəlif iqtisadi rıçaqların işə salınması ilə müşahidə olundu. Bu dövrdə internet məkanında, xüsusilə sosial şəbəkələrdə genişmiqyaslı dezinformasiya dalğası yayıldı. Kremlə yaxınlığı ilə seçilən media resurslarının təbliğatında Ermənistanın Qərblə strateji tərəfdaşlığı ölkə üçün təhlükə mənbəyi kimi qələmə verildi. Ekspertlər bu addımları ictimai rəyi manipulyasiya etmək cəhdi kimi qiymətləndirdilər. Hətta Kremldən verilən bəyanatlarda Ermənistanın bu addımları 2022-ci ildə Ukraynaya qarşı başladılan genişmiqyaslı işğalın səbəbləri ilə eyniləşdirildi.**

Təzyiqlər yalnız informasiya məkanı ilə məhdudlaşmadı. Səsverməyə bir neçə həftə qalmış Rusiya Ermənistan mənşəli bir sıra kənd təsərrüfatı və sənaye mallarının idxalına qadağa qoydu. Moskva bu addımı texniki və sanitar standartlarla əlaqələndirməyə çalışsa da, əslində, seçicilərin siyasi iradəsinə təsir idi.

Onu da qeyd edək ki, seşkiöncəsi siyasi müzakirələrdə Ermənistanın Avrasiya İqtisadi İttifaqındakı (AİI) gələcəyi diqqət mərkəzində oldu. Müxalifət liderləri, xüsusən də keçmiş prezidentlər Robert Koçaryan və Serj Sarkisyan Rusiya amilini ön plana çıxararaq AİI-ni ölkə iqtisadiyyatının, enerji təminatının və təhlükəsizliyinin yeganə dayağı kimi təqdim edirdilər. Onlar Moskva ilə münasibətlərin zəifləməsinin ölkəni fəlakətə və ciddi təhlükəsizlik risklərinə sürükləyəcəyini iddia edirdilər. Hakimiyyət isə cavabında bildirdi ki, Ermənistan yalnız bir qütbün əsirinə və birtərəfli asılılığa çevrilməməli, AİI ilə yanaşı paralel olaraq Avropa İttifaqı (Aİ) ilə də dərin inteqrasiya, investisiya artımı və azad ticarət imkanlarını genişləndirməlidir. Bu rəqabət faktiki olaraq seçicilərin qarşısında “Ermənistan Şərqlə Qərb arasında seçim etməlidirmi?” sualını qoydu.

Seçkidən dərhal sonrakı çıxışında baş nazir bu qələbəni xalqın revanşizmə və kriminal-oliqarxik sistemə verdiyi ən böyük cavab kimi qiymətləndirdi. O, müxalifəti “müharibə partiyası” adlandıraraq seçicilərin onların təklif etdiyi siyasi kursu rədd etdiyini bildirdi. Paşinyan çıxışında keçmiş hakimiyyətlə əlaqələndirdiyi “kriminal-oliqarxik sistemin” tamamilə aradan qaldırılmasının gələcək hökumətin əsas fəaliyyət istiqamətlərindən biri olacağını da vurğuladı.





***

Şübhəsiz, Moskvanın bütün cəhdlərinə baxmayaraq, sandıqdan çıxan nəticələr Rusiyanın regiondakı təsirinin sürətlə zəiflədiyini bir daha sübut etdi. Bir vaxtlar Moskvanın regiondakı ən sadiq müttəfiqi və hərbi-siyasi dayağı sayılan Ermənistanda seçicilər fırtınalı və asılı keçmişi geridə qoyaraq yeni səhifə açmağa üstünlük verdilər. Paşinyanın qazandığı bu güclü və yenilənmiş mandat İrəvana xarici siyasəti şaxələndirmək, eləcə də regional təhlükəsizlik arxitekturasını yenidən qurmaq üçün böyük bir hərəkət azadlığı və siyasi üstünlük qazandırdı.

Bazar günü keçirilən parlament seçkiləri yalnız Ermənistanın daxili siyasi mənzərəsini yeniləmədi, həm də Cənubi Qafqaz regionundakı güc balansını dəyişdirmək potensialını ortaya qoydu. İrəvanın xarici siyasətdə Qərbə yönəlməsi isə regionda uzun illərdir mövcud olan ənənəvi təhlükəsizlik və hərbi formatların tədricən sıradan çıxmasına yol açacaq. Lakin seçki marafonunun ortaya çıxardığı dərin ictimai parçalanma və kəskin siyasi qütbləşmə onu göstərir ki, Ermənistan cəmiyyətində xarici siyasət və milli kimlik ətrafındakı mübahisələr hələ uzun illər ölkənin daxili və xarici gündəminin əsas mövzusu olacaq.

***

Baş nazirin çıxışında maraqlı bir məqam da var. O bildirdi ki, seçkilərin nəticələrinə görə hakim “Mülki müqavilə” partiyası parlament çoxluğunu təşkil edəcək və hökuməti formalaşdıracaq: “Yaxın aylarda bu mövzunu müzakirə etmək imkanı olacaq”.

Seçki Məcəlləsi isə sabit parlament çoxluğunun formalaşdırılmasını tələb edir. Bu qanunların qəbulunda vacib şərtdir. Məcəlləyə əsasən, parlament çoxluğunu səslərin 54 faizin formalaşdırılması təmin edir. Əgər seçkilərin nəticələrinə parlament çoxluğu formalaşmazsa, ikinci tur keçirilir. Bazar günü keçirilən parlament seçkilərində isə Paşinyanın partiyası 50 faizdən az səs toplayıb. Belə görünür ki, nə parlament çoxluğunu, nə də hökuməti formalaşdıra bilər. Yəni ikinci tur keçirilməlidir. Amma burda bir özəllik var. Ermənistanda parlament yerlərinin bölüşdürülməsi “D’Hondt” sistemi əsasında həyata keçirilir. Bu sistem proporsional seçki modelinin bir növüdür və məqsədi partiyaların aldıqları səslərə uyğun şəkildə parlamentdə yer paylanmasını təmin etməkdir. Sistemin mühüm xüsusiyyəti ondan ibarətdir ki, parlamentə keçid baryerini keçə bilməyən partiyaların topladığı səslər “itmir”. Sistemin müəyyən qaydaya əsasən, seçki baryerini aşan partiyalar arasında yenidən bölüşdürülür. Proses zamanı daha çox səs toplamış partiyalar əlavə mandatlar qazanmaqda üstünlük əldə edir. Bununla da bu mexanizm böyük partiyaların xeyrinə işləyir. Bu isə o deməkdir ki, “Mülki müqavilə”, faktiki olaraq, parlamentdəki mandatlardan 54 faizdən çoxuna sahib olaraq təkbaşına hökuməti formalaşdırmaq, qərarlar qəbul etmək gücünü saxlayır. Yəni bir partiya ümumi səslərin mütləq 50 faizindən azını toplasa belə, kiçik partiyaların səslərinin yenidən bölüşdürülməsi hesabına parlamentdə daha yüksək təmsilçilik əldə edəcək. Bu, xüsusilə birinci yerdə olan partiyanın mandat sayını artıraraq onun siyasi mövqeyini gücləndirir.

***

Ermənistanda keçirilən parlament seçkiləri Cənubi Qafqazın gələcək geosiyasi düzəninə təsir göstərəcək hadisə kimi Moskva, Brüssel və Vaşinqtonun diqqət mərkəzində olub. Seçkilərin nəticələri elan olunduqdan sonra Kremlin reaksiyası xüsusilə diqqət çəkib. Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib ki, Moskva tarixən olduğu kimi, bundan sonra da güclü və həqiqətən suveren Ermənistanın tərəfdaşıdır. O, Ermənistan xalqını Rusiyanın qardaş xalqı adlandıraraq onlara sülh və rifah arzulayıb. Bəyanatda seçkilərin nəticələri və ya qalib siyasi qüvvələr barədə qiymətləndirmə verilməyib, əsas vurğu gələcək hökumətin tərkibindən asılı olmayaraq Moskvanın İrəvanla əməkdaşlığı davam etdirmək niyyətinə yönəlib. Bu yanaşma Kremlin Ermənistanın daxili siyasi seçiminə uyğunlaşmağa hazır olduğunu göstərir.

Sonda onu da qeyd edək ki, Moskvanın və daxili rəqiblərin bütün cəhdlərinə baxmayaraq, seçicilərin ümumi iradəsini dəyişmək mümkün olmadı. Şübhəsiz ki, bu gün kağız üzərində Ermənistan və Rusiya hələ də rəsmi müttəfiq hesab olunsalar da, tərəflər arasındakı dərin etimadsızlıq seçki marafonunda özünü daha qabarıq göstərdi. Mövcud mənzərə də bu etimadsızlığı tam şəkildə təsdiqlədi.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azyaşlılar rəqəmsal mühitə çıxışa hazır deyillər

## *Onları bu sahədəki təhlükədən qorumaq üçün qanun layihəsi hazırlanır*

**Milli Məclisin İnsan hüquqları, Ailə, qadın və uşaq məsələləri və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin iyunun 8-də keçirilən birgə iclasında müzakirəyə çıxarılan yeni qanun layihəsində bu sahədə qanuni tənzimlənməni nəzərdə tutan bir sıra vacib amilləri əks etdirir. İlk növbədə, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanuna bir sıra dəyişikliklərin edilməsi nəzərdə tutulur.**



Yeni qanun layihəsi uşaqların sosial şəbəkə platformalarında qeydiyyatının qanunvericiliyə uyğun tənzimlənməsini də nəzərdə tutur. Aydın məsələdir ki, burada ilk növbədə övladlarımızın sağlamlığı və rifahı əsas götürülməlidir. Onlar gələcəklərini heç də sosial şəbəkələrdən asılı olaraq qurmamalıdırlar. Burada məsuliyyətin ağırlığı, əlbəttə ki, valideynlərin üzərinə düşür. Məhz onlar uşaqların rəqəmsal mühitdə fəaliyyətlərinə, sosial şəbəkə platformalarındakı zərərli təsirlərdən övladlarını qorumağa məsuldurlar. Bəli, rəqəmsal mühitin təhlükəsizliyi uşaqlarımız üçün olduqca vacib amil olmaqla yanaşı, dövlətin rəqəmsal inkişaf siyasətində azyaşlıların mühafizəsi prioritet məsələlərdən sayılır. Bu sahənin qanunvericilik bazasının təkmilləşdirilməsi isə günün tələbinə çevrilib.

***

MM-in plenar iclasında müzakirə olunacaq yeni sənədin əsas anlayışlarına bir sıra əlavələrin edilməsi irəli sürülür. **1.** Sosial şəbəkə platforması – istifadəçilərə fərdi rəqəmsal hesab yaratmaq, digər istifadəçilərlə virtual əlaqə qurmaq və rəqəmsal məzmunu (mətn, foto, video, audio və s.) fərdi və (və ya) kütləvi şəkildə paylaşmaq imkanı verən, əsas funksiyası istifadəçilər arasında rəqəmsal qarşılıqlı əlaqəni təmin etməkdən ibarət olan informasiya sistemi. **2.** Yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platforması (bundan sonra – platforma) – yaş məhdudiyyəti nəzərə alınmaqla, rəqəmsal məzmunun (mətn, foto, video, audio və s.) kütləvi şəkildə paylaşılması vasitəsilə istifadəçilər arasında rəqəmsal qarşılıqlı əlaqəni (təhsil, səhiyyə və ya peşəkar-işgüzar münasibətlərin qurulması istisna olmaqla) təmin edən informasiya sistemi. **3.** Yaş məhdudiyyəti tətbiq edilən sosial şəbəkə platformasının provayderi (bundan sonra – provayder) – platformanın texnoloji infrastrukturunu formalaşdıran, onun fəaliyyət prinsiplərini və istifadəçi qaydalarını müəyyən edən, rəqəmsal məzmunun (mətn, foto, video, audio və s.) paylaşılması alqoritmlərinə və istifadəçi məlumatlarının emalı prosesinə birbaşa nəzarət edən, habelə həmin platformanın idarə olunmasına cavabdeh olan hüquqi və ya fiziki şəxs. **4.** Fərdi rəqəmsal hesab – fiziki və ya hüquqi şəxsin platformada qeydiyyatı zamanı yaradılan, onun identifikasiyasını, ona məxsus məlumatların yerləşdirilməsini, idarə olunmasını və paylaşılmasını, digər istifadəçilərlə əlaqə qurulmasını, habelə xidmətlərdən fərdiləşdirilmiş qaydada istifadə edilməsini təmin edən, unikal identifikasiya və giriş məlumatları (istifadəçi adı, parol, çoxfaktorlu autentifikasiya vasitələri və s.) ilə qorunan, istifadəçiyə aid hüquq və öhdəliklərin tətbiq olunduğu rəqəmsal səhifə.

***

Oxucuların nəzərinə çatdıraq ki, yeni qanun layihəsi rəqəmsal mühitdə uşaqların hüquq və mənafelərinin daha effektiv qorunması, sosial şəbəkə platformalarından təhlükəsiz istifadənin təmin olunması, habelə platformaların fəaliyyətinin hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Yeni qanun qadağadan daha çox uşaqlar üçün yeni imkanlar yaradan sənəd kimi cəmiyyətə kommunikasiya edilməlidir. Məsələnin bu aspekti müzakirələrdə xüsusi olaraq vurğulandı. Milli Məclisin 3 komitəsinin birgə iclasında İnzibati Xətalar Məcəlləsində, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Uşaqların zərərli informasiyadan qorunması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsində çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli qeyd edib ki, övladlarımızın internetdə kifayət qədər vaxt keçirdikləri məlum məsələdir, amma məktəbdə verilən tapşırıqların həll edilməsi üçün uşaqlar internetə daxil olmalı və lazımlı resurslardan faydalanmalıdırlar: “Biz rəqəmsal mühitdə maarifləndirici resurslarımızın sayını artırmalıyıq. Rəqəmsal reallıq heç də təhdidlərlə dolu deyil. Onun pozitiv tərəfləri kifayət qədər genişdir. Bizi sevindirən məqam odur ki, insanlar artıq informasiyanın passiv şəkildə istifadəçisi deyillər, eyni zamanda, informasiyanı istehsal edirlər. Bu, rəqəmsal və texnoloji inqilabi dəyişiklikdir”.

Nə gizlədək, virtual məkanda, sosial platformalarda milli mentalitetimizə zidd mənəvi və əxlaqi keyfiyyətləri aşılayan kontentlərin (pornoqrafiya, işgəncə, qəddarlıq səhnələri, narkotik, spirtli içkilərin, terrorizm, vandalizmin təbliğatı və s.) sürətlə artması uşaq və yeniyetmələr üçün ciddi təhlükə mənbəyinə çevrilir. İnternetdən asılılıq, yaşa uyğun olmayan məlumatlar uşaq psixologiyasına və davranışına mənfi təsir göstərir. Digər tərəfdən, kibercinayətkarlar tərəfindən hədə-qorxu, təcavüz kimi psixoloji təsirlərin göstərilməsi halları informasiya təhlükəsizliyi ilə bağlı ciddi problemlər yaradır. Bu problemlərin texnoloji yöndən həlli nə qədər vacibdirsə, hüquqi nöqteyi-nəzərdən tənzimlənməsi ondan daha önəmlidir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Qələbə var, konstitusiya çoxluğu isə yoxdur

## *Erməni seçicilər Paşinyana yenidən etimad göstərdilər, amma bu, tam səlahiyyət olmadı*

**Ermənistanda bütün geosiyasi mərkəzlərin böyük həyəcanla izlədiyi parlament seçkiləri baş tutdu. Ermənistan Mərkəzi Seçki Komissiyası dünən səhər verilən səslərin sayılmasını başa çatdırıb. Ölkə üzrə 2005 seçki məntəqəsindən daxil olan nəticələrin emal edilməsindən sonra hakim "Mülki müqavilə" partiyasının 49,81 (727, 160 səs), "Güclü Ermənistan" partiyasının 23,29 (340, 062 səs), "Ermənistan" blokunun 9,94 (145, 097 səs), "Çiçəklənən Ermənistan" partiyasının isə 4 (58 368 səs) faiz səs topladığı məlum olub. Beşinci yerdə qərarlaşan "Birlik qanadları" siyasi təşəbbüsü cəmi 2,30 (33, 618 səs) faiz səs toplayıb.**



Məzuniyyətdə olan Baş nazir Nikol Paşinyan seçkilərin nəticələrinin açıqlanmasından az sonra – gecədən keçmiş mətbuat konfransı keçirərək rəhbərlik etdiyi partiyanın qalib gəldiyini bildirib. Onun sözlərinə görə, partiyası seçicilərin etimadını qazanıb və yeni hökuməti koalisiyaya ehtiyac olmadan müstəqil şəkildə formalaşdıracaq. Dünən səhər isə Paşinyan parlamentə gedərək 2025-ci il dövlət büdcəsinin illik hesabatının müzakirəsində iştirak edib. O, müzakirənin əvvəlində erməni xalqını seçkilərdə qalib gəldikləri üçün təbrik edib: "İyunun 7-də erməni xalqı öz səsi ilə dövlətə, müstəqilliyə, gələcəyə, sülhə və Ermənistana sahib çıxdı. "Üçbaşlı müharibə partiyası" darmadağın edildi. Onların kökü Ermənistandan qazılıb çıxarılmalıdır və bu, hökumətin ən vacib gündəlik məsələlərindən biri olacaq. Biz bunu gecikdirmədən, çox qətiyyətli və konkret addımlarla həyata keçirməliyik". O qeyd edib ki, "Mülki müqavilə" parlament çoxluğuna malik olacaq, eyni zamanda, hökuməti formalaşdıracaq.

Göründüyü kimi, Paşinyan qısa müddət ərzində artıq ikinci dəfə seçicilərin etimadını qazandıqlarını, parlament çoxluğuna malik olacaqlarını, yeni hökuməti koalisiyaya ehtiyac duymadan təkbaşına quracaqlarını bildirib. Bəs, bu fikirdə həqiqət payı nə qədərdir? Paşinyan təkbaşına hökumət qura biləcəkmi? Parlamentdə qüvvələr nisbəti necə dəyişəcək? Bu suallara cavab tapmağa çalışdıq.

*

Əvvəlcə onu qeyd etmək lazımdır ki, seçkilərin nəticələri ölkənin siyasi mənzərəsini əhəmiyyətli dərəcədə yenidən formalaşdırıb. Bütün səslərin hesablanmasından sonra hakim "Mülki müqavilə" partiyasının 49,81 faiz səslə birinci yeri tutması N.Paşinyan komandasının hakimiyyətdə qalması deməkdir. "Güclü Ermənistan" blokunun 23,29 faiz, "Ermənistan" blokunun 9,94 faiz, "Çiçəklənən Ermənistan" partiyasının isə 4 faiz səs toplaması parlamentdə yeni qüvvələr nisbətinin formalaşacağını göstərir. Bununla belə, seçkilərin yekun siyasi mənzərəsini müəyyən edən yalnız faiz göstəriciləri deyil. Əsas məsələ həmin nəticələrin Ermənistan Konstitusiyası və Seçki Məcəlləsinə uyğun olaraq hansı hüquqi nəticələr doğuracağıdır.

Ermənistan parlament üsul-idarəetməsinə malik dövlətdir. Bu səbəbdən parlament seçkilərinin nəticələri təkcə qanunverici orqanın tərkibini müəyyənləşdirmir, həm də ölkənin gələcək hökumətinin necə formalaşacağını, baş nazirin kim olacağını və hakimiyyətin hansı siyasi qüvvənin əlində cəmləşəcəyini müəyyən edir. Başqa sözlə, seçkinin qalibi faktiki olaraq ölkənin siyasi kursuna rəhbərlik etmək səlahiyyətini də əldə edir. Mövcud qanunvericiliyə əsasən, Ermənistan parlamenti – Milli Assambleya proporsional seçki sistemi əsasında formalaşdırılır. Parlamentin tərkibi 107 deputatdan ibarətdir.

Bununla yanaşı, seçki qanunvericiliyi parlamentdə siyasi plüralizmin qorunması və ən azı 3 siyasi qüvvənin təmsil olunmasının təmin edilməsi üçün xüsusi mexanizmlər də nəzərdə tutur. Eyni zamanda, qanunvericilikdə "sabit parlament çoxluğu" prinsipi ayrıca yer tutur. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, seçkilərin nəticəsi ölkədə hökumət böhranına deyil, idarəetmənin davamlılığına xidmət etməlidir.

Parlamentə keçən əsas qüvvələr arasında mandatların dəqiq bölgüsü Mərkəzi Seçki Komissiyası tərəfindən xüsusi düstur əsasında müəyyənləşdirilsə də, ilkin hesablamalar hakim partiyanın təxminən 58 mandat əldə edə biləcəyini göstərir. Bu isə 101 yerlik parlamentdə sadə çoxluğun təmin olunması deməkdir. Məhz bu məqam seçkinin ən mühüm hüquqi nəticəsi hesab olunur. Ermənistan Konstitusiyasına görə parlamentdə çoxluğa malik siyasi qüvvə hökuməti formalaşdırmaq hüququ qazanır. Əgər bir partiya və ya blok parlamentdə tələb olunan çoxluğu qazanırsa, koalisiya danışıqlarına ehtiyac yaranmır. Bu baxımdan "Mülki müqavilə"nin nəticəsi N.Paşinyana hökuməti təkbaşına formalaşdırmaq imkanı verir.

Konstitusion prosedura görə, seçkilərin yekun nəticələri rəsmən təsdiqləndikdən sonra yeni seçilmiş parlamentin ilk iclası çağırılır. İlk iclasda deputatların səlahiyyətləri tanınır, Milli Assambleyanın rəhbərliyi seçilir və bundan sonra baş nazirin müəyyənləşdirilməsi prosesi başlayır. Parlament çoxluğuna malik siyasi qüvvə baş nazir postuna öz namizədini irəli sürür. Hazırkı nəticələr fonunda həmin namizədin Paşinyan olacağına şübhə yoxdur. Əgər parlamentdə çoxluq təmin olunubsa, baş nazirin seçilməsi proseduru formal xarakter daşıyır. Çünki hakim partiyanın deputat sayı hökumət başçısının seçilməsi üçün kifayət edir. Bunun ardınca yeni hökumətin tərkibi formalaşdırılır və icra hakimiyyəti fəaliyyətini davam etdirir.

Seçkinin nəticələri müxalifət üçün də yeni hüquqi status yaradır. "Güclü Ermənistan" və "Ermənistan" blokları parlamentdə əsas müxalif qüvvələr kimi fəaliyyət göstərəcəklər. Ermənistan qanunvericiliyi müxalifətin hüquqlarını müəyyən dərəcədə qoruyur. Parlament komitələrində təmsilçilik, bəzi komissiyalara rəhbərlik etmək, hökumətə sorğular ünvanlamaq və parlament nəzarəti mexanizmlərindən istifadə imkanları səlahiyyətlər sırasındadır.

Bununla yanaşı, seçkinin nəticələri hakim partiyaya bütün siyasi məsələlərdə tam sərbəstlik vermir. Burada mühüm fərq sadə parlament çoxluğu ilə konstitusion çoxluq arasındadır. Mövcud nəticələr "Mülki müqavilə"yə hökuməti formalaşdırmaq və qanunların böyük hissəsini qəbul etmək imkanı yaratsa da, bu, avtomatik olaraq konstitusion çoxluq demək deyil. Ermənistan Konstitusiyasına dəyişikliklərin edilməsi və bəzi xüsusi qərarların qəbul olunması üçün daha geniş siyasi dəstək tələb olunur. Bu məqam xüsusilə son illər tez-tez müzakirə olunan konstitusiya islahatları fonunda diqqət çəkir. Əgər gələcəkdə Ermənistan rəhbərliyi əsas qanunda dəyişikliklər etmək istəsə, bunun üçün hakim partiyanın səsi kifayət etməyə bilər. Belə hallarda ya parlament daxilində əlavə siyasi dəstək əldə edilməli, ya da qanunvericiliyin nəzərdə tutduğu digər prosedurlar işə salınmalıdır.



**Hüquq elmləri namizədi, vəkil Arsen Tavadyan** sosial şəbəkədəki hesabında yazıb ki, "Mülki müqavilə" partiyasının seçkilərdə iştirak etmiş vətəndaşların səslərinin 50 faizini əldə edə bilməməsi onun konstitusion çoxluq əldə etmədiyi deməkdir: "İqtidar nümayəndələri açıq şəkildə konstitusion çoxluq qazanacaqlarına ümid edirdilər. Yüksək seçici fəallığı bu məqsədin reallaşmasına mane oldu. Üstəlik, mümkündür ki, "Mülki müqavilə" hətta mandatların 3/5 hissəsini də əldə etməsin. Bu isə partiyanı konstitusion qanunları qəbulu və müstəqil qurumların tərkibini təkbaşına formalaşdırmaq imkanından məhrum edəcək. "Mülki müqavilə" əvvəlki dövrlə müqayisədə bu seçkilərdən xeyli zəifləmiş vəziyyətdə çıxır".

Onun sözlərinə görə, seçkilərin nəticələri həm də onu göstərir ki, Ermənistan cəmiyyətində müxalifət hakimiyyətə alternativ kimi çıxış etmək üçün hələ də kifayət qədər geniş dəstək toplaya bilməyib: "Müxalif düşərgənin müxtəlif bloklar arasında parçalanması hakim partiyanın üstünlüyünü daha da artırıb. Bu amil hüquqi baxımdan koalisiya modelinin deyil, birpartiyalı hökumət modelinin formalaşmasına şərait yaradıb".

Beləliklə, iyunun 7-də keçirilən seçkilərin hüquqi yekunu kifayət qədər aydındır. Ermənistan yeni parlamentini formalaşdırır, hakim "Mülki müqavilə" partiyası parlament çoxluğunu əldə edir, Paşinyan yenidən baş nazir postuna gedən yolu açır, ölkədə koalisiyasız hökumət modeli yaranır. Amma, qeyd etdiyimiz kimi, bəzi vacib qanunları və mövqeləri, habelə konstitusiyanı dəyişdirmək tələb olunan konstitusion çoxluq alınmır.

***Səxavət HƏMİD***
***XQ***

**Rusiya-Ukrayna müharibəsi beşinci ilinə doğru irəlilədikcə, münaqişənin siyasi və diplomatik ölçüləri hərbi cəbhədə baş verən hadisələr qədər əhəmiyyət qazanmağa başlayır. Son aylar müşahidə olunan proseslər göstərir ki, müharibə artıq beynəlxalq diplomatiya masasında da yeni mərhələyə qədəm qoyub.**

# "3+1" formatında strateji axtarışlar

## *Zelenskinin Avropa səfəri nəyə xidmət edir?*



Bazar günü sözügedən məsələ ilə bağlı Londonda keçirilən görüş mövcud vəziyyətin təzahürüdür. Mahiyyət etibarilə "3+1" formatlı görüşdə Avropanın üç əsas siyasi və hərbi gücü hesab olunan Böyük Britaniya, Fransa və Almaniya liderləri Ukrayna Prezidenti Volodimir Zelenski ilə bir araya gələrək müharibənin gələcək diplomatik perspektivlərini müzakirə ediblər. Görüş çərçivəsində Zelenskinin səsləndirdiyi fikirlər rəsmi Kiyevin yeni strategiyasının əsas konturlarını ortaya qoydu. Görünür, Zelenski anlayıb ki, müharibənin əvvəlində mövcud olan beynəlxalq həmrəylik əvvəlki səviyyədən xeyli fərqlənir. Çünki qlobal gündəmdə yeni böhranlar meydana çıxıb, böyük güclərin diqqəti müxtəlif regionlara bölünüb. Ukrayna məsələsi artıq əvvəlki kimi Qərb siyasətinin yeganə prioritet istiqaməti sayılmır. Belə şəraitdə Zelenski müharibənin taleyini hərbi yardımların həcminə bağlamağın riskli olduğunu dərk edir və diplomatik fəallığı artırmağa çalışır.

Londonda keçirilən görüşün mühüm məqamlarından biri Ukrayna məsələsinin Avropa təhlükəsizliyi kontekstində yenidən təqdim olunması idi. Zelenski ABŞ-da daxili siyasi proseslər, Yaxın Şərqdə artan gərginlik və digər beynəlxalq problemlərin Vaşinqtonun diqqətini fərqli istiqamətlərə yönəltdiyinin fərqindədir. Bu səbəbdən o, Avropanın təşəbbüsü öz üzərinə götürməsini istəyir. Əslində, son bəyanatlar göstərir ki, Kiyev ABŞ-ın liderliyinə güvənən strategiyasından uzaqlaşmağa başlayıb və Avropanı münaqişənin gələcək həll mexanizmlərinin mərkəzinə gətirməyə çalışır. Zelenskinin görüşdən bir neçə gün öncə Putinə ünvanladığı açıq məktub da bu siyasətin tərkib hissəsidir. Zelenski məktubunda Putinlə görüş keçirməyi təklif edib. Lakin, bu zaman Rusiya liderinin ünvanına bir sıra ittihamlar səsləndirib. Putin isə cavabında hələlik şəxsi görüş keçirməyin mənasını görmədiyini bildirib. Onun köməkçisi Yuri Uşakov sonradan Zelenskinin məktubunun "bir neçə səhifə kobud ifadələrdən ibarət olduğunu" söyləyib.

Qısa bir xatırlatma edək ki, son illər Avropada Ukraynaya dəstəyin davam etdirilməsi məsələsi əvvəlki qədər birmənalı qarşılanmır. Müharibənin iqtisadi nəticələri, enerji qiymətlərindəki dəyişikliklər və sosial problemlər bir sıra ölkələrdə hökumətlər üzərində əlavə təzyiq formalaşdırır. Bu şəraitdə Kiyev öz tərəfdaşlarını inandırmalıdır ki, müharibənin uzanmasına görə məsuliyyət Rusiyanın üzərindədir. Zelenskinin diplomatik təşəbbüsləri məhz bu məqsədə xidmət edir. Londonda səsləndirilən fikirlərdən görünür ki, Ukrayna rəhbərliyi təhlükəsizlik zəmanətləri məsələsini gələcək danışıqların əsas elementi kimi görür. Bundan başqa, Ukrayna rəhbərliyi hesab edir ki, hər hansı müvəqqəti razılaşma gələcəkdə yeni müharibənin başlanması riskini daşıyır. Ona görə də rəsmi Kiyev hüquqi öhdəliklərə əsaslanan beynəlxalq təhlükəsizlik mexanizmləri tələb edir. Amma mövcud yanaşma münaqişənin daha geniş geosiyasi çərçivədə müzakirə olunmasına gətirib çıxarır.

Avropa liderlərinin bəyanatlarında diqqətçəkən məqamlardan biri də çoxmillətli qüvvələrin yerləşdirilməsi ideyasının gündəmə gətirilməsidir. Bu təklif hələlik nəzəri xarakter daşısa da, Avropanın Ukrayna məsələsində daha fəal rol almağa hazırlaşdığını göstərir. Eyni zamanda, belə təşəbbüslər Moskva tərəfindən təhlükəsizlik balansının dəyişdirilməsi kimi qəbul oluna bilər ki, bu da gələcək danışıqları daha mürəkkəb edir. Zelenskinin Londondakı çıxışlarında hava hücumundan müdafiə sistemləri üçün əlavə raketlərə ehtiyac olduğunu vurğulaması da təsadüfi deyil. Kiyevin məntiqinə görə, diplomatiya güclü müdafiə potensialı ilə dəstəkləndiyi halda effektiv nəticə verə bilər. Buna görə Zelenski danışıqlarla yanaşı, Qərbdən yeni silah paketi istəyir.

Yeri gəlmişkən, müharibənin hazırkı mərhələsində Ukrayna rəhbərliyinin qarşılaşdığı əsas problemlərdən biri beynəlxalq diqqətin azalmasıdır. Yaxın Şərqdə baş verən hadisələr, Asiya-Sakit okean regionundakı gərginlik və qlobal iqtisadi qeyri-müəyyənlik Ukrayna məsələsinin informasiya gündəmində əvvəlki yerini qorumasını çətinləşdirib. Zelenskinin son diplomatik fəallığı, müəyyən mənada, bu tendensiyanın qarşısını almaq məqsədi daşıyır. O, müharibənin beynəlxalq gündəmdə qalmasını və tərəfdaş ölkələrin diqqətinin dağılmamasını təmin etməyə çalışır.

Sonda bu qənaətə gəlmək olar ki, London görüşü və ardınca verilən bəyanatlar Ukrayna diplomatiyasının yeni mərhələyə keçdiyini göstərir. Zelenski Avropanın siyasi liderliyinin gücləndirilməsinə çalışır. Onun yeni planı Ukraynanı beynəlxalq gündəmin mərkəzində saxlamaq, Qərb ölkələrinin dəstəyini qorumaq və mümkün danışıqlar prosesində öz mövqeyini möhkəmləndirmək məqsədi daşıyır. Həmin strategiyanın nə dərəcədə uğurlu olacağını isə zaman göstərəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Mətin MƏMMƏDLİ,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində şöbə müdiri**

Hazırda kəskin hərbi qarşıdurma davam etsə də, perspektivdə münaqişənin diplomatik yolla həlli istisna edilmir. Bununla belə, indiki mərhələdə müharibənin yaxın zamanda dayanacağına və tərəflərin dərhal kompromisə gələcəyinə inanmaq mümkün deyil. Bu ehtimal olduqca aşağıdır. Çünki Ukrayna və Rusiya hakimiyyətləri arasında bir sıra prinsipial məsələlər üzrə kəskin mövqe fərqləri mövcuddur. Məsələn, Ukrayna üçün əsas prioritetlər ərazi bütövlüyünün bərpası və təhlükəsizlik təminatlarıdırsa, Rusiya bu məsələlərə fərqli yanaşır. Belə şəraitdə tərəflərin yaxın zamanda kompromisə gəlməsi real görünmür və buna görə də hazırkı mərhələdə danışıqlar ehtimalını zəif hesab edirəm.

Gələcəkdə isə bu, mümkündür. Tarixə və müxtəlif münaqişələrin gedişinə baxdıqda görürük ki, istənilən müharibə və qarşıdurma sonda ya danışıqlar, ya da diplomatik razılaşmalar vasitəsilə müəyyən şəkildə tənzimlənir. Rusiya-Ukrayna müharibəsinin də istisna təşkil etməyəcəyi ehtimal olunur. Lakin prosesin necə nəticələnəcəyi, hansı şərtlərlə yekunlaşacağı və hansı geosiyasi reallıqların formalaşacağı hələlik dəqiq deyil.

Müharibənin nəticələri, ilk növbədə, hərbi əməliyyatların gedişindən asılı olacaq. Çünki cəbhədəki vəziyyət birbaşa siyasi qərarların formalaşmasına təsir göstərir. Hazırkı status-kvoya baxdıqda görürük ki, tərəflərdən heç biri mütləq üstünlük əldə etməyib. Doğrudur, son vaxtlar Rusiya müəyyən taktiki üstünlüklər qazanaraq bəzi ərazilərə nəzarət edə bilib. Lakin müharibənin başlanğıcında bəyan etdiyi strateji məqsədlərə tam şəkildə nail ola bilməyib. Eyni zamanda, son aylarda Ukrayna da müəyyən əks-hücumlar həyata keçirir və bəzi cəbhə bölgələrində texnoloji və taktiki üstünlük nümayiş etdirir. Hazırda döyüşlər daha çox mövqe xarakteri daşıyır. Tərəflər klassik hərbi əməliyyatlardan fərqli olaraq daha çox dron hücumları və uzaqmənzilli zərbələr vasitəsilə bir-birinə təsir göstərməyə çalışırlar. Bu səbəbdən ehtimal olunur ki, müharibə hələ bir müddət bu formada davam edəcək.

# Əli Əsədovun Vyetnamın Baş prokuroru ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 8-də Vyetnam Sosialist Respublikasının Ali Xalq Prokurorluğunun Baş prokuroru Nguyen Tien ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Vyetnam arasında ənənəvi dostluq münasibətlərinin və qarşılıqlı faydalı əməkdaşlığın inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında siyasi dialoqun yüksək səviyyədə olduğu vurğulanıb, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin əhəmiyyəti qeyd edilib. Prokurorluq orqanları arasında səmərəli əməkdaşlığın inkişafı yüksək qiymətləndirilib, bu sahədə əlaqələrin daha da möhkəmləndirilməsi imkanları müzakirə olunub.

Görüşdə Azərbaycanın Baş prokuroru Kamran Əliyev iştirak edib.

# Vyetnamın Baş prokuroru ölkəmizdə

**İyunun 8-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Vyetnam Sosialist Respublikasının Baş prokuroru Nquyen Tiyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Söhbət zamanı iki ölkə arasında dost münasibətlərin təməlinin hələ ötən əsrdə Ulu Öndər Heydər Əliyev və Vyetnam xalqının böyük oğlu Ho Şi Min tərəfindən qoyulduğu bildirilib. Vurğulanıb ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr dinamik inkişaf edib.

Görüşdə ikitərəfli əlaqələrin güclənməsində ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin müstəsna rolu qeyd olunub, Azərbaycan Prezidentinin Vyetnama, Vyetnam Prezidentinin isə Azərbaycana səfərlərinin münasibətlərimizin dinamikasını müəyyən etdiyi diqqətə çatdırılıb.

Sahibə Qafarova qonağa Milli Məclisin ölkənin qanunvericilik sisteminin təkmilləşdirilməsi sahəsində fəaliyyəti kontekstində Azərbaycanın Baş Prokurorluğu ilə qarşılıqlı əməkdaşlığı, Azərbaycanda müasir parlamentin strukturu, beynəlxalq fəaliyyəti, parlamentdə partiyaların təmsilçiliyi barədə məlumat verib.

Nquyen Tiyen Vyetnam Milli Assambleyası sədrinin salamlarını çatdırıb, ölkəmizə səfəri barədə təəssüratlarını bölüşüb. Qonaq rəhbərlik etdiyi qurumla Azərbaycan Baş prokurorluğu arasında imzalanmış sənədlərin əhəmiyyətindən və əməkdaşlığın perspektivlərindən danışıb.

*

Həmin gün Azərbaycanın Baş prokuroru Kamran Əliyev də Vyetnamın Baş prokuroru Nquyen Tiyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin 2025-ci ildə Hanoy şəhərinə işgüzarı səfəri xatırlanmış, həmin səfərdə Azərbaycan və Vyetnam Baş prokurorluqları arasında imzalanmış Anlaşma Memorandumunun iki ölkənin prokurorluq orqanları arasında hüquqi əməkdaşlığın inkişafına töhfə verməklə yanaşı, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinə xidmət etdiyi vurğulanıb.



Görüş zamanı iki ölkənin prokurorluqları arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə əmlakın bərpası, ətraf mühitin qorunması kimi prokurorluq fəaliyyətinin müxtəlif sahələrini əhatə edən Əməkdaşlıq Proqramı imzalanıb.



Vyetnam Sosialist Respublikasının hüquq-mühafizə orqanları ilə əlaqələrin inkişaf etdirilməsi məqsədilə "Azərbaycan Respublikası və Vyetnam Sosialist Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı yardım haqqında Müqavilə" layihəsi hazırlanıb və hazırda dövlətdaxili prosedurlardan keçirilir.

Nquyen Tiyen təmsil etdiyi qurumun Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini, habelə qurumlar arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, ekstradisiya, hüquqi yardım, prokurorların təlimi və digər istiqamətlər üzrə əlaqələrin davam etdirilməsi barədə razılıq əldə olunub.

*

Dünən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev də Vyetnamın Baş prokuroru Nquyen Tiyenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Konstitusiya Məhkəməsinin sədri Azərbaycanla Vyetnam arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyini vurğulayaraq, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd edib, dövlətlərarası münasibətlərin inkişafında hüquqi əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsinin xüsusi rol oynadığını bildirib. O, Konstitusiya Məhkəməsinin fəaliyyət istiqamətlərindən, həmçinin qərar qəbuletmə proseduru və bu sahədə görülən işlərdən ətraflı bəhs edib.

Baş prokuror Nquyen Tiyen Azərbaycan ilə Vyetnam arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, məhkəmə və prokurorluq sahələrində münasibətlərin genişləndirilməsinin qarşılıqlı maraqlara uyğunluğunu vurğulayaraq, gələcəkdə təcrübə mübadiləsinin və birgə təşəbbüslərin hər iki ölkənin hüquq sahəsi üçün faydalı olacağını diqqətə çatdırıb.

*XQ*

# Səyyar ASAN xidmət Gürcüstanda soydaşlarımıza xidmət göstərib




**İyunun 5, 6 və 7-də ölkəmizin Tbilisi şəhərindəki səfirliyində Azərbaycan vətəndaşlarına dövlət xidmətlərinin çatdırılması üçün Səyyar ASAN xidmət avtobusu vasitəsilə xidmət göstərilib.**

Xüsusi avadanlıqlarla təchiz olunmuş səyyar avtobusda vətəndaşlar şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi və məhkumluq barədə arayışların verilməsi xidmətlərindən yararlanıblar.

Layihə Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin isə dəstəyi ilə təşkil olunub.

Bu çərçivədə 500-ə yaxın vətəndaşın işi asanlaşıb.

Səyyar ASAN xidmətin gələcəkdə digər ölkələrdə də keçirilməsi nəzərdə tutulur.

*XQ*

# Üç paytaxtın vahid strateji baxışı

## *Cənubi Qafqazda davamlı təhlükəsizliyin gələcəyi İstanbulda müəyyən edilir*



**Dünən İstanbul şəhərində keçirilən Türkiyə–Azərbaycan–Gürcüstan xarici işlər nazirlərinin 10-cu üçtərəfli görüşü regional təhlükəsizlik arxitekturasının gücləndirilməsi baxımından mühüm tarixi addım hesab olunur. Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov, Türkiyə xarici işlər naziri Hakan Fidan və Gürcüstanın xarici işlər naziri Maka Boçorişvilinin iştirak etdiyi konfrans regional tərəfdaşlığın institusional səviyyədə möhkəmlənməsinə xidmət edən strateji platformadır.**

Regional və beynəlxalq səviyyədə gərginliyin artdığı, qarşıdurmaların dərinləşdiyi hazırkı mərhələdə üç qonşu dövlətin xarici siyasət idarələrinin rəhbərlərinin toplantısı regional sabitliyi təhdid edən risklərin qarşısının alınması istiqamətində ortaq iradənin nümayişidir. Azərbaycan dövlətinin xarici siyasət kursu qonşu ölkələrlə bərabərhüquqlu, qarşılıqlı hörmətə əsaslanan münasibətlərin inkişaf etdirilməsinə yönəlir ki, İstanbul görüşü həmin hədəflərə çatmaq üçün əlverişli zəmin formalaşdırır.

Sözügedən görüşün gündəliyini təşkil edən əsas məsələlər regional sabitliyin qorunması, xarici siyasi təhdidlərin neytrallaşdırılması və üçtərəfli formatda yeni layihələrin müzakirəsindən ibarət idi. Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov media nümayəndələrinə açıqlamasında qeyd etdi ki, hazırda həyata keçirilən layihələrin cari vəziyyəti, habelə gələcəkdə icrası planlaşdırılan yeni layihələr geniş təhlil edildi. Nazir xüsusilə vurğuladı ki, müasir dönəmdə ortaya çıxan mövzular kontekstində yeni icra olunan layihələr barədə geniş fikir mübadiləsi aparıldı və ortaq çağırışlar nəzərə alındı. Qeyd olunan layihələr, sadəcə, nəqliyyat və kommunikasiya xətlərinin çəkilməsi ilə məhdudlaşmır, həm də regionun təhlükəsizlik çətirinin möhkəmləndirilməsinə xidmət edir. Üçtərəfli əməkdaşlıq çərçivəsində reallaşan layihələr kənar güclərin regiona neqativ müdaxilə imkanlarını məhdudlaşdırır və region ölkələrinin suverenliyini gücləndirir.

C.Bayramov onu da bildirdi ki, olduqca vacib məqam beynəlxalq və regional münaqişələrin, həmçinin artan gərginliyin Cənubi Qafqaza təsiri ilə bağlıdır: "Bölgənin neqativ tendensiyalardan kənar qalması qeyri-realdır və həmin proseslərin nəticələri artıq göz önündədir. Qlobal arenada qarşıdurmaların intensivləşdiyi, beynəlxalq hüquq normalarının zəiflədiyi şəraitdə Cənubi Qafqaz kimi mürəkkəb coğrafiyada yerləşən ölkələr təhlükəsizlik riskləri ilə üz-üzə qalır. Xüsusilə Ukraynadakı müharibə, Yaxın Şərqdə davam edən gərginlik və böyük güclərin rəqabəti Cənubi Qafqazın daxili dinamikasına da təsir göstərir. Belə şəraitdə regional sabitliyin qorunması, kənar müdaxilələrin neytrallaşdırılması yalnız regional dövlətlərin fəal koordinasiyası sayəsində mümkündür". Azərbaycanın xarici siyasət idarəsinin rəhbəri məhz həmin reallığı diqqətə çatdıraraq, koordinasiyalı addımların atılmasını zəruri hesab etdiyini bildirdi.

*

Türkiyə–Azərbaycan–Gürcüstan əməkdaşlığı artıq institusional xarakter alan real prosesdir. İstanbulda reallaşan 10-cu görüş həmin əlaqələrin davamlı olduğunu, geosiyasi sınaqlara qarşı dayanıqlığını təsdiqlədi. Ankara, Bakı və Tbilisi arasında qurulan strateji ittifaq Cənubi Qafqazın təhlükəsizlik xəritəsini formalaşdıran əsas trenddir. Hər üç dövlət regional sabitliyin təmin edilməsində fərqli, lakin tamamlayıcı rollar oynayır. Türkiyə regional güc və NATO üzvü kimi hərbi-siyasi çəkiyə malikdir. Azərbaycan isə mühüm strateji mövqeyi və fəal diplomatiyası ilə regional təhlükəsizliyin əsas sütunudur. Gürcüstan isə Avropa İttifaqı və Avroatlantik məkana inteqrasiya xətti tutsa da, regiondakı strateji layihələrin və təhlükəsizlik konseptlərinin ayrılmaz hissəsidir.

Geosiyasi cəhətdən qiymətləndirdikdə, regional layihələrin həyata keçirilməsi həm iqtisadi, həm də böyük siyasi əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyənin fəal iştirakı ilə formalaşan tranzit xətləri Gürcüstanın da strateji əhəmiyyətini yüksəldir. Rəsmi Tbilisi yaxşı anlayır ki, dövlət maraqlarının qorunması və xarici siyasi təzyiqlərə tab gətirmək üçün Bakı və Ankara ilə sıx əməkdaşlıq həyati əhəmiyyət kəsb edir.

Qeyd edilən neqativ tendensiyalar sırasına həm də regional münaqişələrin alovlandırılmasına yönələn xarici siyasi cəhdlər daxildir. Bəzi qərb dairələrinin Cənubi Qafqazda sülh prosesini pozmağa, Ermənistanı silahlandırmaqla yeni qarşıdurma ocağı yaratmağa çalışması sirr deyil. Belə cəhdlər regionun daxili işlərinə müdaxilə xarakteri daşıyır və sülh quruculuğuna mane olur. Azərbaycanın və Türkiyənin xarici siyasətində isə əksinə, regional sahiblik prinsipi əsas götürülür. Regional sahiblik prinsipi bölgədəki problemlərin yalnız regional dövlətlər tərəfindən həll edilməsini nəzərdə tutur. Hakan Fidan və Ceyhun Bayramovun görüşlərində dəfələrlə vurğulanan əsas tezis ondan ibarətdir ki, Cənubi Qafqazın təhlükəsizliyi kənar güclərin subyektiv maraqlarına qurban verilməməlidir. Gürcüstanın da həmin mövqeyə yaxın olması regional sabitliyin təmini üçün əlavə zəmanət yaradır.

*

Milli təhlükəsizlik strategiyalarının qarşılıqlı əlaqələndirilməsi üçtərəfli formatın əsas məqsədlərindən sayılır. İstanbul görüşü çərçivəsində tərəflərin fərdi təhlükəsizlik qayğıları və regional təhdidlərlə bağlı apardıqları müzakirələr həmrəyliyin göstəricisidir. Hazırda Gürcüstanın daxili siyasi həyatında baş verən hadisələr və xarici siyasi təzyiqlər fonunda rəsmi Tbilisinin Bakı və Ankara tərəfindən dəstəklənməsi xüsusi əhəmiyyət daşıyır. Türkiyə və Azərbaycan Gürcüstanın suverenliyinə, ərazi bütövlüyünə hər zaman qəti dəstək nümayiş etdirdi. Gürcüstan isə müvafiq olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpasına və regional sülh təşəbbüslərinə hər zaman müsbət yanaşdı. Həmin qarşılıqlı dəstək strukturu regionda hər hansı güc boşluğunun yaranmasının qarşısını alır.

Qeyd etmək lazımdır ki, Maka Boçorişvilinin Gürcüstanın xarici işlər naziri qismində İstanbul görüşünə qatılması rəsmi Tbilisinin regional əməkdaşlığa sadiqliyini təsdiq edən vacib göstəricidir. Gürcüstanın xarici siyasətində baş verən müəyyən çalarlara baxmayaraq, regional formatlardan imtina edilməsi heç vaxt müzakirə mövzusu olmadı. Gürcüstan rəhbərliyi regional təhlükəsizlikdən məsul olan Azərbaycan və Türkiyə ilə əlaqələrin alternativsiz olduğunu dərk edir. Maka Boçorişvilinin bəyanatda regional layihələrin dəstəklənməsi, habelə qonşu dövlətlərlə təhlükəsizlik sahəsində koordinasiyanın gücləndirilməsi xüsusi yer tutdu. Beləliklə, İstanbul sammiti Gürcüstanın regional tərəfdaşlıq fəaliyyətini növbəti mərhələyə daşıdı.

Türkiyə, Azərbaycan, Gürcüstan xarici işlər nazirlərinin İstanbul görüşü Cənubi Qafqazın geosiyasi gələcəyini müəyyən edən strateji mərhələdir. Beynəlxalq və regional gərginlik fonunda bölgənin neqativ təsirlərdən uzaq qalması qeyri-realdır. Lakin Ankara, Bakı və Tbilisinin nümayiş etdirdiyi ortaq iradə, koordinasiyalı addımlar və müttəfiqlik münasibətləri regional dövlətlərin suverenliyini qorumaq üçün ən effektiv vasitədir. Bölgədə sabitliyin təmin edilməsi və xarici müdaxilələrin qarşısının alınması baxımından sözügedən format regional və beynəlxalq arenada fəal və təsirli mexanizm kimi çıxış etməkdə davam edəcək. Həmin formatın güclənməsi Cənubi Qafqazda davamlı sülh və təhlükəsizlik üçün alternativsiz təməldir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# “Fitch ratings”in ölkəmizlə bağlı nikbin gözləntiləri

*(əvvəli 1-ci səhifədə)*

Təsadüfi deyil ki, iyunun 1-də “Bakı Enerji Həftəsi”nin açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bu tendensiyanı yüksək dəyərləndirərək deyib: “Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var”.

Elə “Fitch ratings” beynəlxalq agentliyinin son hesabatında da ölkəmizlə bağlı müsbət məqamlar yer alıb. Bu günlərdə Azərbaycanın iqtisadi artımı ilə bağlı gözləntilərini açıqlayan agentlik ölkəmizin uzunmüddətli xarici valyutada emitent defolt reytinqini (IDR) “BBB-” səviyyəsində təsdiqləyib, proqnozu isə “sabit” saxlayıb. “Fitch” bunu Azərbaycanın reytinqi çox güclü xarici mövqeyi, müqayisə olunan ölkələr arasında ən aşağı dövlət borcu səviyyəsi və suveren fondun əhəmiyyətli aktivləri hesabına yüksək maliyyə çevikliyi ilə əsaslandırıb.

Azərbaycanda gedən iqtisadi inkişaf prosesini diqqətlə izləyən agentliyin proqnozuna əsasən, 2026-cı ildə ölkəmizin iqtisadi artımı 2 faiz təşkil edəcək. Qurum analitikləri bu il ölkəmizdə real ÜDM artımının 2025-ci ilin iqtisadi artım səviyyəsindən sonra nisbətən sürətlənəcəyini bildiriblər. “Fitch”in qiymətləndirməsinə görə, ehtiyatlı fiskal siyasət və kreditləşmənin nisbi artımı enerji qiymətlərinin yüksəlməsinin təsirləri ilə tarazlaşacaq. Agentliyin hesabatında neft hasilatının struktur azalmasının ortamüddətli dövrdə iqtisadi artım üçün əsas çağırışlardan biri olaraq qalacağı ilə bağlı məqam da yer alıb.

“Fitch ratings” agentliyinin açıqlamasına əsasən, 2026-cı ildə Azərbaycanın suveren valyuta ehtiyatları 93 milyard ABŞ dollarına çatacaq ki, bu da ölkənin proqnozlaşdırılan ÜDM-nin 117 faizini təşkil edəcək. Qurum analitikləri hesab edirlər ki, ehtiyatların artması Yaxın Şərqdəki gərginlik fonunda neft və qaz qiymətlərinin yüksəlməsi hesabına təmin olunacaq ki, bu da ölkənin ixrac gəlirlərinin çoxalmasına səbəb olacaq. Göstərilən aktivlərin, təxminən, 84 faizi Azərbaycan Respublikası Dövlət Neft Fondunda, qalan hissəsi isə Azərbaycan Mərkəzi Bankının beynəlxalq valyuta ehtiyatlarında cəmləşəcək.

Dövlətimizin başçısı ötən həftənin ilk günündə Azərbaycan paytaxtında keçirilmiş beynəlxalq enerji toplantısının açılışında bu vacib məqama toxunaraq deyib: “Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar, birinci növbədə, bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi. Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı”.




“Fitch” agentliyinin son açıqlamasında diqqətçəkən digər vacib məqam Azərbaycanın xalis suveren xarici aktivləri ilə bağlıdır. Qurum analitiklərinin proqnozuna əsasən, həmin aktivlər ÜDM-in 73 faizinə çatacaq ki, bu da “BBB” reytinq kateqoriyasına aid ölkələr arasında ən yüksək göstərici olacaq. Agentliyin proqnozuna görə, daha yüksək neft qiymətləri ilə idxalın cüzi artımının birləşməsi tədiyə balansının cari əməliyyatlar hesabı üzrə profisitin 2026-cı ildə ÜDM-in 9 faizinə yüksəlməsinə imkan verəcək. Xatırladaq ki, bu göstərici 2025-ci ildə 4,6 faiz səviyyəsində olub. Analitiklərin fikrincə, 2027-ci ildə neft və qaz qiymətlərinin azalacağı gözlənsə də, profisit analoji ölkələrin orta göstəricisindən yüksək olaraq qalacaq və valyuta ehtiyatlarının artmasına töhfə verməyə davam edəcək.

Konsolidə edilmiş büdcə profisitinin 2026-cı ildə ÜDM-in 5,6 faizinə yüksələcəyini proqnozlaşdıran analitiklərin fikrincə, karbohidrogen qiymətlərinin aşağı düşməsi, qeyri-neft gəlirlərinin mülayim artımı və dövlət xərclərinin nisbətən sabit qalması səbəbindən 2027-ci ildə bu göstərici azalacaq. “Fitch” onu da bildirir ki, Azərbaycan hakimiyyəti müdafiə məsələlərinə və azad edilmiş ərazilərin bərpasına prioritet verməyə davam edəcək.

Agentlik ölkənin büdcə siyasətinin təkmilləşdirilməsini də müsbət qiymətləndirir. Belə ki, 2027–2030-cu illəri əhatə edən strategiya ilkin qeyri-neft kəsirinin 2029-cu ilə qədər ÜDM-in 13 faizinə endirilməsini nəzərdə tutur. Müqayisə üçün deyək ki, bu göstərici 2025-ci ildə 18,6 faiz, 2022-ci ildə isə 22,2 faiz təşkil edib.

“Fitch”in rəyinə görə, ortamüddətli fiskal hədəflərin yenidən nəzərdən keçirilməsi imkanlarını məhdudlaşdırmağa yönəlmiş büdcə qaydalarındakı dəyişikliklər, eləcə də hökumətin ARDNF-dən dövlət büdcəsinə transfertləri mərhələli şəkildə azaltmaq niyyəti büdcə siyasətinin prosiklik xarakterini zəiflədəcək, iqtisadi kursun proqnozlaşdırıla bilməsini artıracaq və dövlətin xarici aktivlərinin daha da artmasına şərait yaradacaq.

“Fitch ratings” agentliyinin proqnozuna görə, Azərbaycanın dövlət borcu 2027-ci ildə ÜDM-in, təxminən, 21 faizi səviyyəsində qalacaq ki, bu da investisiya reytinqinə malik ölkələr arasında ən aşağı göstəricilərdən biridir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev “Bakı Enerji Həftəsi”nin açılış mərasimindəki çıxışında ötən müddətdə Azərbaycanın xarici borcunu əhəmiyyətli dərəcədə azaltmağa nail olduğunu vurğulayaraq deyib: “Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur”.

Azərbaycanla bağlı açıqlamasını nikbin notda yekunlaşdıran “Fitch ratings” agentliyi ölkəmizin investisiya səviyyəli reytinqinin qorunması üçün güclü xarici balansın və ehtiyatlı makroiqtisadi siyasətin mühüm rol oynadığını vurğulayıb.

Qısa bir xatırlatma qeyd edək ki, dünyanın “böyük üçlük” reytinq agentliklərindən biri olan “Fitch ratings” 1913-cü ildə ABŞ-da təsis edilib. Baş ofisləri Nyu-York və Londonda yerləşən qurum qlobal maliyyə bazarlarında dövlətlərin, bankların və korporasiyaların kredit qabiliyyətini qiymətləndirən nüfuzlu təşkilat kimi tanınır. Agentlik investorlara riskləri qiymətləndirməyə kömək edən müstəqil kredit reytinqləri (məsələn, uzunmüddətli emitent defoltu reytinqi - IDR), analitik tədqiqatlar və qlobal iqtisadi proqnozlar təqdim edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qlobal maliyyə bazarlarında “qırmızı fırtına”

## *“Bitcoin”in geriləməsi birjalarda çaxnaşma yaradıb*

**Kriptovalyuta dünyasının flaqmanı olan “Bitcoin”in yenidən 60 min dollar sərhədinə geriləməsi qlobal maliyyə bazarlarının da damarlarındakı gərginliyi üzə çıxardı. Hazırda investorlar təkcə kripto birjalarındakı “qırmızı” rəqəmləri deyil, həm də ABŞ-dan Avropaya qədər səhm bazarlarında yaşanan silkələnmələri böyük narahatlıqla izləyirlər.**



### Bazar niyə “qırmızılaşır”?

Maliyyə bazarlarında heç bir fırtına qəfildən qopmur. Hazırkı böhranı şərtləndirən amillər bir neçə qlobal dalğanın eyni vaxtda toqquşmasıdır. İlk olaraq, ABŞ Federal Ehtiyat Sistemi (FED) başda olmaqla, mərkəzi bankların yüksək inflyasiyanı cilovlamaq üçün faiz dərəcələrini uzun müddət yüksək saxlaması, hətta bəzi rəsmilərin yeni faiz artımlarını istisna etməməsi bazarların qanını qaraldır. Faiz artımı o deməkdir ki, pul bahalaşır. Pul bahalaşanda isə investorlar “Bitcoin” və ya texnologiya səhmləri kimi riskli aktivlərdən qaçıb, özlərini dövlət istiqrazları kimi təhlükəsiz limanlara atırlar.

Keçən il bazarları göylərə qaldıran əsas amil “Spot Bitcoin ETF”ləri (birja fondları) vasitəsilə institusional pulların kriptoya axması idi. Lakin son həftələrdə bu fondlardan rekord həcmdə milyardlarla dollar geri çəkilir. Yəni maliyyə nəhəngləri pullarını geri alanda bazarın suyu çəkilir. Üstəlik, kriptovalyutaların qarşısında çox güclü bir rəqib var: Süni intellekt səhmləri. İnvestorlar kapitalın bir hissəsini kriptodan çıxarıb sürətlə böyüyən və real gəlir gətirən süni intellekt nəhənglərinin səhmlərinə yönəldirlər.

### İri səhmdarların cəsarətli addımı

Böyük kapital sahibləri  və nüfuzlu investisiya bankları riyazi ehtimal hesabatları ilə hərəkət edirlər. Onların kütləvi satışlar etməsinin arxasında konkret strateji səbəblər var. Xatırladaq ki, böyük oyunçular “Bitcoin” 100 min dolları keçən dövrlərdə böyük mənfəət əldə etmişdilər. İndi qlobal iqtisadiyyatda qarışıqlıq olan kimi həmin mənfəəti nağdlaşdırmaq və təhlükəni minimuma endirmək istəyirlər.

Bundan əlavə, iri səhmdarlar çox vaxt “marja ticarəti” (borc pulla böyük mövqelər açmaq) edirlər. Bazar bir az düşən kimi, borclarını bağlamaq üçün məcburi satışlar (likvidasiya) etməli olurlar. Bu da zəncirvari reaksiya yaradır. Yəni bir nəhəng investorlardan biri öz hissələrini satır, qiymət düşür, digərləri də avtomatik satmalı olur və fırtına böyüyür. Hətta bəzi dövlət fondlarının da rəqəmsal cüzdanlarından kütləvi “Bitcoin” satışları etməsi kiçik investorlar arasında panikanı daha da alovlandırır.

### Bəs siyasi-hərbi qarşıdurmalar?

Bəli, həm də birbaşa və həlledici təsiri var. Necə deyərlər, iqtisadiyyat siyasətin və geosiyasətin əsiridir. Dünyanın müxtəlif nöqtələrində alovlanan münaqişələr maliyyə bazarlarını iki fərqli kanalla vurur. Bunun birincisi, şübhəsiz, energetika sahəsidir. Yaxın Şərqdə xüsusilə İran və İsrail arasındakı qarşılıqlı raket zərbələri və hərbi gərginlik birbaşa olaraq xam neft qiymətlərini yuxarı qaldırır. Neftin bahalaşması isə qlobal miqyasda istehsal və nəqliyyat xərclərini artırır. Nəticədə inflyasiya yenidən baş qaldırır və Mərkəzi banklar faizləri düşürə bilmir. Yəni Yaxın Şərqdə atılan hər bir raket, dolayısı ilə “Bitcoin”in və texnologiya səhmlərinin belinə dəyən bir zərbədir.

Maliyyə bazarları qeyri-müəyyənliyi sevmir. Rusiya və Ukrayna arasındakı müharibənin uzanması, regional nüvə təhdidləri və qlobal sanksiyalar investorların inamını sarsıdır. İqtisadiyyatda buna **“Qara qu quşu” (gözlənilməz, lakin dağıdıcı təsiri olan hadisə)** qorxusu deyilir. Belə gərgin və hər an hər şeyin dəyişə biləcəyi hərbi şəraitdə heç bir böyük fond rəhbəri milyardlarla dolları kripto kimi “uçub-qaçan” aktivlərdə saxlamaq riskinə girmir. Pulu qorumaq, pul qazanmaqdan daha önəmli hala gəlir.

Bir daha xatırladaq ki, “Bitcoin” qlobal texnologiya səhmlərindəki satış dalğasının dərinləşməsi və müxtəlif aktiv siniflərində riskli mövqelərin ləğv edilməsi ilə cümə günü 16 ayın ən aşağı səviyyəsini görüb Bu səviyyə, Donald Trampın kriptovalyutaları dəstəkləməsini seçki kampaniyasında dilə gətirdiyi və ABŞ prezident seçkilərini qazanmasından bir ay əvvəlki dövr olan 2024-cü ilin oktyabrından bəri ən zəif səviyyədir. Ether isə sessiya 1751,94 dollarla 10 ayın ən aşağı səviyyəsinə gerilədikdən sonra 2,4 faiz artımla 1927 dollara yüksəlib.

Qlobal kriptovalyuta bazarının ümumi dəyəri oktyabrın əvvəlində qeydə alınan 4,379 trilyon dollarlıq ən yüksək səviyyədən təxminən 2 trilyon dollar azalıb. Bunun 1 trilyon dollardan çoxu yalnız son bir ayda silinib.

Xülasə, bu gün “Bitcoin”in 60 min dollara geriləməsi və səhm bazarlarının titrəməsi qlobal güc balanslarının, hərbi qarşıdurmaların və mərkəzi bankların monetar siyasətlərinin eyni nöqtədə kəsişməsinin nəticəsidir. Dünya iqtisadiyyatı böyük bir sınaqdan keçir və bu gərginliyin nə vaxt bitəcəyi iqtisadi göstəricilərdən daha çox, diplomatik və hərbi masalarda qəbul ediləcək qərarlardan asılı olacaq.

***Nurlan ABDALOV***
***XQ***

# 10 KOB subyekti də “startap”çı oldu

**“Startap” şəhadətnaməsi almaq üçün KOB subyektlərindən İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) daha 14 müraciət daxil olub. Müraciətlərə “Startap” şəhadətnaməsinin verilməsi üzrə Ekspertlər Şurasının iclasında baxılıb və onlardan 10-na müvafiq sənədin verilməsi barədə qərar qəbul edilib. Bununla da “Startap” şəhadətnaməsi almış KOB subyektlərinin sayı 282-yə çatıb.**



“Startap” şəhadətnamələri “İşhesabı” MMC-nin bulud əsaslı ERP (müəssisə resurslarının idarəetmə sistemi) platforması, “Bonfi” MMC-nin rəqəmsal imtiyazlar həlli, “Qalan” MMC-nin məktəblilər üçün riyaziyyat təmayüllü onlayn təhsil platforması, “Splus az” MMC-nin ağıllı bina idarəetmə və sakinlərə xidmət platforması, “Vexvon” MMC-nin süni intellekt əsaslı müştəri kommunikasiya və satış avtomatlaşdırma platforması, “Anacan” MMC-nin qadınlar üçün rəqəmsal bələdçi, “Chevvick Solutions” MMC-nin mobil ödəniş platforması, “Too Far Logistics and Consulting” MMC-nin kommersiya təşkilatları arasında müqavilə münasibətlərinin elektron idarəedilməsi, imzalanması və arxivləşməsi platforması, “S2 Studio” MMC-nin mobil restoran rezervasiya platforması, “Viralix” MMC-nin süni intellekt əsaslı rəqəmsal marketinq, dizayn və reklam idarəetmə platforması layihələri üçün təqdim edilib.

“Startap” şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edir.

Layihələri inkişaf mərhələsində olan mikro və kiçik sahibkarlıq subyektləri “Startap” şəhadətnaməsi üçün KOBİA-ya müraciət edə bilərlər.

# Neft şirkətinin “yaşıl” ödənişi

**2026-cı il iyunun 8-də Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) “yaşıl” təyinatlı istiqrazları üzrə sayca 5-ci faiz ödənişi həyata keçirilib. Bu barədə “SOCAR Capital”dan məlumat verilib.**




Bildirilib ki, növbəti kupon ödənişi çərçivəsində istiqraz sahiblərinin hesablarına, ümumilikdə, 3 milyon ABŞ dolları məbləğində vəsait köçürülüb. Bununla da, SOCAR-ın “yaşıl” istiqrazları üzrə investorlara ödənilən ümumi gəlir 15 milyon dollara çatıb.

Xatırladaq ki, SOCAR-ın “yaşıl” təyinatlı istiqrazları 2025-ci il yanvarın 15-də ölkəmizin “yaşıl” enerji sahəsində həyata keçirdiyi strateji təşəbbüslərə töhfə vermək məqsədilə emissiya olunub. İllik 6 faiz gəlirlilik təqdim edən bu istiqrazlar 5 illik müddətə buraxılıb və investorlar tərəfindən böyük maraqla qarşılanıb. Ötən il martın 7-dən etibarən Bakı Fond Birjasında ticarəti başlanan SOCAR-ın “yaşıl” istiqrazları daxili kapital bazarında fəallığın artmasına mühüm töhfə verib. Təkcə onu qeyd etmək kifayətdir ki, indiyədək birjada həmin istiqrazlar üzrə 35,5 milyon dollardan artıq məbləğdə 512 əqd bağlanıb.

“ABB İnvest” investisiya şirkətinin marketmeykeri olduğu SOCAR-ın “yaşıl” təyinatlı istiqrazları bütün vergilərdən azaddır. Kupon ödənişləri hər 3 aydan bir həyata keçirilir və istiqrazlar müddətin sonunadək sahiblərinə, ümumilikdə, 60 milyon dollar qazandıracaq. Ümumilikdə, SOCAR-ın hazırda tədavüldə olan istiqrazları ilə Bakı Fond Birjasında aparılan ticarət həcmi 114 milyon dollar təşkil edib. Bağlanmış əqdlərin ümumi sayı isə 1726-ya çatıb ki, bu da birjada korporativ istiqrazlar üzrə bağlanmış əqdlərin 32,4 faizini təşkil edir.

Qeyd edək ki, istiqrazların ilk buraxılışından–2016-cı ildən bu günədək SOCAR tərəfindən vətəndaşlara və investorlara, ümumilikdə, 60 milyon 250 min ABŞ dolları məbləğində faiz ödənişi edilib. SOCAR istiqrazları ilə bağlı rəsmi məlumatları yalnız *1999 çağrı mərkəzi, socarcapital.az, socaristiqraz.az veb-saytları, 1 və 5 saylı “ASAN xidmət” mərkəzləri, eləcə də ölkəmizdə rəsmi qeydiyyatdan keçmiş investisiya şirkətləri vasitəsilə əldə etmək mümkündür.

# Sənaye zonalarına yatırımlar

**Cari ilin ilk rübündə İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye zonalarına 158,7 milyon manat investisiya qoyulub. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,2 dəfə çoxdur.**



Qeyd edək ki, ölkəmizdə fəaliyyət göstərən sənaye zonalarında sahibkarlar üçün əlverişli biznes və investisiya mühiti formalaşdırılıb. İnvestorların fəaliyyətinin təşviqi məqsədilə sənaye parklarının rezidentlərinə qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə mühüm vergi və gömrük güzəştləri tətbiq olunur. Rezidentlər əmlak, torpaq və mənfəət vergilərindən azad edilir, həmçinin istehsal məqsədilə idxal olunan texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə 10 il müddətində ƏDV və gömrük rüsumu tətbiq edilmir. Bu güzəştlər isə investorların xərclərinin optimallaşdırılmasına, istehsal imkanlarının genişləndirilməsinə və yeni investisiyaların cəlbinə əlavə stimul yaradır.

***XQ***

# Azərbaycan kəndi yeni yüksəlişin astanasında

## Torpaqda rəqəmsal keçidin yol xəritəsi

***2026–2030-cu illərdə kənd təsərrüfatında dayanıqlı inkişafın gerçəkləşdirilməsi, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsi və fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsi kimi prioritetləri nəzərdə tutan yeni Dövlət Proqramının redaksiyamızda müzakirəsinə həsr olunan dəyirmi masada qonaqlar Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqat Mərkəzinin direktor müavini, iqtisad elmləri üzrə fəlsəfə doktoru Namiq Şalbuzov, həmin mərkəzin baş mütəxəssisi Əfsanə Heydərova, İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisad elmləri üzrə fəlsəfə doktoru Eyyub Kərimli və Dövlət İdarəçilik Akademiyasının dosenti Elşan Əhmədov idilər.***

***“Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov qonaqları salamlayaraq dünyada əhalinin sayının artması, iqlim dəyişiklikləri, urbanizasiya proseslərinin sürətlənməsi fonunda ölkəmizdə də aqrar problemlərin həllinə həssaslıqla yanaşıldığını vurğuladı, kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi, rəqəmsal transformasiyanın inkişaf etdirilməsi, iqlimə uyğun texnologiyaların tətbiqinə mühüm önəm verilməsi kimi prioritetlərin qarşıya önəmli vəzifə kimi qoyulduğunu bildirdi.***

***Prezident İlham Əliyevin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiqlənən “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrası ilə əlaqədar hazırlanan və kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı, eləcə də emalı sahələrinin inkişafı məsələlərini əhatə edən yeni Dövlət Proqramının bu baxımdan mühüm önəm daşıdığını diqqətə çatdıran Əflatun Amaşov keçirilən “dəyirmi masa”nın da həmin sənəddə öz ifadəsini tapan prioritetlər barədə oxucuları məlumatlandırmaq məqsədi daşıdığını dedi.***

***Baş redaktor müavini Tahir Aydınoğlu isə qonaqları işgüzar, səmərəli müzakirəyə dəvət edərək qəzetimizin səhifələrində ərzaq təhlükəsizliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən layihələrlə bağlı vaxtaşırı yazılar dərc edildiyini, fermerlərin maliyyə resurslarına və müasir texnologiyalara çıxışı imkanlarının artırılması, eləcə də kənd yerlərində məşğulluq imkanlarının genişləndirilməsi mövzularında materialların hazırlanmasına xüsusi diqqət yetirildiyini, bunun indi də davam etdiyini bildirdi.***



**Namiq Şalbuzov:**

– Prezident İlham Əliyevin sədrliyi ilə mayın 25-də keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş geniş müşavirədə aqrar sektorda narahatlıq doğuran problemlərin aradan qaldırılması istiqamətində ətraflı bəhs edildi. Eyni zamanda, “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı” ilə ölkənin aqrar sektorunda yeni transformasiya dövrünün başlandığı və yeni strategiyanın resurs səmərəliliyi, yüksək əlavə dəyər, bazar inteqrasiyası və texnologiyaya əsaslanan 4 prioritet üzərində qurulduğu vurğulandı.

Dövlət başçısı çıxışında qeyd etdi ki, kənd təsərrüfatı, sadəcə, iqtisadi fəaliyyət deyil, eyni zamanda, ərzaq təhlükəsizliyi, məşğulluq, regionların inkişafı və ixrac potensialının artırılması istiqamətlərində çoxfunksiyalı sahədir. Ötən il kənd təsərrüfatı istehsalında ümumi daxili məhsulun 5,9 faizə, qeyri-neft Ümumi Daxili Məhsulunun isə 8,3 faizə yüksəlməsi bu sahənin inkişafının diqqətdə saxlanılmasını ifadə edən rəqəmlərdir. Regionlarda məşğulluğun demək olar ki, 50 faizinin məhz bu sektorda təmin olunması isə aqrar layihələrin uğurlu icrasının məntiqi nəticəsidir.

Ölkə rəhbəri, eyni zamanda, son illərdə kənd təsərrüfatı istehsalında özünü büruzə verən durğunluqdan narahatlığını diqqətə çatdıraraq, yeni, konkret və qısamüddətli proqramın qəbul edilməsini isə bu sahədə hökm sürən çətinliklərin aradan qaldırılması məqsədi daşıdığını xatırlatdı. Dövlət başçısı bununla yanaşı, dünyada gedən mənfi meyillərin – müharibələr, nəqliyyat zəncirlərinin qırılması, enerji böhranı və iqlim dəyişikliyi kimi amillərin də istehsala təsirsiz ötüşmədiyini xatırlatdı.

Prezident İlham Əliyev müşavirədə genişmiqyaslı urbanizasiya, yəni kəndlərdən şəhərlərə axın prosesinin dayandırılması və əksinə, şəhərlərdən kəndlərə qayıdışın təşviqi ilə bağlı strateji hədəfləri də açıqladı. Eyni zamanda, kəndlə şəhər arasındakı fərqlərin azaldılması, sosial infrastrukturun inkişafı və kənd təsərrüfatına yeni təkan verilməsi kimi məsələlərin prioritet vəzifələr sırasında yer aldığını qeyd etdi. Həmçinin son 20 il ərzində regionlarda genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirildiyini, qazlaşdırma səviyyəsinin 96 faizə çatdırıldığını, elektrik təchizatında nəzərəçarpan problemlərin aradan qaldırıldığını, minlərlə kilometr yol çəkildiyini, Taxtakörpü, Şəmkirçay, Göytəpə kimi böyük su anbarlarının inşa edildiyini, habelə kanalların yenidən qurulduğunu bildirdi.

Dövlət başçısı bu sadalananlarla bərabər, hazırda Qarabağ və Şərqi Zəngəzurda 25 faiz su ehtiyatının formalaşdığını, Köndələnçay, Xaçınçay, Suqovuşan, Sərsəng, Zabuxçay su anbarlarının yenidən qurulduğunu, Bərgüşad və Həkəri su anbarlarının tikintisinin davam etdirildiyini diqqətə çatdırdı. Ölkə rəhbəri, həmçinin Şirvan kanalının betonlaşdırılmasının gələn il başa çatdırılacağını və Qarabağ kanalının bərpasından sonra 200-300 min hektar torpağa su ötürüləcəyinin mümkünlüyünü də xatırlatdı.



**Eyyub Kərimli:**

– Respublika iqtisadiyyatının şaxələndirilməsi siyasətində kənd təsərrüfatı xüsusi yer tutur. Son illərdə ölkədə qeyri-neft sənayesinin inkişafının prioritet istiqamətlərindən biri kimi aqrar sahəyə göstərilən dövlət dəstəyi bu sektorda mühüm keyfiyyət dəyişikliklərinə səbəb olub. Məhz həyata keçirilən məqsədyönlü islahatlar nəticəsində kənd təsərrüfatı istehsalında artım təmin edilib, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində ciddi nailiyyətlər əldə olunub, ixrac imkanları genişlənib və kənd yerlərində məşğulluq səviyyəsi yüksəlib.

Bu baxımdan burada barəsində söhbət açılan Dövlət Proqramı aqrar siyasətin növbəti mərhələsini müəyyənləşdirən mühüm strateji sənəd kimi xüsusi əhəmiyyət daşıyır. Yeni proqram yalnız istehsalın artırılmasını deyil, həm də keyfiyyətli məhsul istehsalını, rəqabət qabiliyyətinin yüksəldilməsini, emal sənayesinin inkişafını və ixrac potensialının genişləndirilməsini hədəfləyir.

Qeyd edim ki, son onillikdə kənd təsərrüfatında genişmiqyaslı institusional və struktur islahatlar həyata keçirib. Aqrar subsidiya sisteminin elektronlaşdırılması, kənd təsərrüfatı texnikasının lizinq yolu ilə fermerlərə təqdim olunması, güzəştli kreditlərin verilməsi, suvarma sistemlərinin təkmilləşdirilməsi və aqrar xidmətlərin rəqəmsallaşdırılması bu islahatların əsas istiqamətlərini təşkil edib.

Xüsusilə Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin fəaliyyətə başlaması fermerlərlə dövlət arasında münasibətlərin daha şəffaf və operativ qurulmasına imkan yaradıb. Subsidiya mexanizmlərinin təkmilləşdirilməsi nəticəsində dövlət dəstəyinin ünvanlılığı artıb, fermerlərin istehsal imkanları genişlənib.

Eyni zamanda, aqroparkların yaradılması aqrar istehsalın sənaye əsasları üzərində qurulmasına təkan verib. Müasir texnologiyaların tətbiqi, innovativ yanaşmaların təşviqi və iri təsərrüfatların formalaşdırılması məhsuldarlığın yüksəlməsinə müsbət təsir göstərib. Ölkənin müxtəlif bölgələrində yaradılan aqroparklar bu gün həm daxili bazarın təminatında, həm də ixrac potensialının artırılmasında mühüm rol oynayır.



“Xalq qəzeti” redaksiyasında yeni Dövlət Proqramı ilə bağlı dəyirmi masa müzakirəsi



**Əfsanə Heydərova:**

– Ölkə Prezidenti müşavirədə bəzi məhsullarda özünütəminat səviyyəsinin qəbuledilməz dərəcədə aşağı olduğunu da bildirərək, xüsusilə buğda istehsalında bu göstəricinin 55 faiz, bitki yağlarında 52 faiz və kərə yağında 62 faiz olması faktının ölkənin ərzaq təhlükəsizliyi üçün ciddi risklər yaratdığını dedi. Eyni zamanda, respublikada daxili istehsalın 1 milyon 573 min ton, idxalın isə 1 milyon 267 min ton təşkil etdiyini nəzərə alaraq idxalı azaltmaq, yerli istehsalı gücləndirmək və investorları bu istiqamətlərə yönəltmək kimi məqsədlərin Dövlət Proqramında qarşıya əsas vəzifələr kimi qoyulduğunu söylədi.

Özünütəminat səviyyəsindən danışarkən, bununla bağlı müşavirədə səsləndirilən bir sıra göstəriciləri də xatırlatmaq istərdim. Belə ki, hazırda respublikada tərəvəz üzrə 107 faiz, meyvə-giləmeyvə üzrə 140 faiz, kartof üzrə 91 faiz özünütəminat səviyyəsi mövcuddur. Tərəvəz ixracı 214 min ton, meyvə ixracı, təqribən, 600 min tona yaxındır. Fındıqçılıq üzrə Azərbaycan dünyada dördüncü, xurma ixracında ikinci, şaftalı və nektar ixracında doqquzuncu sıradadır. Çiyələk, albalı, pomidor, pambıq lifi kimi məhsullarda da ölkəmiz dünya ixrac siyahılarında ilk iyirmilikdə qərarlaşır.

Qeyd edim ki, dövlət başçısı müşavirədə vurğuladığı bu göstəriciləri həm yerli, həm də xarici investorlar üçün siqnal və mesaj kimi dəyərləndirdi. Eyni zamanda, buğda istehsalında 55 faizin qəbuledilməz olduğunu, buğda idxalının azaldılmasının vacibliyini də vurğuladı. Dövlət başçısı bununla belə digər dənlilər üzrə vəziyyətin prinsip etibarilə müsbət olduğunu, əhalinin bu sahədə təminatının 95 faiz səviyyəsinə yüksəldiyini diqqətə çatdırdı.

Yeri gəlmişkən, bu məqamda müşavirədə idxal və ixracla bağlı səsləndirilən bəzi göstəriciləri də burada bir daha diqqətə yönəltməyi zəruri sayıram. Belə ki, ölkə rəhbərinin vurğuladığı kimi, kartof istehsalının artırılması üçün respublikada əlverişli imkan olduğundan həm idxalı tamamilə aradan qaldırmaq, həm özümüzü təmin etmək, eyni zamanda, daha böyük həcmdə ixrac reallaşdırmaq mümkündür.

Bundan başqa, hazırda əhalinin mal əti ilə təminatının 84 faiz, quş əti ilə 82 faiz, qoyun-keçi əti ilə 94 faiz, balıq və balıq məhsulları ilə 81 faiz ödənilməsi, yumurta istehsalında 2 milyard 340 min ədəd göstəricinin qeydə alınması, bu növ məhsulun kənardan gətirilməməsi, ixracın isə 90 milyon ədədə çatdırılması diqqətəlayiq haldır. Eləcə də özünütəminatın çayda 86 faiz, şəkərdə 102 faiz təşkil etməsi bu istehsal sahələrinin inkişafı ilə bağlı qarşıya qoyulan vəzifələrin uğurla icrasının ifadəsidir. Amma bitki yağlarında təminatın 52 faiz, kərə yağında 62 faiz qeydə alınması təbii ki, narahatlıq doğurur və investorların bu gün idxal edilən məhsulların istehsalına mühüm töhfə verməsi ilə bağlı açıq mesaj kimi diqqət çəkir.



**Elşan Əhmədov:**

– Müasir dövrdə qlobal iqtisadiyyatda baş verən yeniliklər, iqlim dəyişiklikləri, ərzaq bazarlarında qeyri-sabitlik və geosiyasi risklər dövlətlərin ərzaq təhlükəsizliyi məsələsini milli təhlükəsizlik səviyyəsinə yüksəldib. Bunun nəticəsidir ki, ərzaq təminatı iqtisadi məsələ olmaqla bərabər, həm də sosial sabitliyin və dövlət təhlükəsizliyinin vacib elementinə çevrilib.

Bu baxımdan Prezident İlham Əliyevin təsdiqlədiyi sözügedən Dövlət Proqramı Azərbaycanın aqrar sektorunun yeni inkişaf mərhələsinə keçidini gerçəkləşdirən mühüm strateji sənəd kimi qiymətləndirilə bilər. Proqramın əsas məqsədi kənd təsərrüfatında məhsuldarlığın artırılması, emal sənayesinin inkişaf etdirilməsi, balıqçılıq və akvakultura sektorunun genişləndirilməsi, həmçinin aqrar sahədə yüksək əlavə dəyər yaradan istehsal modelinin formalaşdırılmasıdır.

Əgər əvvəllər əsas diqqət kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılmasına yönəldilirdisə, yeni proqram artıq daha müasir yanaşma təqdim edir. Burada əsas hədəf yalnız istehsal deyil, eyni zamanda, istehsal-emal-logistika-ixrac zəncirinin bütöv şəkildə inkişaf etdirilməsidir.

Makroiqtisadi baxımdan proqramın ən mühüm əhəmiyyəti qeyri-neft sektorunun inkişafına verdiyi töhfədir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir. Aqrar sektor isə regionlarda məşğulluğun təmin olunmasında və qeyri-neft ixracının artırılmasında xüsusi rol oynayır. Digər mühüm istiqamət ərzaq təhlükəsizliyinin gücləndirilməsidir. Yerli istehsalın genişləndirilməsi ölkənin xarici bazarlardan asılılığını azaldır, qiymət şoklarının təsirini minimuma endirir və əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatını yaxşılaşdırır.

Bu məsələdə strateji istiqamətlərdən biri də balıqçılıq və akvakultura sahəsinin inkişafıdır. Çünki Azərbaycan zəngin su ehtiyatlarına və Xəzər dənizinə çıxış imkanlarına malikdir. Buna baxmayaraq, uzun illər ərzində bu potensialdan tam istifadə olunmamışdır. Yeni proqram məhz bu boşluğu aradan qaldırmağa, müasir akvakultura təsərrüfatlarının yaradılmasına və balıq məhsullarının istehsalının artırılmasına yönəlmişdir.

Balıqçılıq sektorunun inkişafı həm ərzaq təhlükəsizliyinə, həm də ixrac potensialının genişləndirilməsinə xidmət edir. Eyni zamanda, bu sahə regionlarda yeni iş yerlərinin yaradılması üçün əlavə imkanlar açır. Başqa bir vacib istiqamət isə kənd təsərrüfatında innovasiya və rəqəmsallaşmanın tətbiqidir. İnkişaf etmiş ölkələrinin təcrübəsi də göstərir ki, məhsuldarlığın artırılması, ilk növbədə, müasir texnologiyaların tətbiqi ilə bağlıdır. “Ağıllı” suvarma sistemləri, rəqəmsal monitorinq, peyk müşahidələri və süni intellekt əsaslı idarəetmə sistemləri aqrar sektorun səmərəliliyini əhəmiyyətli dərəcədə yüksəldə bilər.

**Namiq Şalbuzov:**

– Xatırladım ki, Yeni Dövlət Proqramında 2026-2030-cu illərdə aqrar sahədə dayanıqlı inkişafın reallaşdırılması, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin gerçəkləşdirilməsi, dəyər zəncirlərinin inkişaf etdirilməsi, fermerlərin müasir aqrar xidmətlərə çıxışına və balıqçılıq sahəsinin inkişafına nail olunması qarşıya önəmli vəzifə kimi qoyulub. Proqramda nəzərdə tutulan tədbirlər fundamental və dəstəkləyici bloklara bölünüb. Sənəddə planlaşdırılan layihələrin icrası nəticəsində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılan Ümumi Daxili Məhsulun 2026-2030-cu illər üzrə orta illik artımın ən azı 2 faiz təşkil edəcəyi, kənd təsərrüfatı, balıqçılıq və emal məhsullarının ixracı həcminin isə orta illik 6 faiz artacağı proqnozlaşdırılıb.

Buğda və pambıq istehsalında əsas hədəf kimi ixtisaslaşmış rayonlarda hər hektardan orta məhsuldarlığı 50 sentnerə çatdırmaq, buğda istehsalında, təqribən, 20 faiz artıma nail olmaq, pambıq emalı məhsullarının həcmini isə 4 dəfəyə qədər artırmaq aqrar sektorun əsas prioritet məqsədləri olaraq nəzərdə tutulub.

Dövlət Proqramının fundamental layihələrindən biri kimi suvarmanın təkmilləşdirilməsi, resurslardan səmərəli istifadə edilməsi və məhsuldarlığın artmasına şərait yaradan müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi əsas hədəflər sırasında yer alır. Belə ki, sözügedən sənədin uğurlu icrası nəticəsində müasir suvarma sistemləri tətbiq olunan sahələrin indiki 130 min hektardan 2030-cu ildə 300 min hektara çatdırılması proqnozlaşdırılır.

Eyni zamanda, Dövlət Proqramına əsasən, torpaq və su resurslarından səmərəli istifadənin təmin edilməsi, fermerlərin gəlirlərinin artırılması baxımından Qəbələ və Salyan rayonlarında, təqribən, 20 min hektar sahədə torpaq konsolidasiyası pilot layihəsinin həyata keçirilməsi planlaşdırılır. Bundan başqa, konsolidasiya çərçivəsində təsərrüfatdaxili suvarma şəbəkəsinin qurulması, parçalanmış torpaq parsellərinin birləşdirilməsi, kadastr xəritələrinin yenilənməsi və yeni su idarətmə modelinin tətbiqi də nəzərdə tutulur. Torpaq analiz sisteminin müasirləşdirilməsi, ölkə üzrə əkin sahələrinin aqrokimyəvi göstəricilər əsasında xəritələşdirilməsi, 11 dövlət laboratoriyasının texniki müasirləşdirilməsi də proqramda yer alır.

**Eyyub Kərimli:**

– Yeni Dövlət Proqramının önəmindən danışarkən, ilk növbədə, keyfiyyət amili ön plana çıxır. Başqa sözlə, bu sənədin əsas fərqləndirici xüsusiyyətlərindən biri məhsuldarlıq göstəricilərinin artırılması ilə yanaşı, keyfiyyət prinsipinə xüsusi diqqət yetirməsidir.

Müasir dünya bazarlarında bu gün təkcə çox məhsul istehsal etmək kifayət etmir. İstehlakçılar, eyni zamanda, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli və beynəlxalq standartlara uyğun məhsullara üstünlük verirlər. Bu səbəbdən yeni proqram çərçivəsində keyfiyyət standartlarının tətbiqi, sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğun istehsal proseslərinin təşviqi xüsusi əhəmiyyət daşıyır. Bu yanaşma Azərbaycanın aqrar məhsullarının xarici bazarlarda rəqabət qabiliyyətini artırmaqla yanaşı, istehsalçıların gəlirlərinin yüksəlməsinə də xidmət edəcək. Çünki yüksəkkeyfiyyətli məhsullar daha sərfəli qiymətlərlə satılır və ixrac bazarlarında daha davamlı mövqe qazanır.

Sözügedən Dövlət Proqramında bazar araşdırmaları ilə fermerlərin fəaliyyətini düzgün istiqamətləndirmək kimi məsələyə də xüsusi yer verilir. Ümumiyyətlə, bazarlarda sistemli araşdırmaların aparılması və müxtəlif məhsullara olan tələbatın mütəmadi öyrənilməsi zəruriliyinə diqqət yetirilməsi heç də təsadüfi hal sayılmır. Çünki uzun illər aqrar sektorda müşahidə olunan əsas problemlərdən biri bəzi məhsulların həddindən artıq istehsal edilməsi, digərlərinin isə çatışmazlığı ilə bağlı olub. Nəticədə bazarda qiymət dəyişkənliyi yaranıb, fermerlər bəzən məhsullarını lazımi qiymətə sata bilməyiblər.

*(ardı 9-cu səhifədə)*

# Azərbaycan kəndi yeni yüksəlişin astanasında

*(əvvəli 8-ci səhifədə)*

Bu baxımdan yeni Dövlət Proqramı çərçivəsində bazar məlumatlarının fermerlərə operativ çatdırılması, istehlak tendensiyalarının öyrənilməsi və istehsal planlaşdırılmasının elmi əsaslar üzərində qurulması aqrar istehsalın daha səmərəli təşkilinə imkan verəcək. Bu yanaşma həm daxili bazarın sabitliyinə, həm də istehsalçıların gəlirlərinin qorunmasına xidmət edəcək.

Aqrar sahənin inkişafında fermerlərin və istehsalçıların birgə fəaliyyətinin təşkili mühüm əhəmiyyət daşıyır. Bu baxımdan müxtəlif kənd təsərrüfatı sahələri üzrə assosiasiyaların yaradılması ilə bağlı təşəbbüslər xüsusi diqqət çəkir. Beynəlxalq təcrübə göstərir ki, fermer birlikləri və sahəvi assosiasiyalar istehsalçıların maraqlarının müdafiəsində, bazarlara çıxış imkanlarının genişləndirilməsində və innovasiyaların tətbiqində mühüm rol oynayır. Belə qurumlar vasitəsilə fermerlər müasir texnologiyalar, yeni sortlar, marketinq strategiyaları və ixrac prosedurları barədə daha geniş məlumat əldə edə bilirlər. Eyni zamanda, assosiasiyalar dövlət və özəl sektor arasında əlaqələndirici mexanizm funksiyasını yerinə yetirirlər.

**Əfsanə Heydərova:**

– Dövlət Proqramında nəzərdə tutulmuş əsas tədbirlərdən biri də yüksək əlavə dəyər yaratması, ixrac potensialı və məşğulluq imkanları nəzərə alınmaqla intensiv və superintensiv meyvə bağlarının sahəsinin 20 min hektar artırılması hədəflənir. Eyni zamanda, ixrac potensialı və məşğulluq imkanları nəzərə alınmaqla istixana sahələrinin 2030-cu ilədək 2 min hektara çatdırılması nəzərdə tutulur. Cəbrayıl rayonunda tərəvəzçilik, meyvəçilik və gülçülüyü birləşdirən “Şərqi Zəngəzur pilot istixana aqroparkı”nın da yaradılması da planlaşdırılır.

Bundan savayı, Dövlət Proqramına əsaslanılmaqla kiçik ailə təsərrüfat şərabçılığının inkişafı istiqamətində butik tipli şərabçılıq təsərrüfatlarının sayı 20-yə çatdırılacaq, texniki sort üzüm bağları üçün investisiya yönümlü subsidiyalar tətbiq olunacaq. Taxıl siloların həcminin 150 min kubmetr artırılması, soyuducu anbarların həcminin isə 500 min tona çatdırılması planlaşdırılır. Logistika infrastrukturunun inkişafı ilə bağlı əlavə 100 min tonluq soyuducu anbar infrastrukturunun yaradılması, 150 min tonluq yeni müasir taxıl silolarının qurulmasının dəstəklənməsi də hədəflənir.

Sənəddə yuxarıda diqqətə çatdırdığım məsələlərlə yanaşı, intensiv iribuynuzlu heyvandarlıq təsərrüfatlarının genişləndirilməsi hesabına cins heyvanların ümumi sürüdə payının 2,5 faizdən 10 faizə çatdırılması, süd istehsalının 10 faiz, ət istehsalının 20 faiz artırılması və mal əti ilə tam təminata nail olunması da qarşıya mühüm vəzifələr kimi qoyulur. Yeni süd və dəri toplama məntəqələri, yem istehsalı texnikası ilə təminatın gücləndiriləcəyi də əsas hədəflər sırasında yer alır.

Yarım intensiv qoyunçuluq təsərrüfatlarının yaradılması, yun toplama məntəqələri, örüş və otlaq sahələrinin bərpası nəzərdə tutulur. Quşçuluqda istehsalın 30 faiz artırılması, quş əti ilə özünütəminetmənin yaxşılaşdırılması, yeni damlar və kəsimxanaların yaradılması hədəflənir. Quşçuluq müəssisələrinin kommunal xidmətlərə qoşulma xərclərinin subsidiyalaşdırılması planlaşdırılır. Eyni zamanda, proqramda nəzərdə tutulan dövrdə quş əti istehsalının 82 faizdən 100 faizə çatdırılması da əsas məqsədlərdən biri olaraq diqqət mərkəzində saxlanılır.

Onu da deyim ki, yeni Dövlət Proqramına əsaslanılaraq, balıqçılıq və akvakulturanın inkişafı istiqamətində istehsal 7,7 min tona çatdırılacaq. Ölkədə ilk dəfə olaraq balıqçılıq sahəsində subsidiya və dövlət güzəştlərinin tətbiqinə başlanılacaq, balıqartırma zavodları inşa ediləcək. Göygöl rayonunun Çaykənd balıqartırma təsərrüfatının yenidən qurulacaq, Ağdərə rayonunda yeni balıqartırma təsərrüfatı yaradılacaq. Dövlət Proqramında qanunvericiliyin təkmilləşdirilməsi və sektora dəstək mexanizmlərinin formalaşdırılması prioritet tədbirlər sırasında yer alıb. Sənəddə, eyni zamanda, balıqçılıq məhsulları üzrə istehsal və ixrac imkanlarının genişləndirilməsi, damazlıq işinin gücləndirilməsi, balıq ovunun dayanıqlı əsaslarla təşkili, eləcə də izlənməsi proqramda nəzərdə tutulub.

**Elşan Əhmədov:**

– Yeni Dövlət Proqramının önəmindən bəhs edərkən, bir məsələni xüsusi vurğulamaq istərdim. Sənəddə bu gün aqroparklarda və iri təsərrüfatlarda peyk müşahidələri, coğrafi informasiya sistemləri, pilotsuz uçuş aparatları, ağıllı sensorlar və süni intellekt əsaslı qərarvermə sistemləri tətbiqinin məhsul istehsalının daha dəqiq planlaşdırılmasına əlverişli imkan yaratdığı xüsusi vurğulanır. Bildirilir ki, sadalanan vasitələrlə torpağın vəziyyəti, rütubət səviyyəsi, bitkilərin inkişaf dinamikası və xəstəlik riskləri real vaxt rejimində dəqiqliklə izlənilir və operativ tədbirlər görülür.



Su ehtiyatlarının məhdudlaşdığı müasir şəraitdə rəqəmsal texnologiyaların tətbiqi xüsusi əhəmiyyət daşıyır. SCADA sistemləri, ağıllı suvarma texnologiyaları və avtomatlaşdırılmış monitorinq mexanizmləri vasitəsilə su resurslarından istifadənin səmərəliliyi artırılır, su itkiləri minimuma endirilir və dayanıqlı su idarəçiliyi gerçəkləşdirilir. Bu sistemlərin işə salınması yolu ilə xüsusilə iqlim dəyişikliklərinin təsirlərinə qarşı adaptasiya imkanları genişləndirilir. İnformasiya texnologiyalarının sürətli inkişafı ilə ənənəvi idarəetmə modelləri dəyişdirilərək resurslardan daha səmərəli istifadə, istehsalın optimallaşdırılması və qərarvermə proseslərinin təkmilləşdirilməsi üçün geniş imkanlar yaradılır.

Bu baxımdan SCADA sistemləri müasir kənd təsərrüfatı və suyun davamlı və inklüziv idarə olunmasında geniş tədbiq edilir. Həmin texnologiya müxtəlif obyektlərdən real vaxt rejimində məlumatların toplanmasını, emalını və təhlilini gerçəkləşdirməklə yanaşı, bütün istehsal və infrastruktur proseslərinin mərkəzləşdirilmiş qaydada idarə olunmasına imkan yaradır. Sensorlar, ölçü cihazları, proqramlaşdırılan idarəetmə sistemləri və kommunikasiya şəbəkələri vasitəsilə əldə olunan məlumatlar operativ şəkildə təhlil edilir və qərarların daha dəqiq qəbul olunması reallaşır.

Kənd təsərrüfatında rəqəmsal texnologiyalar – “ağıllı” suvarma sistemləri, torpaq və bitki vəziyyətini izləyən sensorlar, peyk müşahidələri və pilotsuz uçuş aparatları fermerlərə daha dəqiq və operativ qərarlar qəbul etməyə imkan verir. Aqroparklarda tətbiq olunan rəqəmsal idarəetmə sistemləri məhsuldarlığın yüksəldilməsinə, istehsal xərclərinin azaldılmasına və resurslardan səmərəli istifadəyə şərait yaradır.

Balıqçılıq və akvakultura sahəsində innovativ texnologiyalar isə su hövzələrinin keyfiyyət göstəricilərinin monitorinqinə, yemləmə proseslərinin avtomatlaşdırılmasına və bioloji göstəricilərin fasiləsiz izlənilməsinə imkan verir. Bu isə məhsuldarlığın artırılması, istehsal risklərinin azaldılması və ekoloji tarazlığın qorunması baxımından mühüm nəticələrə gətirib çıxarır.

**Namiq Şalbuzov:**

Bu məqamda onu da demək yerinə düşər ki, son 5 ildə aqrar ticarət artım dinamikası ilə inkişaf edib, ixracda kənd təsərrüfatı xammalı istehsalının emal məhsullarına nisbəti 3-4 dəfə üstünlük təşkil edib. Bu, ölkədə aqrar emal sənayesinin inkişafına təcili ehtiyac duyulduğunu göstərir. İdxalda isə aqrar emal məhsulları xammala nisbətən demək olar ki, iki dəfə üstünlük təşkil edir.

Məhsul istehsalında intensiv əkinçiliyin əhəmiyyətinin diqqətdə saxlanılması da mühüm əhəmiyyətə malikdir. Bu məsələ ilə bağlı onu qeyd edə bilərəm ki, ərzaqlıq buğdada ölkə ortalaması 3,2 ton olduğu halda, müasir suvarmaya malik təsərrüfatlarda ortalama məhsuldarlıq 5,8 ton olub. Açıq sahədə tərəvəz əkinində ortalama məhsuldarlıq 20 ton olduğu halda, müasir suvarma ilə 60 tona, istixanalarda isə 300 tona çatır. Bəzi uğurla fəaliyyət göstərən təsərrüfatlarda bu rəqəm 4 min 500 sentnerə yüksəlir. Bu da istixanalar hesabına çox kiçik bir sahədə böyük istehsal həcmi, məşğulluq imkanı yaradıla biləcəyini göstərir.

Heyvandarlıqda da intensivləşmənin səmərəliliyi sübut olunub. Belə ki, ailə təsərrüfatında yerli cins inək ildə 1800 litr süd verirsə, intensiv təsərrüfatlarda bu göstərici 7500 litrə, bəzi təsərrüfatlarda isə 10-12 min litrə çatır.

**Əfsanə Heydərova:**

– Son 5 ildə nominal ifadədə aqrar sektora dövlət dəstəyi çoxalıb, lakin dünya bazarında istehsal vasitələrinin qiymətinin artması real ifadədə dəstəyin azalmasına səbəb olub. Dövlət dəstəyi mexanizmlərinin 74 faizi bitkiçiliyə, 20 faizi texnika dəstəyinə, cəmi 6 faizi heyvandarlığa yönəldilib. Gələcəkdə dəstəyin məhsuldarlığın, fermer gəlirlərinin, aqrar emalın və ixracın artırılmasına daha çox yönəldilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin müşavirədə vurğuladığı kimi, subsidiyaların çox çevik mexanizm olması, hər il məhsul və rayon üzrə yenidən nəzərdən keçirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.



Dövlətimizin başçısı çıxışında, eyni zamanda, torpaqların dəqiq analizinin aparılması, hər bir əkin üçün yararlı torpaq sahəsinə pasport verilməsi, süni intellekt, peyk imkanları və yerli tədqiqatların tətbiqinin diqqətdə saxlanılması zəruriliyini xatırladıb. Ölkə rəhbəri nitqində, həmçinin fermerlərin metodik tövsiyələr, treninqlər vasitəsilə müvafiq sahə üzrə məlumatlarının zənginləşdirilməsinin, eləcə də maarifləndirmə prosesinin və sığorta məsələlərinin təkmilləşdirilməsinin davam etdirilməsinin önəmini vurğulayıb.



Dövlət Proqramında qlobal trendlərin əhəmiyyəti də diqqətə çatdırılır. Məsələn, dünyada əhalinin sayının 2030-cu ildə 8,5 milyard nəfərə çatacağı gözlənilir və qlobal ərzaq tələbatının qarşılanması üçün 2050-ci ilədək ərzaq istehsalının 50 faiz artırılması tələb olunur. Proqramda Niderland, Danimarka və Almaniya təcrübəsinə əsaslanan dəyər zənciri yanaşmasının genişlənməsi, İsrail və ABŞ-da innovativ texnologiyalar, sensor sistemləri, aqrodronlar və süni intellekt əsaslı idarəetmə həllərinin tətbiqi, Norveç, Çin və Vyetnamda intensiv akvakultura texnologiyalarının öyrənilməsi nəzərdə tutulur.

Aqrar sahədə data əsaslı effektiv idarəetmənin təşkili üçün süni intellekt həllərinin genişləndirilməsi, modulların sayının 30-a çatdırılması, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektlərini zəruri xidmətlər və məlumatlarla təmin edən vahid platformaya çevrilməsi hədəflənir.

Proqram çərçivəsində aqrar elm və təhsil sahələrinin inkişafı da prioritet tədbirlər sırasında yer alır. Aqrar ixtisaslar üzrə ikili diplom proqramlarının genişləndiriləcəyi, təqribən, 500 məzun hazırlanacağı, bir xarici universitetlə birgə ali təhsil müəssisəsinin yaradılacağı nəzərdə tutulur. Bundan əlavə, elmi tədqiqatların sayının artırılması, indeksləşdirilmiş jurnallarda çap olunan məqalələrin sayının 2027-ci ildən başlayaraq hər il 10 faiz artırılması, gənclər arasında elmi-tədqiqatların aparılmasına marağın artırılması da proqramda yer alır.

**Elşan Əhmədov:**

– Bu gün dünyada rəqabət üstünlüyü artıq təkcə torpaq, su və ya kapital resursları ilə deyil, həm də məlumatların idarə olunması və texnologiyalardan istifadə səviyyəsi ilə müəyyənləşdirilir. Azərbaycan da rəqəmsal transformasiya strategiyası çərçivəsində kənd təsərrüfatı, balıqçılıq, akvakultura və su təsərrüfatında innovativ həllərin tətbiqini genişləndirməklə davamlı və inklüziv inkişafın yeni modelini formalaşdırır.

Dövlət Proqramının digər mühüm üstünlüyü onun “yaşıl” iqtisadiyyat prinsiplərinə uyğunluğudur. İqlim dəyişmələrinin təsirlərinin artdığı bir dövrdə su ehtiyatlarından səmərəli istifadə, torpaq resurslarının qorunması və ekoloji dayanıqlığın təmin edilməsi xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan proqram həm iqtisadi artımı, həm də ekoloji məsuliyyəti bir araya gətirən inkişaf modelini təşviq edir.

Eyni zamanda, proqramın regionların sosial-iqtisadi inkişafına da mühüm töhfə verəcəyi gözlənilir. Bundan başqa, kənd yerlərində gəlirlərin artması, yeni istehsal və emal müəssisələrinin yaradılması, logistika və xidmət sektorlarının inkişafının regionlararası inkişaf fərqlərinin azaldılmasına müsbət təsir göstərəcəyi proqnozlaşdırılır. Hesab edirəm ki, 2026-2030-cu illər üçün Dövlət Proqramı həm də ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi, qeyri-neft sektorunun genişləndirilməsi, regionların inkişafı və davamlı iqtisadi artımın təmin olunması baxımından mühüm strateji əhəmiyyət daşıyan kompleks inkişaf modelidir. Nəticə etibarilə, proqramın uğurlu icrası Azərbaycanın ərzaq təhlükəsizliyinin daha da güclənməsinə, ixrac potensialının genişlənməsinə, kənd əhalisinin rifahının yüksəlməsinə və ölkənin davamlı və inklüziv inkişaf məqsədlərinə nail olunmasına mühüm töhfə verəcək.

**Eyyub Kərimli:**

– Kənd təsərrüfatında yüksək gəlirliliyin təmin olunmasının əsas yollarından biri xammal ixracından emal olunmuş məhsul ixracına keçiddir. Bu baxımdan yerlərdə emal müəssisələrinin sayının artırılması Dövlət Proqramının ən vacib istiqamətlərindən biri hesab edilir. Emal müəssisələrinin bölgələrdə yerləşdirilməsi məhsul itkisini azaldacaq, logistika xərclərini aşağı salacaq və kənd yerlərində yeni iş yerlərinin yaradılmasına imkan verəcək. Meyvə-tərəvəz, süd məhsulları, ət emalı, balıqçılıq və akvakultura məhsullarının emalı üzrə müəssisələrin genişləndirilməsi də əlavə dəyər zəncirinin formalaşmasına və ixrac gəlirlərinin artmasına mühüm töhfə verəcək.

Kənd təsərrüfatında məhsul itkilərinin qarşısının alınması üçün müasir logistika infrastrukturunun yaradılması da mühüm əhəmiyyət daşıyır. Son illərdə bu istiqamətdə ciddi addımlar atılsa da, yeni Dövlət Proqramı soyuducu anbarların tikintisinin davam etdirilməsini prioritet vəzifələrdən biri kimi müəyyənləşdirir. Müasir saxlama infrastrukturu fermerlərə məhsullarını uzun müddət keyfiyyətini itirmədən saxlamağa imkan verir. Bu isə mövsümi qiymət dalğalanmalarını azaltmaqla yanaşı, bazara məhsulun daha planlı şəkildə çıxarılmasına şərait yaradır.

Heyvandarlığın inkişafı üçün yem bazasının möhkəmləndirilməsi əsas şərtlərdən biridir. Bu səbəbdən Dövlət Proqramında yemçiliyin xüsusi diqqətdə saxlanılması təsadüfi deyil. Çünki son illərdə yem məhsullarına olan tələbatın artması bu sahənin strateji əhəmiyyətini daha da yüksəldib. Yem bitkilərinin əkin sahələrinin genişləndirilməsi, məhsuldar sortların tətbiqi və müasir yem istehsalı müəssisələrinin yaradılması heyvandarlığın rentabelliyini artıracaq. Eyni zamanda, örüş yerləri ilə bağlı mövcud problemlərin həlli də proqramın mühüm istiqamətlərindəndir. Otlaq sahələrinin səmərəli idarə olunması, deqradasiyaya məruz qalmış ərazilərin bərpası və yeni örüşlərin dövriyyəyə cəlb edilməsi heyvandarlığın dayanıqlı inkişafına xidmət edəcək.

İqlim dəyişiklikləri, quraqlıq, dolu və digər təbii risklər kənd təsərrüfatında sığorta mexanizmlərinin əhəmiyyətini artırır. Bu baxımdan aqrar sığorta sisteminin sadələşdirilməsi və fermerlər üçün daha əlçatan edilməsi xüsusi aktuallıq daşıyır.

Sığorta prosedurlarının asanlaşdırılması, müraciət və ödəniş mexanizmlərinin operativləşdirilməsi fermerlərin risklərdən qorunmasını gücləndirəcək və investisiya fəallığını artıracaq.

Digər mühüm məsələ isə aqrar sahənin kadr təminatıdır. Müasir kənd təsərrüfatı artıq yalnız ənənəvi təcrübəyə deyil, elmi biliklərə və innovativ texnologiyalara əsaslanır. Buna görə də kənd təsərrüfatı mütəxəssislərinin işlə təmin olunmasına həssas yanaşılması, onların bölgələrdə fəaliyyətə cəlb edilməsi və peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi sektorun gələcək inkişafı üçün vacib amillərdəndir.

Beləliklə, sözügedən Dövlət Proqramı ölkənin aqrar siyasətində yeni inkişaf mərhələsinin yol xəritəsidir. Sənəd, eyni zamanda, istehsalın, sadəcə, artırılmasına deyil, keyfiyyətli, rəqabətqabiliyyətli və ixracyönümlü aqrar sistemin formalaşdırılmasına xidmət edir. Proqramda nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi kənd təsərrüfatının modernləşdirilməsinə, ərzaq təhlükəsizliyinin daha da möhkəmlənməsinə, kənd yerlərində rifahın yüksəlməsinə və qeyri-neft iqtisadiyyatının dayanıqlı inkişafına mühüm töhfə verəcək. Azərbaycanın zəngin aqrar potensialının tam reallaşdırılması isə ölkənin iqtisadi qüdrətinin artmasına və regionun aparıcı aqrar istehsal mərkəzlərindən birinə çevrilməsinə geniş imkanlar açacaq.

*Dəyirmi masanın söhbətini hazırladı:*
***Vaqif BAYRAMOV,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Azərbaycan təhsilinin ixrac modeli – UNEC-in Dərbənd filialı

## *Tədris mərkəzi Rusiya Federasiyasında fəaliyyət göstərən yeganə xarici universitet bölməsidir*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialının direktoru Qurban Qurbanov Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında humanitar, o cümlədən təhsil sahəsində əlaqələrin inkişafında göstərdiyi xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif edilib. Qurban Qurbanovla Azərbaycan-Dağıstan elmi-mədəni əməkdaşlığının dünəni və bu günü barədə müsahibəni təqdim edirik.**



***– Qurban müəllim, Prezident İlham Əliyevin Sərəncamı ilə "Dostluq" ordeni ilə təltif olunmağınız münasibətilə sizi təbrik edirik. Bu mükafat sizin üçün nə ifadə edir?***

– Təşəkkür edirəm. Bu yüksək mükafat böyük qürur, eyni zamanda, məsuliyyət hissidir. Hesab edirəm ki, bu orden təkcə mənim fəaliyyətimə verilən qiymət deyil. Bu, Dağıstanda yaşayan azərbaycanlıların, Azərbaycan–Dağıstan dostluq münasibətlərinin inkişafına töhfə verən insanların, eləcə də UNEC-in Dərbənd filialının kollektivinin əməyinə verilən yüksək dəyərdir. Eyni zamanda, iki xalq arasında dostluq və əməkdaşlığın yüksək səviyyədə olduğunu göstərən mühüm bir qiymətləndirmədir. Prezident İlham Əliyevin bu diqqəti bizim üçün çox önəmlidir və mən Prezidentə əməyimizi yüksək qiymətləndirdiyi üçün təşəkkürümü bildirirəm.

***– UNEC-in Dərbənd filialının tarixi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Filialın yaradılması təşəbbüsünün əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

– Bəli, Dərbənd filialının yaradılması ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilib. O, Dağıstanı tarixi, mədəni və humanitar baxımdan çox yaxın hesab edirdi. Bu münasibətlərin kökündə həm də Əziz Əliyevin Dağıstandakı tarixi xidmətləri dayanırdı. O, müharibə illərinin ən ağır dövrlərində Dağıstan xalqına böyük dəstək göstərmişdi və bu yaddaş nəsildən-nəslə ötürülmüşdü.

Heydər Əliyev bu tarixi əlaqəni daha sistemli formaya saldı. Onun təşəbbüsü ilə Dərbənddə Azərbaycan ali təhsil müəssisəsinin filialının yaradılması ideyası reallaşdı. Bu, sadəcə, bir universitet açmaq deyildi, bu, gələcək nəsilləri bir-birinə bağlayan strateji humanitar layihə idi. Heydər Əliyev Dağıstana, burada və bütün dünyada yaşayan azərbaycanlılara hər zaman xüsusi diqqət göstərib. O yaxşı bilirdi ki, regionun



inkişafı üçün savadlı, peşəkar kadrların hazırlanması vacibdir.

Qürurvericidir ki, bu təşəbbüs çox böyük müsbət nəticələr verdi. Filialın yaradılması ilə Dağıstan və xüsusilə Dərbənd gəncləri üçün keyfiyyətli ali təhsil almaq imkanları genişləndi. Məzunlarımız bu gün həm Dağıstanda, həm də Azərbaycanda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər. Bu gün xüsusilə məmnunluq doğuran məqamlardan biri də odur ki, Ulu öndərin bu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

***– UNEC-in Dərbənd filialının hüquqi statusu və fəaliyyəti barədə danışardınız.***

– Bir vaxtlar Dərbənddə müxtəlif ali təhsil müəssisələrinin filialları fəaliyyət göstərirdi. Lakin sonrakı illərdə Rusiyada təhsil sahəsində tələblər əhəmiyyətli dərəcədə sərtləşdirildi və bir çox filiallar bu tələblərə cavab vermədikləri üçün fəaliyyətlərini dayandırdılar. UNEC-in Dərbənd filialı isə bütün təhsil standartlarına uyğun fəaliyyət göstərərək öz mövqeyini qoruyub saxlaya bildi. Filialımız Rusiya Federasiyasının Təhsil və Elm Sahəsində Nəzarət üzrə Federal Xidmətinin (Rosobrnadzor) verdiyi lisenziya əsasında fəaliyyət göstərir. Filialın maddi-texniki bazası, tədris infrastrukturu və akademik heyəti yüksək səviyyədə formalaşdırılıb. Tədrisin keyfiyyətinə xüsusi diqqət yetirilir.

UNEC-in Dərbənd filialı Rusiya Federasiyasında fəaliyyət göstərən yeganə xarici universitet filialıdır və bu, bizim üçün böyük qürur mənbəyidir.

***– Filialın fəaliyyəti iki xalq arasında əlaqələrin inkişafına necə təsir göstərir?***

– Mən hesab edirəm ki, UNEC-in Dərbənd filialı bu gün sadəcə ali təhsil müəssisəsi deyil, Azərbaycanla Dağıstan arasında humanitar və mədəni əlaqələri birləşdirən mühüm körpüdür.

Biz Azərbaycan və Dağıstan arasında keçirilən bütün mühüm tədbirlərdə fəal iştirak edirik. Filialımızda mütəmadi olaraq elmi konfranslar, mədəni tədbirlər, görüşlər və yubiley mərasimləri təşkil olunur. Bu tədbirlər iki xalqın ortaq tarixini, mədəniyyətini və dostluq münasibətlərini gənc nəslə daha yaxından tanıdır.

Xüsusilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin Dərbənd filialında böyük təntənə ilə qeyd olunmasını xüsusi vurğulamaq istərdim. Yubiley çərçivəsində universitetdə Heydər Əliyev Muzeyinin açılışı oldu. Burada Ulu öndərin Azərbaycana gəlmiş Dağıstan nümayəndələri ilə görüşlərinin nadir fotoları, tarixi sənədlər, arxiv materialları və onun Azərbaycan-Dağıstan münasibətlərinin inkişafındakı rolunu əks etdirən eksponatlar nümayiş olunur. Muzey bu gün tələbələr, qonaqlar və şəhər sakinləri üçün mühüm ziyarət məkanlarından birinə çevrilib. Eyni zamanda, hər il 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü universitetimizdə geniş şəkildə qeyd olunur.

***– Sonda nə demək istərdiniz?***

– Mənə göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə bir daha dərin minnətdarlığımı bildirirəm. Bu mükafatı Azərbaycan–Dağıstan dostluğunun inkişafına xidmət edən bütün insanların əməyinə verilən qiymət kimi qəbul edirəm.

***XQ***

# Şairlər yurdunun şeir günü



**Azərbaycan Yazıçılar Birliyinin qərarı ilə Mikayıl Müşfiqin doğum günü şeir bayramı elan edilib. Düz 16 ildir ki, nakam şairin doğum günündə duyğu və düşüncələrimizi şeirə, poetik sözə kökləyirik.**

Sözün duyğuya, duyğunun isə misraya çevrildiyi Şairlər Günündə Azərbaycana müxtəlif ölkələrdən qələm adamları qonaq gəlirlər. Poetik məclislər keçirilir, nakam şairimizin rəmzi məzarı olan Xəzər dənizinə qırmızı qərənfillər səpilərək xatirəsi yad edilir.

Ümumiyyətlə, Azərbaycan milli ədəbiyyatı hər zaman işıqlı şair obrazları ilə zəngin olub. Şəms Təbrizi, İzzəddin Həsənoğlu, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimidən üzü bu yana klassiklərimiz əsrlərin yaddaşına həkk olunmuş söz sənətkarlarıdır. Onların davamçıları da milli-mənəvi yaddaşın qoruyucuları kimi tarix yaradıblar. Mikayıl Müşfiq kimi.

Bu il daha çox poeziya ilə nəfəs alırıq, desək, yanılmarıq. Xaqani Şirvaninin 900, Nizami Gəncəvinin 885, Aşıq Ələsgərin 205, Səməd Vurğunun və Süleyman Rüstəmin 120, Qabil və Mədinə Gülgünün 100 illiyi ilə bağlı mərasimlər keçirilir.

Əslində, xalqımızın həyatının, demək olar, bütün günləri poeziyaya sıx bağlıdır. Elə bu yaxınlarda bir neçə gün ərzində AMEA-nın əsas binasının önündəki Elmlər parkında təmtəraqla keçirilmiş VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalının təəssüratları hələ də təzə-tərdir. Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Macarıstan və Yunis Əmrə günləri bir-birindən maraqlı təşkil edilmişdi. Türksoylu ölkələrdən tanınmış alimlərin, qələm adamlarının, naşirlərin iştirakı ilə festivalda şeir saatları, müzakirələr, kitab təqdimatları, elmi konfranslar, film nümayişləri, konsert proqramları ilə yanaşı, görkəmli ədiblərin yubileyləri də qeyd edildi.

Şairlər Günü ilə bağlı məclislər xüsusilə yaddaqalan oldu. Yazıçılar Birliyinin Natəvan klubunda məxsusi toplantı keçirildi. AYB sədri, Xalq yazıçısı Anar, 1-ci katib, Xalq yazıçısı Çingiz Abdullayev, sədr müavini, şair Rəşad Məcid, yazıçı Seyran Səxavət, Türkiyənin tanınmış bəstəçisi, şair Esat Kabaklı, tənqidçi Əsəd Cahangir, şair Xəyal Rza poeziyanın cəmiyyət həyatımızdakı yerindən, söz sənətinin mənəvi dünyamızdakı rolundan bəhs etdilər. Həmin gün həm də Xalq şairi Vaqif Səmədoğlunun doğum günü olduğu üçün xatirəsi hörmətlə anıldı. Şairlər Günündə bir araya gələn söz adamları öz yaradıcılıqlarından nümunələr təqdim etdilər. Poeziyanını gücü və gözəlliyi bir daha nümayiş olundu. Sonra VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalında fərqlənənlərə sertifikatlar, fəxri fərmanlar verildi.

Ardınca Sahil metrosu istiqamətində Xəzərə gülsəpmə mərasimi oldu. Şairlər dənizin sahilinə yollanaraq, əllərində çiçək dəstələri, dillərində Müşfiqin misraları dalğalara üz tutdular:

***Xəyalımız üzəydi sevda dənizlərində,***
***Ləpələr üzərində.***
***Sular xırçın olaydı,***
***İlhamımın yelkəni zərrin saçın olaydı.***

Xəzərin qoynuna atılan qərənfillər güllərə deyil, güllələrə tuş gəlmiş Müşfiqlə bərabər, taleyi yarımçıq qalan bütün Azərbaycan yazarlarının xatirəsinə sonsuz ehtiramın ifadəsi oldu.

Həmin gün Bakıda Müşfiqin abidəsi önündə, doğma yurdu Xızıda, digər şəhər və rayonlarda da Şairlər Günü qeyd edildi. Axşam isə Heydər Əliyev Sarayında Səməd Vurğunun 120 illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirildi. Xalq yazıçısı Anar onun əbədiyaşar poeziyasını layiqincə dəyərləndirdi. İncəsənət ustaları şairin şeir və poemalarından parçalar səsləndirdilər, sözlərinə bəstələnmiş mahnıları ifa etdilər.

Sumqayıtlı yazarlar da Şairlər Günündə bulvarın "Damba" adlanan ərazisində dənizə güllər atıb şeirlər oxudular. Sumqayıt Gənclər Evi və S.Vurğun adına Mərkəzi Kitabxananın təşkilatçılığı ilə Müşfiqin həyat və yaradıcılığına həsr olunan gecə də hər kəsi şairin həmişəbahar dünyasına qovuşdurdu.

Təəssüf ki, həmin gün ürəyi daim gənclik eşqi ilə döyünən şair, Əməkdar mədəniyyət işçisi, Prezidentin fərdi təqaüdçüsü Əşrəf Veysəlli 88 yaşında dünyasını dəyişdi. Şəhər rəhbərliyinin təşəbbüsü ilə Poeziya Evində onunla vida mərasimi keçirildi, öz səsi ilə lentə alınmış şeirləri təqdim olundu, xatirələr dilə gəldi və sonda şair dəniz dalğalarını xatırladan alqış sədaları ilə haqq dünyasına yola salındı...

Bəli, şairlər əbədiyyətə qovuşurlar, onların yazdıqları isə oxucuların yaddaşında və dilində yaşayır. Şairlər Günündə bunun bir daha şahidi olduq.

***Əli NƏCƏFXANLI***
***XQ***

*Səməd Vurğun–120*

# Bakıda və Aşqabadda yubiley təqdimatları

**Heydər Əliyev Sarayında Xalq şairi Səməd Vurğunun 120 illik yubileyinə, zəngin ədəbi irsinə həsr olunmuş ədəbi-bədii gecə keçirilib.**




Poeziya məclisində Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar bildirib ki, Səməd Vurğunun zəngin və parlaq irsi bu gün də xalqımızın müxtəlif nəsillərinin nümayəndələrini Vətəni, torpağı və ana dilini sevməyə səsləyir: "Məktəb illərindən Səməd Vurğunun "Azərbaycan" şeirini əzbər bilirik və poeziyamızda bu qədər geniş yayılan başqa bir nümunə tapmaq çətindir. Səməd Vurğun qəlblərdə yaşayır və bundan sonra da yaşayacaq. Çətin və mürəkkəb bir dövrdə fəaliyyət göstərən şair öz yaradıcılığı ilə xalqın yaddaşında silinməz iz qoyub. Onun "Vaqif" pyesi Azərbaycan xalqını məhv etməyin mümkünsüz olduğunu bir daha xatırladır. İllər keçsə də, şairin sözü və ideyaları hər zaman yaşayacaq və eşidiləcək".

AYB-nin katibi İlqar Fəhmi, rejissoru Mehriban Zəkinin hazırladıqları ədəbi-bədii təqdimatda incəsənət ustaları şairin şeir və poemalarından parçalar səsləndiriblər, musiqiçilər yubilyarın sözlərinə bəstələnmiş mahnıları ifa ediblər.

***

**Türkmənistan Dövlət Universitetində də türkmən xalqı Azərbaycanın Xalq şairinin anadan olmasının 120 illiyinə həsr olunmuş yubiley məclisi keçirilib.**

AYB-nin katibi, Əməkdar mədəniyyət işçisi İlqar Fəhmi Səməd Vurğunun bənzərsiz yaradıcılığı ilə XX əsr Azərbaycan ədəbiyyatının inkişafında müstəsna rolu barədə söz açıb.

Sonra Milli Məclisin deputatı, Azərbaycan-Türkmənistan parlamentlərarası dostluq qrupunun üzvü Hikmət Məmmədov "Səməd Vurğunun yaradıcılığında vətən mövzusu", AMEA Ədəbiyyat İnstitutunun elmi katibi, dosent Aygün Bağırlının "Səməd Vurğun və Türk dünyası" mövzusunda məruzələri dinlənilib.

Məclisdə qeyd olunub ki, Azərbaycanın ədəbi fikir salnaməsində xüsusi yer tutan Səməd Vurğunun çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanır. Ədibin əsərləri Türk respublikalarında da böyük maraq və sevgi ilə qarşılanıb, pyesləri dəfələrlə səhnələşdirilib.

***XQ***

# Turizm sektorunda insan alverinə qarşı mübarizə

**Azərbaycan Turizm və Menecment Universitetində QHT-lərə Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "İnsan alveri ilə mübarizədə təhsil müəssisələrinin rolunun gücləndirilməsi" mövzusunda təlim təşkil olunub.**




Rektor İlham Mədətov belə maarifləndirmənin turizm sahəsində çalışan və gələcəkdə bu sektorda fəaliyyət göstərəcək tələbələrin insan alveri ilə mübarizədə məlumatlılığına dəstək olduğunu bildirib.

"Polisə Dəstək" İB-nin sədri Şəmsəddin Əliyev mövzu ilə bağlı çıxışında XXI əsrdə insan alverinin yaratdığı təhlükələrdən, bu cinayətin qarşısının alınmasında profilaktik tədbirlərin rolundan ətraflı danışıb. O, insan alverinin transmilli mütəşəkkil cinayətkarlığın xüsusilə ağır növü kimi qlobal bir problemə çevrildiyini vurğulayıb. Natiq qeyd edib ki, gənclərin və turizm sektorunda çalışan şəxslərin bu təhlükə barədə məlumatlandırılması belə cinayətlərlə mübarizədə önəmli vasitədir.

Daxili İşlər Nazirliyi İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı Vamiq Naməndzadə bildirib ki, insan alverinə qarşı mübarizədə hüquq-mühafizə orqanları ilə yanaşı, cəmiyyətin, o cümlədən turizm qurumlarının fəal iştirakı zəruridir.

Layihə üzrə ekspert Aydın Kərimov turizm sahəsində qanunvericiliyin tələbləri, insan alveri ilə mübarizənin hüquqi əsasları və bu sahədə vətəndaşların hüquq və vəzifələri barədə ətraflı məlumat verib.

Təlimdə geniş fikir mübadiləsi aparılıb, suallar cavablandırılıb.

***XQ***

# Sülh yenidən raket zərbələri hədəfində

**Bazar günü İran İsrailin Beyrutun cənub ətraflarına hücumuna cavab olaraq İsrailə, Tel-Əvivin də Tehrana cavab olaraq İrana raket zərbələri endirib. Bu, 8 apreldə atəşkəs elan edildikdən bəri İrandan ilk birbaşa hücumdur.**

ABŞ Prezidenti Donald Tramp İsrailin Baş naziri Benyamin Netanyahuya zəng edərək onu İranın raket hücumuna qarşı qisas almamağa inandırmaq niyyətini ifadə edib. "Axios" agentliyi Trampa istinadən bildirib: "İndi Bibiyə zəng edib ona cavab verməməyi deyəcəyəm. Hər tərəf artıq öz payını aldı. İsrail öz zərbəsini endirdi, İran da öz zərbəsini. Bizim daha bir raunda ehtiyacımız yoxdur", - deyə Tramp bildirib.

Netanyahunun cavabı Amerika prezidentinin İsrail üzərində hələ də nə qədər təsir gücünə malik olduğunun göstəricisi ola bilərdi, əlbəttə, əgər cavab zərbələri endirilməsəydi. Lakin Prezident Donald Trampın Baş nazir Benyamin Netanyahunu qisas almaqdan çəkinməyə çağırmasına baxmayaraq, İsrail Müdafiə Qüvvələri (İMQ) İranın qərbi və mərkəzi bölgələrindəki hədəfləri vurduğunu bildirib. İran dövlət mediası Tehranda çoxsaylı partlayışlar barədə məlumat yayıb. ABŞ rəsmisi isə İsrail hücumlarının "nisbətən məhdud dairəni əhatə etdiyini" vurğulayıb. Bütün bunlardan sonra siyasi analitiklər belə bir sual ətrafında müxtəlif versiyalar irəli sürürlər: Yaxın Şərqdə müharibə yenidən qızışa bilərmi?

İMQ Tehrana raket zərbələrinin səbəblərini açıqlayaraq bəyan edir ki, İrandan atılan raketləri aşkarlanaraq məhv edilib, təcili yardım xidmətləri isə heç bir itki olmadığını bildirdi.

İslam İnqilabı Keşikçiləri Korpusunun (İİKK) verdiyi açıqlamada isə bildirilir ki, bazar ertəsi səhər tezdən İran ərazisinə edilən hücumda İsrail ballistik hava raketlərindən istifadə edib. Yarı-rəsmi "Tasnim" xəbər agentliyi Tehranın qərbindəki Kərəc şəhərində partlayış səslərinin eşidildiyi xəbərini yayıb.

"Fars" agentliyi mənbəyə istinadən İsrailin İranın cənub-qərbindəki Bəndərə Mahşardakı Karun neft-kimya zavoduna hava hücumu həyata keçirdiyini və zavodun bir hissəsinə zərər verdiyini bildirib. İsrail hücumu təsdiqləyib. "Əl-Cəzirə", həmçinin iyunun 8-də səhər İsrail təyyarələrinin Təbrizdəki hərbi mərkəzə zərbə endirdiyini, ancaq tələfat olmadığını yayıb.

Analitiklər bu hücumlar mübadiləsini, 8 apreldə qüvvəyə minən atəşkəsdən, ABŞ, İsrail və İran arasında münaqişənin dayandırılmasından sonra ən ciddi sınaqlardan biri olduğunu bildirirlər. Bu insident həm də onu göstərir ki, Trampın dəfələrlə "razılaşma"nın yaxınlaşdığını iddia etməsinə baxmayaraq, Vaşinqton və Tehran sülh razılaşmasında çox az irəliləyiş əldə ediblər.

"Associated Press" agentliyi bildirir ki, İsrailin qisas hücumları vəziyyətin daha da gərginləşməsinə səbəb ola bilər. Belə ki, İsrailin İrana son hücumundan sonra Səudiyyə Ərəbistanı ABŞ qüvvələrinin yerləşdiyi Şahzadə Sultan Hava Bazası yaxınlığında raket həyəcanı elan ediblər. Digər tərəfdən döyüşlərin yenidən başlaması qorxusu neftin qiymətlərini yenidən artırıb və Brent markalı xam neftin qiyməti 3 faiz artaraq 1 barel üçün 96 dolları keçib. Yaxın Şərq münaqişəsinin başlanğıcından bəri əsas valyuta olan dollar, ən yaxşı onluqdakı valyutalara nisbətən möhkəmlənib.

"Axios" ABŞ-ın yüksək vəzifəli rəsmisinə və məlumatlı İsrail mənbəsinə istinadən xəbər verir ki, bazar günü Netanyahu ilə telefon danışığında Tramp İsrail liderindən İranın raket hücumuna cavab verməməsini və diplomatiya üçün daha çox vaxt ayırmasını istəyib. ABŞ prezidenti "The Financial Times" qəzetinə verdiyi açıqlamada daha sərt şəkildə bildirib ki, israilli həmkarı ABŞ-ın İranla əldə edəcəyi hər hansı bir razılaşmanı qəbul etməli olacaq. "Qərarları mən verirəm. Hər birini. Netanyahu heç nəyi həll etmir".

Siyasi analitiklər bildirirlər ki, zərbə mübadiləsi İsrail və "Hizbullah" arasında gərginliyin artması fonunda baş verib. Bazar günü səhər tezdən Livan könüllülərinin İsrailin şimalındakı hədəflərə hücum etməsi, Tel-Əvivin Beyrutun cənub ətraflarına hava hücumuna səbəb olub və nəticədə iki nəfər həlak olub, 11 nəfər yaralanıb. Eyni zamanda, İranın Ali liderinin hərbi müşaviri Möhsün Rzayi yarı-rəsmi İran tələbə xəbər agentliyi ISNA-ya verdiyi müsahibədə İsrailə raket atılmasını Livanda "döyüş əməliyyatlarına son qoymaq üçün xəbərdarlıq" adlandırıb.

Məlumdur ki, İran ABŞ ilə razılaşma üçün ilkin şərt olaraq Livanda atəşkəs tələb edir. Lakin ötən həftə "Hizbullah" Dövlət Departamenti tərəfindən bir neçə saat əvvəl elan edilən, ABŞ-ın vasitəçiliyi ilə İsrail və Livan arasında atəşkəs razılaşmasını rədd edib.

Tehran isə israr edir ki, müharibəni birdəfəlik dayandırmaq üçün hər hansı bir razılaşma, İsrailin İran tərəfindən dəstəklənən "Hizbullah" hərəkatına qarşı kampaniya apardığı Livandakı paralel münaqişəyə də son qoymalıdır. İran xəbərdarlıq edib ki, Beyruta qarşı hər hansı yeni hücum hərbi əməliyyatların "yenidən tammiqyaslı başlamasına" səbəb olacaq.

Daha əvvəl İranın Ali lideri Müctəba Xameneinin İsrailin Beyruta hücumlarına cavab olaraq ona zərbələr endirməyə icazə verdiyi barədə xəbərlərdən sonra İİKK İsrailə hücum etməyə hazır olduğunu bəyan edib.

Bu arada məlumat yayılıb ki, Vaşinqtonda Trampın komandası Fars körfəzindəki müttəfiqlərinə kömək etmək və İslam Respublikasının vurduğu ziyanı aradan qaldırmaq üçün ABŞ-da dondurulmuş İran aktivlərindən istifadə etmək planı hazırlayır. Hətta Tramp bazar günü verdiyi müsahibədə "razılaşma" nəticəsində İran aktivlərinin dondurulmasını dayandırmaq və ya İrana qarşı sanksiyaları ləğv etmək niyyətində olmadığını bildirib. Tramp "NBC News"un müxbiri Kristen Uelkerə verdiyi müsahibədə deyib: "Əgər onlar yaxşı davranarlarsa, borclu olduqları hər şeyi yerinə yetirərlərsə, onda aktivlərin dondurulmasının ləğvi barədə danışmağa başlayacağıq".

İran xarici işlər nazirinin müavini Kazım Qərib-Abadi sosial mediada ölkəsinin aktivlərinin nə "Vaşinqtonun müharibə qəniməti, nə də müttəfiqlərinə ödəniş üçün fond" olmadığını bildirərək, bu fikri rədd edib. O, həmçinin qeyd edib ki, İran hələ də İsrail və ABŞ-ın 28 fevralda başladığı müharibədən dəyən ziyana görə "tam kompensasiya" tələb edir.

İran hökumətinin kommunikasiya naziri Məhəmməd Momani isə öz ofisində bildirib ki, bazar günü axşamı regionda "yenidən gərginləşmə"dən sonra bir neçə raket İordaniya hava məkanını pozub.

Bütün bunlara baxmayaraq, bazar günü Prezident Donald Tramp İranın İsrailə qarşı son raket hücumunun davam edən danışıqlar prosesinə zərər verdiyini söyləsə də, razılaşmanın hələ də əldə edilə biləcəyinə dair nikbinliyini bildirib. "Fox News"un baş beynəlxalq icmalçısı Treem İnqstlə söhbətində Tramp, hücumun diplomatik səyləri çətinləşdirəcəyini gizlətməyib: "Bu, əlbəttə ki, danışıqlara kömək etməyəcək. Biz razılaşmaya çox yaxınıq. Deyərdim ki, razılaşma gələn həftənin bazar ertəsi, çərşənbə axşamı və ya çərşənbə günü imzalana bilərdi. Amma sonra bu baş verir", - deyə Tramp bu fikrindən sonra İrana müraciət edib: "Raketlərinizi atdınız - bu kifayətdir. Danışıqlar masasına qayıdın və razılaşma əldə edin".

ABŞ prezidenti, həmçinin İranın endirdiyi zərbələrin əhəmiyyətini azaltmağa çalışır. O, "Axios"a verdiyi müsahibədə bildirib ki, "İran zərbələri heç kimə zərər verməyib. Ümid edirəm ki, İsrail qisas almayacaq. Əgər Bibi cavab zərbəsi endirərsə, bu son 47 ildəki kimi və ya son 3 min ildəki kimi davam edəcək".

Beləliklə, İsrailin Beyruta hücum etməsindən və İranın bir neçə raket dalğasından sonra Yaxın Şərqdə atəşkəs pozulmaq həddindədir. Tramp isə İranla uzunmüddətli razılaşma ümidlərini puça çıxara biləcək eskalasiyanı dayandırmaq üçün mübarizə aparır. O, "Axios"a müsahibəsində danışıqların müsbət nəticələnməsinə çox maraqlı olduğunu gizlətmir və deyir: "İranla yekun razılaşmaya çox yaxınıq. Bu, yaxşı bir razılaşma olacaq. İndi baş verənlərə görə onun dağılmasını istəmirəm".

Analitiklərin bir çoxu bildirir ki, Trampın İsrailin cavab verməkdən çəkindirməsi tələbi olduqca qeyri-adi görünür. ABŞ-ın dəstəyi olmadan İsrailin İrana hər hansı bir hücumu daha çətin və riskli olardı. ABŞ rəsmisi analitiklərin bu şübhələrini cavablandırmaq məqsədilə "Axios"a deyib: "Biz iştirak etmirik". Lakin Trampın İsrailin İrana zərbə endirilməsi halında, xüsusən də havada yanacaqdoldurma və digər hərbi qarşılıqlı əlaqələrlə bağlı, ABŞ ordusuna Tel-Əvivə yardımı dayandırmağı əmr edib-etməyəcəyi hələ də məlum deyil.



İran tərəfindən məsələnin gizli məqamlarına işıq salan bəzi açıqlamalar analitiklərə şübhələrində nə qədər haqlı olduqlarını göstərir. Məsələn, "İrna" agentliyi sionist media orqanına istinadən bildirir ki, İsrailin İrana hücumları ABŞ ilə koordinasiyalı şəkildə həyata keçirilib və bununla da Ağ Evin ABŞ-ın İsrail hücumunda iştirak etmədiyi iddiası təkzib edilib.

"Reuters" isə İran Parlamentinin spikeri Məhəmməd Baqeri Qalibafın "X" sosial şəbəkəsindəki açıqlamasını sitat gətirir. Spiker yazıb ki, ABŞ-ın İrana qarşı dəniz blokadası və İsrailə Livanda hücumları artırmaq üçün verilən icazə Yaxın Şərqdəki ABŞ bazalarını və İsrail obyektlərini İran üçün qanuni hədəfə çevirir. "Onlar atəşkəs istəmirlər və dialoqa inanmırlar. Dəniz blokadası və Livan müqavilələrini pozmaqla, onlar yalnız güc dilini başa düşdüklərini göstərdilər", – deyə Qalibaf ABŞ və İsraili nəzərdə tutaraq yazır.

Adının çəkilməməsini istəyən yüksək vəzifəli İran rəsmisi hələ bu ilin mart ayında ABŞ və İsrailin təcavüzə, genişmiqyaslı və uzunmüddətli nəticələrə səbəb olacaq müharibəyə başlayacağını bildirmişdi. O, həmçinin əlavə etmişdi ki, Tehran ABŞ-İsrail birgə təcavüzündən təəccüblənmir, İranınsa vaxt məhdudiyyəti olmayan hərtərəfli cavab planı var: "Biz İsrailə aydın şəkildə bildiririk ki, onlar gələcəkdə baş verəcək hadisələrə hazırlaşmalıdırlar. Cavabımız açıq olacaq və qırmızı xətlərimiz yoxdur. Yaxın Şərqdəki bütün Amerika və İsrail aktivləri və maraqları qanuni hədəflərə çevrilib və bu təcavüzdən sonra qırmızı xətlər olmayacaq. Əvvəllər nəzərdən keçirilməmiş ssenarilər də daxil olmaqla, hər şey mümkündür", - deyə İran rəsmisi hələ 3 ay əvvəl xəbərdarlıq edib.

İranın Ali Liderinin baş müşaviri Əli Vilayəti isə bildirib ki, əgər İsrail münaqişəni qızışdırmağa davam edərsə, Tehran Yaxın Şərqdə daha bir həyati əhəmiyyətli dəniz dəhlizi olan Bab əl-Məndəb boğazını bağlaya bilər.

"Euro news" yazır ki, bir neçə gündür İran və ABŞ arasında kövrək atəşkəs barədə danışıqlar İsrail ilə Livanın "Hizbullah" şiə qruplaşması arasında gedən döyüşlər səbəbindən faktiki olaraq dayandırılıb. İsrail hazırda Livanın cənubuna nəzarət edir və ölkənin, təxminən, 25 ildir işğal etmədiyi ərazilərinə doğru irəliləyib ki, bu da hərbi kampaniyanın daha da genişlənməsi ilə bağlı ehtimalları gücləndirir.

Almaniyanın "DW" portalı Donald Trampın "NBC News"a verdiyi müsahibəni şərh edərək bildirir ki, ABŞ Prezidenti İranla mümkün razılaşmanın bir hissəsi olaraq qəbul etməyə hazır olmadığı güzəştləri açıqlayıb: "Tehrana qarşı sanksiyalar əvvəlcədən qaldırılmayacaq; bu, yalnız sülh razılaşmasından sonra mümkün olacaq".

Donald Tramp bildirib ki, İran aktivlərinin dondurulmasını və ya İslam Respublikası rəhbərliyinə qarşı sanksiyaları əvvəlcədən hər hansı bir razılaşmanın bir hissəsi kimi ləğv etməyəcək; bu, yalnız sülh razılaşmasından sonra mümkün olacaq. "Bu, daha sonra olacaq. Əgər onlar düzgün davransa, yaxşı iş görsələr, bu barədə danışmağa başlayacağıq", - deyə Tramp iyunun 7-də dərc olunmuş "NBC News"un "Meet the Press" verilişinə verdiyi müsahibədə bildirib. Elə bu verilişdə Tramp "Hizbullah"a qarşı "daha hədəflənmiş" zərbələr endirməyə çağırıb. Halbuki, bununla eyni vaxtda, bazar günü Ağ Evin sahibi "Axios"a verdiyi müsahibədə İsrailin Beyruta hücumlarını tənqid edərək bundan "məmnun olmadığını" söyləyir.

Görünür, elə buna görədir ki, Prezident Tramp Livanın Tehranla qısamüddətli razılaşmaya daxil edilməsini tələb etmədiyini bildirib: "Düşünürəm ki, onlar (İran–XQ.) bunu istəyərlər, amma mən bunu tələb etmirəm". O, həmçinin İsraili Livanda yerləşən radikal şiə qrupu "Hizbullah"a qarşı "daha hədəflənmiş" zərbələr endirməyə çağıraraq deyib: "Livanda həyatın daha yaxşı olmasını istərdim. Hizbullaha qarşı daha hədəflənmiş zərbələr görmək istərdim. Düşünürəm ki, onlar daha hədəflənmiş olmalıdır".

Prezident Tramp müsahibəsində həmçinin müharibənin əvvəlində ABŞ zərbələrində yaralandığından bəri ictimaiyyət qarşısına çıxmayan İranın Ali lideri Müştəba Xamenei ilə birbaşa danışıqlara hazır olduğunu da bildirib. Tramp gənc Xameneinin dəqiq yerini bilib-bilmədiyi və ya İranda olub-olmadığı soruşulduqda, qəti cavab verməkdən imtina edib. "Onun harada olduğunu bilib-bilmədiyimi demək istəmirəm. Amma bildiyim çox ehtimal olunur", - deyə Tramp bildirib.

Baş verənlər və tərəflərin danışıqlar masasında müzakirə etdiyi məsələlərdə ziddiyyətlərin olduğu bir daha onu göstərir ki, Yaxın Şərqdə sülhə hələ çox var. Müharibə isə bu regionun üzərində "Damokl qılıncı" kimi asılmaqda davam edir. Münaqişənin hər an yenidən alovlanmayacağına isə heç kim təminat verə bilməz. Bunun isə daha dağıdıcı və fəlakətli bir müharibə olacağı istisna olunmur.

***İlqar RÜSTƏMOV,***
***XQ-nin siyasi analitiki***

*Həyatın içindən*

# Gənc ana və oğulları

*"Övladım əzizdir, tərbiyəsi ondan da əzizdir"*

**Bazar günü idi, təxminən, axşam saat 5 radələri olardı. Böyük marketlərin birindən çörək, meyvə, tərəvəz və digər ərzaq məhsulları alıb, əlimdə 2 sellofan paketlə evə tərəf gedirdim. Təxminən, 1 kilometrə qədər yolu piyada qət etməli idim. Hiss edirdim ki, bu dəfə yüküm bir qədər ağırdır. "Birtəhər dözərəm", deyə düşündüm.**



Yaxşı ki, yolum üzüaşağı idi. Yadıma düşdü ki, bu yolla əks tərəfə, yəni evdən marketə tərəf gələndə, adətən, təngənəfəs oluram. Belə hallarda, "görünür, qocalıqdandır, yaşım da az deyil, artıq 70-ə bir neçə ay qalıb" deyə özümə təsəlli verirəm.

Nə isə, mətləbdən uzaqlaşmaq istəmirəm. Market binasının yanındakı küçədən məndən 15-20 metr irəlidə, təqribən, 37-38 yaşlarında olan bir gənc ananın 2 yeniyetmə oğlan uşağı ilə birlikdə yolu keçdiklərini gördüm. Ananın əlində içərisində ərzaq olan 4-5 dolu sellofan torba vardı və bu səbəbdən uşaqlarının əlindən tuta bilmirdi.

Ana uşaqlara nəzarət etmək üçün onlardan nə irəliyə keçmək, nə də geridə qalmaq istəyirdi. Yaxşı ki, uzaqdan gələn avtomobillər çatana kimi ana və övladları, eləcə də mən artıq yolu keçmişdik. Yolu rahat keçdikləri üçün gənc qadının sevindiyini övladlarına növbəti göstərişlərini verərkən səsindən də duymaq olurdu.

Ana evə tələsirdi və oğlanlarından (böyüyün 13-14, kiçiyin isə 10-11 yaşı olardı) daha cəld hərəkət etmələrini tələb edirdi. Amma uşaqlar əllərində tutduqları bananları tənbəlcəsinə yeyə-yeyə ərzaq paketlərini daşımaqda çətinlik çəkən analarının gah önünə çıxır, gah da ondan geri qalırdılar. Hər iki halda analarına rahat hərəkət etməkdə mane olurdular.

Bir qədər yol gedəndən sonra ana yorularaq əlindəki paketləri yolun kənarındakı nisbətən səliqəli kiçik otluq sahəyə qoydu. Mən ananın və uşaqların yanına çatanda özümdən asılı olmayaraq ayaq saxlayıb dedim:

– Qızım, sən mənim övladımdan da yaşca kiçik olarsan. Ona görə sənə ərklə bir məsləhət vermək istəyirəm.

Gənc qadın əvvəlcə təəccüblə məni süzdü, ani tərəddüddən sonra ona müraciət edən şəxsin xeyli yaşlı olduğunu nəzərə alaraq gülümsədi:

– Buyurun, əmi, sizi eşidirəm...

– Görürəm, əlində 4-5 paket var. Yükünü azca da olsa yüngülləşdirmək üçün onlardan birini ən azı böyük oğluna verə bilərdin...

Qadın nə hə, nə də yox dedi. Uşaqlar isə başlarını aşağı dikdilər. Qadın bu iradımdan sonra, paketlərin ən yüngülünü (eh, ana ürəyi...) böyük oğluna tərəf uzatdı. Oğlan əvvəlcə əlindəki bananı axıradək yemədiyini göstərib etiraz etmək istədi. Sonra nə düşündüsə, könülsüz olaraq paketi götürdü. Beləcə, ana və övladları yollarına davam etdilər. Mən isə addımlarımı yeyinlədim onları arxada qoydum.

Evə çatandan sonra isti çay içə-içə xeyli düşündüm. Görəsən, tanımadığım gənc qadına məsləhət verməkdə düzmü hərəkət etdim, yoxsa buna ehtiyac yox idi? Hər halda, ananın böyük oğlunun könülsüz də olsa, paketi əlinə götürməsi məni sevindirmişdi. İnanmaq istəyirdim ki, oğlanlar gələn dəfə daha ağır yükləri daşımaqda analarına kömək etməyə çalışacaqlar.

Mən Qubanın əhalisi xeyli sıx olan dağətəyi kəndlərindən birində dünyaya göz açmışam. Ailəmiz böyük olub. Mən isə ailənin ilki idim. Yadımdadır ki, hələ uşaq yaşlarımdan kənddəki mağazadan ərzaq alıb qayıdanda valideynlərimə kömək etməyə çalışmışam. Atam da, anam da hər dəfə məni buna görə tərifləyərdilər. Məncə, düz ediblər!

Bu həyat hekayətini qələmə almaqda niyyətim budur: "Qoy gənc analar öz ciyərparalarını, xüsusilə də oğlan uşaqlarını tənbəl böyütməsinlər. Anam deyərdi ki, "övladım əzizdir, amma tərbiyəsi ondan da əzizdir".

Hörmətli oxucular, siz bu barədə nə düşünürsünüz? Bu mövzuda fikirlərinizi yazaraq redaksiyamıza göndərsəniz, əlbəttə, şad olarıq. Yeri gəlmişkən, sizin dəyərli arzu və düşüncələrinizi, təklif və məsləhətlərinizi dərc etməyə hazırıq.

***Məsaim ABDULLAYEV***
***XQ***

# "Qarabağ Tallin" beynəlxalq minifutbolda gümüş qazandı



**Belçikanın paytaxtı Brüssel şəhərində müxtəlif Avropa ölkələrində yaşayan azərbaycanlıların, eləcə də digər millətləri təmsil edən həvəskar komandaların iştirak etdiyi III Beynəlxalq Mini-Futbol Turniri – "Suqovuşan" başa çatıb. Turnirdə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Ukrayna və Pakistan da daxil olmaqla müxtəlif ölkə və təşkilatları təmsil edən 24 komanda mübarizə aparıb.**

Estoniyada yaşayan azərbaycanlıları bir araya gətirən "Qarabağ Tallin" komandası da bu nüfuzlu turnirdə iştirak edib. Turnirin reqlamentinə əsasən, hər komandaya heyətinə bir legioner daxil etmək icazəsi verilirdi.

Estoniya–Azərbaycan Cəmiyyəti "Birlik", "Shaurma Kebab", "Kamikadze və Armudu", "Chairud OÜ" şirkətlərinin dəstəyi sayəsində komanda beynəlxalq turnirdə iştirak etmək və Estoniyanı Avropanın idman arenasında layiqincə təmsil etmək imkanı qazanıb.

Yarış ərzində "Qarabağ Tallin" komandası 9 oyun keçirib və bunların 8-də qələbə qazanıb. Komanda qrup mərhələsini və pley-off oyunlarını uğurla keçərək finala yüksəlib. Həlledici görüşdə rəqibinə məğlub olan "Qarabağ Tallin" turnirin gümüş mükafatçısı adını qazanıb.

Komandanın futbolçusu Lev Visman xüsusi fərqlənərək turnirin ən yaxşı oyunçusu seçilib.

"Suqovuşan" beynəlxalq turnirinin gümüş medalları "Qarabağ Tallin" komandası üçün uğur olmaqla yanaşı, birlik, qarşılıqlı dəstək və ortaq məqsədin ölkə hüdudlarından kənarda da nailiyyətlərə aparmasının növbəti sübutu olub.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 99 (31068) 9 iyun 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### Gimnastlarımız 3 qızıl, 2 gümüş və 3 bürünc medal qazandılar




**Azərbaycan təmsilçiləri Milli Gimnastika Arenasında keçirilmiş akrobatika və aerobika gimnastikası üzrə FIG Dünya Kuboku və AGF Trophy kubokunda üç qızıl medal qazanıblar.**

Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, üç gün davam edən kubok yarışlarında akrobatika və aerobika üzrə ümumilikdə 14 ölkədən 220-yə yaxın, turnirdə isə 10 ölkədən 150-dən çox idmançı bacarıqlarını nümayiş etdirib.

Dünya Kubokunda Azərbaycan millisi yarışı 1 qızıl medalla başa vurub. Anahita Bashiri, Zəhra Rəşidova və Nəzrin Zeyniyevadan ibarət qadın qrup rəqiblərini geridə qoyaraq 29.300 xalla qızıl medal qazanıb.

Bundan başqa, Azərbaycan gimnastları beynəlxalq turnirə 2 qızıl, 2 gümüş və 3 bürünc medal qazanıblar.

### Tennisçi Onur Quluzadə İsveçdə 3-cü oldu




**Stolüstü tennisçi Onur Quluzadə İsveçin Helsinborq şəhərində təşkil olunan "WTT Youth Contender" turnirində etimadı doğruldub.**

Azərbaycan Tennis Federasiyasından verilən məlumata görə, seçmə komandanın baş məşqçisi Mixail Timofeyevin rəhbərliyi ilə yarışa qatılan idmançı, İsveç və Fransa təmsilçiləri üzərində qələbələrlə qrup mərhələsini lider kimi başa vurub. Ardınca İsrail və Lüksemburq idmançılarına qalib gələn Onur, yarımfinalda fransalı rəqibinə uduzaraq yarışı üçüncü yerdə başa vurub.

Qeyd edək ki, istedadlı idmançı bu gün Beynəlxalq Stolüstü Tennis Federasiyasının iyunun 13-dək İsveçin Halmstad şəhərində keçirəcəyi təlim-məşq toplanışına qatılıb.

### Avropa çempionlarının zəfər turu



**2-ci dəfə Avropa çempionluğunu bayram edən minifutbol üzrə milli komandamızın zəfər turu təşkil olunub. Tur marşrutu boyunca paytaxt sakinləri və şəhər qonaqları Avropa çempionlarını salamlayaraq onların tarixi nailiyyətini böyük sevinc və qürur hissi ilə qarşılayıblar. Milli komandanın üzvləri azarkeşlərlə ünsiyyət quraraq dəstəyə görə təşəkkürlərini bildiriblər.**

Mərasim Azərbaycan minifutbol tarixində əldə edilmiş bu mühüm uğurun qeyd olunması və komandanın qələbə sevincinin azarkeşlərlə bölüşülməsi məqsədilə təşkil edilib. Bayraq və şüarlarla müşayiət olunan görüş ölkədə idmana olan marağın və milli komandaya dəstəyin daha bir nümunəsinə çevrilib.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Yeni nəşrlər*

# Gülü solmuş Güllücə…




**Neçə gündür bir kitab əlimdən düşmür. Adı belədir: "Salam, Qarabağım! Xoş gördük, Güllücəm!" (Qarabağa qayıdış: xatirələr, duyğular, arzular). Hər səhifəsini böyük maraq və ağrı hissi ilə oxuyur, bir daha ötən 40 ilə yaxın müddətdə keçdiyimiz keşməkeşli yollar haqqında düşünürəm: biz hardan gəlib hara çatdıq? Liderlərin, görkəmli siyasətçilərin və çoxsaylı beynəlxalq qurumların çözə bilmədiyi (daha doğrusu, əncam çəkmək istəmədikləri) "Dağlıq Qarabağ düyünü"nü Ali Baş Komandanın rəhbərliyi və xalqın dəstəyi ilə müzəffər Azərbaycan Ordusu 44 gün ərzində əsaslı şəkildə həll etdi.**

Amma 30 ildən çox torpaqlarımızı işğal altında saxlayan düşmənin təbii sərvətlərimizə, maddi mədəniyyət abidələrimizə, yaşayış məskənlərimizə vurduğu yaraları sağaltmaq, ağılasığmaz vandallığın ağır nəticələrini aradan qaldıra bilmək üçün illərlə çalışmaq lazım gələcək. Hər halda, bu gün aparılan böyük quruculuq işləri onu deməyə əsas verir ki, Qarabağın sabahı daha gözəl, daha möhtəşəm olacaq...

O da məlumdur ki, biz daim sayıq olmalı, keçmişi, xüsusilə düşmənin işğal zamanı insanlarımıza yaşatdığı vəhşilikləri unutmamalı, məkrli planlarının qarşısını vaxtında almalıyıq. Bu istiqamətdə qələm sahiblərinin üzərinə də müəyyən vəzifələr düşür. Qarabağ mövzusu hərtərəfli yazılmalı, tarixi və bədii əsərlərdə, sənədli, bədii filmlərdə geniş əksini tapmalı, başqa sözlə, yeni Qarabağnamələr yaradılmalıdır.

Bəlli ki, indiyədək Qarabağ mövzusunda az yazılmayıb. Əksər yazıçı və şairlərimiz bu mövzuda irili-xırdalı çoxsaylı əsərlər ortaya qoyublar, filmlər də çəkilib. Xalq yazıçıları Sabir Əhmədov və Mövlud Süleymanlı, Aqil Abbas, Seyran Səxavət, Əlabbas, Elçin Hüseynbəyli, Hüseynbala Mirələmov və başqaları bu mövzuda dəyərli əsərlər yazmışlar. Amma ümumi fikir budur ki, işğal illərində ermənilərin vəhşiliklərinə, xalqın bu cənnətməkan torpaq uğrunda mübarizəsinə və ordumuzun böyük qələbəsinə layiq daha sanballı əsərlərin yazılmasına ehtiyac var.

Qarabağ mövzusunda çoxsaylı əsərlərin müəlliflərindən biri elə haqqında söz açdığım ("Salam Qarabağım! Xoş gördük, Güllücəm!" (Qarabağa qayıdış: xatirələr, duyğular, arzular) elmi, bədii-publisistik oçerklər kitabının müəllifi yazıçı-publisist, filologiya elmləri doktoru Elçin Mehrəliyevdir. Onun müxtəlif illərdə qələmə aldığı "Doxsanıncı illər", "Tale döyüşü" və "Qaçqın" romanları, ikihissəli "Yurd yeri" telepyesi, "Qamış", "Sınıq araba", "Qiymət" və digər hekayələri və onlarca araşdırma yazıları fikrimizə sübutdur. Bunlarla yanaşı, o, "Qarabağ uğrunda mübarizə və Azərbaycan ədəbiyyatı" mövzusunda da bir neçə dəyərli monoqrafiyanın müəllifidir.

Elçinin yeni əsəri yurdla yurddaşın qırılmaz ruhi-mənəvi bağlantısının əks-sədasıdır. Əsər müəllifin düşmən tərəfindən dağıdılmış Güllücə kəndinə səfər təəssüratı əsasında, duyğulu təfərrüatlarla qələmə alınır. Elə ilk səhifədən onun əhvali-ruhiyyəsini duyuruq: "Salam Qarabağım! Xoş gördük Güllücəm!", əslində, sevinc, fərəh hisslərini ifadə etməli olan bu sözlər mənim uzun illərin həsrətindən sonra, hər şeyi talan edilib, dağıdılıb, yağmalanıb viran qoyulmuş vəziyyətində ulu yurdumla görüş zamanı içimdən ağrılı bir inilti ilə gələn səssiz pıçıltı oldu...".

Görünməmiş vandallıq nümunəsi ilə rastlaşan yazıçı-publisist yaddaşında yaşatdığı kəndini, onun gözəlliklərini, insanlarını göz önündən keçirir, gülü solmuş Güllücənin illər uzunu çəkdiyi ağrılardan söz açır. Bu təzadlı anları yazıçı çox ustalıqla qələmə alır. Bu, bir el-obanın timsalında xalqımızın 30 ildə yaşadığı sarsıntılı həyatı və yurda, torpağa hədsiz sevgi və sədaqəti haqqında təsəvvür yaratmağa imkan verir. Əsər, demək olar ki, Qarabağ uğrunda mübarizədə keçilən bütün mərhələləri əhatə edir.

Büsbütün qayəsi ilə milli birliyə səsləyən bu əsərdən doğan əsas ideya budur ki, biz tarixin dərslərini unutmamalıyıq – unutqanlıq gələcək üçün ciddi təhdiddir! Bu baxımdan, əsəri Dağlıq Qarabağ həqiqətlərini ucadan bəyan edən və onların keşiyində dayanmağa səsləyən ədəbi yaddaş kitabı kimi də dəyərləndirə bilərik.

*Səməd MƏLİKZADƏ*
*yazıçı-publisist*

# "Bizim Cəbiş müəllim" Çində




**Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələri Çində keçirilən müsabiqə üçün "Bizim Cəbiş müəllim" filmindən bəzi fraqmentləri Azərbaycan dilində səsləndiriblər.**

Çinin 10-dan çox ali təhsil ocağının Asiya dilləri üzrə təhsil alan tələbələri arasında keçirilən "Asiyanın səsi" müsabiqəsinə universitetin Azərbaycan dili ixtisası üzrə təhsil alan tələbələri filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyevin rəhbərliyi altında hazırlaşıblar.

"Xəzərin sədası" adlı komanda İkinci Dünya müharibəsi illərində Bakıda hər cür maddi çətinliklərə dözüb, ailəsini halal zəhmətlə dolandırmağa çalışan sadə adamların mənəvi ucalığından söhbət açılan "Bizim Cəbiş müəllim" filmindən bəzi hissələri Azərbaycan dilində səsləndirərək müsabiqəyə təqdim ediblər. Münsiflər heyətinin qərarı ilə "Xəzərin sədası" komandasının işi 2-ci yerə layiq görülüb.

*XQ*

# Balaca rəssamların İtaliya uğuru

**Bakıdakı 1 saylı uşaq evinin 5 gənc və istedadlı rəssamı incəsənətdə ilk addımlarını atsalar da, artıq ilk sənət sevincini yaşayırlar. Bu günlərdə onların yaratdıqları əsərlər İtaliyanın Kassine şəhərində yerləşən 17-ci əsrə aid Palazzo Mandrilli Qalereyasında "Mənim Dünyam" adlı sərgidə nümayiş etdirilib və ziyarətçilər tərəfindən maraqla qarşılanıb.**



Uzaq İtaliyada 28 May–Azərbaycanın Müstəqillik Gününə həsr edilmiş bu mərasimdə Bakıdakı uşaq evindən olan rəssamların əsərlərinin sərgilənməsi Sən1Sən Beyin Mərkəzinin dəstəyi ilə mümkün olub. İyunun 6-da Mərkəzin Bakı ofisində baş tutan sertifikatların verilmə mərasimində qurumun təsisçisi Fəridə Quluzadə çıxış edərək bildirib ki, İtaliyada təşkil olunacaq gələcək rəsm sərgilərində də uşaq evlərindən olan gənc və istedadlı rəssamların əsərlərinin iştirakı təmin edələcəkdir.

Qeyd edək ki, dövlətimizin uşaq evlərinə olan qayğısı, maddi-texniki şəraitin yaxşılaşdırılması orada məskunlaşan uşaqların sağlam böyüməsi ilə yanaşı, onların yaradıcılığı üçün də əlverişli şərait yaradır. Müəssisədə çalışan müəllimlərin dəstəyi ilə bu uşaqların istedadları üzə çıxarılır, onların hərtərəfli inkişaf üçün dəstək göstərilir.

*Q.YUSİFOĞLU*
*XQ*

## HAVA

# Bakıda yağmursuz, rayonlarda qısamüddətli yağış və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin səhər bəzi yerlərdə yağış yağacağı proqnozlaşdırılır. Yarımadanın ayrı-ayrı yerlərində qısa müddətə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Gecə arabir zəif duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək, səhər cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 15-19, gündüz 23-28 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə



intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi şərq rayonlarında yağıntıların bir qədər güclənəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 16-20, gündüz 28-33, dağlarda gecə 8-13, gündüz 15-20, bəzi yerlərdə 23-28 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

***✓ 2013-cü il mayın 15-də Yeni Azərbaycan Partiyasının Gəncə Şəhər təşkilatı tərəfindən Kazımzadə Surət Hörmət oğlunun adına verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

***✓ 2014-cü il aprelin 28-də Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi tərəfindən "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinə verilmiş 8083 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.***

***✓ 2023-cü il oktyabrın 30-da Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən İdman Sağlamlıq Klubunun Hüquq məsləhətçisi Həmdiyyə Əyyub oğlu Məmmədovun adına verilmiş 1012123 A nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

# "Şəmkir-Taxıl" ASC səhmdarlarının nəzərinə!

24 iyul 2026-cı il saat 11.00-da "Şəmkir-Taxıl" ASC səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin idarə heyətinin, müşahidə (direktorlar) şurasının və maliyyə-təftiş komissiyasının tərkibinin formalaşdırılması.

**2.** İdarə heyətinin üzvlərinin və sədrinin seçilməsi.

**3.** Digər məsələlər.

**Əlaqə telefonu:** *(051)-566-57-57.*

*"Şəmkir-Taxıl" ASC-nin direktoru -*
*Novruzov Elşən Novruz oğlu*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Memarlıq və İnşaat Universitetinin iqtisadi nəzəriyyə və marketinq kafedrasının əməkdaşları kafedra müdiri, professor

**ASƏF AĞAYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apellyasiya Məhkəməsinin kollektivi Bakı şəhəri Xətai Rayon Məhkəməsinin sədri Vahid Sadıqova anası

**DÜNYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3186
SİFARİŞ 726
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00